**Ixtisas : Məktəbəqədər təhsil**

**Kafedra : Psixologiya ,pedaqogika və sosial fənnlər**

**Fənn: Kurikulumun əsasları**

**Müəllim : Məmmədli K.E.**

Mövzu 1: KURİKULUMUN ƏSASLARI

**PLAN:**

1. Kurikulumun mahiyyəti
2. Kurikulumu zəruri edən tələblər
3. Ənənəvi təhsil proqramı.Müasir kurikulum
4. Fənn kurikulumu.Milli kurikulum

1.Kurikulum dünya miqyasında geniş yayılmış təhsil modellərindən biri və islahatların bir istiqamətidir.İlk dəfə kurikulum anlayışı ABŞ-da 70-ci illərdən sonra formalaşmış (1876-cı ildə) və termin kimi işlənmiş, 1918-ciildən isə tətbiq olunmağa başlamışdır.Kurikulum latın sözü olub,"elm","kurs","istiqamət","qaçış","yol" mənasını daşıyır.Bir müddət üzərində işləndikdən sonra əcnəbi ölkələrin lüğətinə"tədris planı""proqram","təlim kursu" kimi daxil olmuşdur.Azərbaycanın lüğət tərkibində isə 90-cı illərin sonundan termin kimi işlənməyə başlayıb.2008 –ci ildən etibarən isə tətbiq olunmağa başlanmışdır.

Kurikulum hal-hazırda mövcud olan təhsilsisteminin yeni formalaşmışproqramıdır və təhsilin əsasını təşkil edən sənəd kimi dünyada tanınır. Bidiyimiz kimi,ölkəmizdə əvvəllər mövcud olan təhsil sistemində müəllim sinifdə avtoritar tətbiq edərək ev tapşırıqlaını yoxlayıb,dərsi soruşurdu,ardınca yeni dərsi izah edirdi,qiymətləndirmə aparıb dərsi tamamlayırdı.Yəni müəllim köhnə sistemdə şagirdin beyninə yeritdiyi nəzəriyyə ilə düsturları, qaydaları əzbərlətməklə kifayətlənirdi.Ancaq bu rejim artıq müasir təhsil sisteminə və şagirdlərin tələbatına tam cavab vermir.Çünki yeni nəsil daha çox araşdırma apararaq nəyisə öyrənməyə çalışır.Əgər şagird öyrəndiyi düsturu tətbiq edə bilirsə,deməli şagird öz biliyini bacarığa çevirə bilib. Şagird öz biliyini tətbiq etməklə yalnız bacarığa yiyələnmir, həmçinin şagird vərdiş,dəyər,keyfiyyət kimi kompetensiyaları da özündə formalaşdırmış olur ("Competençe"sözündən əmələ gəlib, fransız mənşəli sözdür,"bacarşq,sərişdə" deməkdir. "Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir")

2.Kurikulum islahatını zəruri edən tələblər aşağıdakılardır:

-Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması; Cəmiyyətdə yeni münasibətlərin formalaşması,sosial şəbəkələrin daha çox həyatımızda yer

alması,bunlar vasitəsilə əcnəbi insanlarla ünsiyyət, bəzi xaricdə olan təhsil ocaqları ilə əlaqələrin formalaşması, bundan başqa son illərdə ölkəmizdə keçirilən dünya səviyyəsində olan tədbirlər(Formula 1,Evrevision,İslam oyunları və s.) nəticəsində əcnəbilərin ölkəmizə axını və s. Kurikulum sisteminin tətbiqini ölkəmizdə dahada sürətləndirdi.

-Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması.Yeni islahatlar,şəxsiyyətyönümlü kurikulumun tətbiqi,dərsin yeni quruluşu,qiymətləndirmənin dəyişməsi,əvvəlki dərsliklərin yeni dərsliklərlə əvəz olunması,tətbiq olunan üsllar,formalar, dərsin planı,müəllimin qarşısında qoyulan tələblər və s. Xaricdə təhsil alan tələbələrin sayının çoxluğu istər-istəməz yeni yanaşmaların formalaşmasına təsir edir.

-Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;Artıq müəllim dərsi şagirdlərə hazır şəkildə ötürmür,müəllimin tələblərinə uyğun dərs qurulmur.Hazırki sistemimiz bazar iqtisadiyyatına uyğun qurulub,yəni şagirdlərin sərbəst düşünməsi, azad düşüncə əsas götürülür.

-Mövcud təhsil proqramının müasir tələblərə uyğunsuzluğu;Əvvəlki təhsi sisteminin müasir təhsil standartlarına cavab verə bilməməsi Kurikulum sisteminin ölkəmizdə tətbiqinə gətirib çıxardı.

-İnformasiya əsrinin tələbləri;Fikir versək görərik ki, müasir kitablarda nəzəri hissə əvvəlki illərlə müqayisədə çox az verilib.Bunun əsas səbəblərindən biridə odur ki,şagirdlər kitabla yanaşı internetdən də istədikləri məlumatı çox qısa zamanda əldə edə bilirlər.Bundan əlavə, kompüterdən istifadə etməyi,dərsləri slaydlarla keçməyi və s. Artıq bütün təhsil sahəsində olan hər kəs bacarmalıdır, çünki dövrümüz bunu tələb edir.məsələn MİQ imtahanlarının kopüterlə keçirilməsi buna əyani sübutdur.

- Dünya təhsil sisteminə inteqrasiya(əlaqə)Kurikulumun azərbaycanda tətbiqi dünya təhsil sisteminə inteqrasiyanın bariz nümunəsidir.ABŞ-da formalaşmış bir sistemin ölkəmizdə tətbiqi dünya tətbiqi ilə inteqrasiyanı formalaşdırmış olur.

| Ənənəvi təhsi proqramı | Müasir kurikulum |
|---|---|
| 1. Bilikyönümlüdür(bilik ön planda dururdu),Müəllimin əsas funksiyası şagirdlərə məlumat çatdırmaq və onun mənimsənilməsi üçün şərait yaratmaq idi.<br>2. Tədrisdə Avtoritar üslub əsasdır.(müəllimin fikri düşüncəsindən daha önəmli sayılır.<br>3. Şagirdlər daha passiv idi,müəllim daha ön planda idi.<br>4. Fənyönümlüdür.Fənnin məqsədinə yönəlmiş təlimdir.Hazır halda əldə edilən biliklərin möhkəmləndirilməsi yolu ilə mənimsənilməsi.Yəni ki, dərs tədris fənni çərçivəsi ilə məhdudlanır,şagirdlərin başqa fəaliyyəti olmur.<br>5. İnteqrasiya arxa planda qalırdı.<br>6. Müəllimyönümlüdür.<br>7. Proqramın tələblərinə yönəlmişdir.Fənnin məqsədinə yönəlib.<br>8. Monoloji təlim(müəllimin nitqi, müəllimin idarəçiliyinə yönəlmişdir,şagird passiv tərəfdə qalırdı.<br>9. Hər yeni dərs müəllimin izahı ilə nəticələnirdi.İzahedici-İllustrativ təlimə əsaslanır.<br>10. Təklifyönümlüdür.Həmin dövrdə təklif yalnız müəllimlər tərəfindən dəyərləndirilirdi.<br>11. Fəndaxili və Fənlərarası əlaqə məqsədyönlü və sistemli xarakter daşımır.<br>12. Bəzi fənlər üzrə qiymət normaları müəyyən edilib.Şagirdlər 3,4,5 ilə qiymətləndirmə<br>13. Hafizəyə əsaslanır(əzbərçilik əsas rol oynayırdı).<br>14. Reproduktiv(təkraredici)tətbiqetmədir<br>15. Müəllim əsas bilik mənbəyidir.<br>16. Şagirdlər yeni bilikləri müəllimin məlumatları və izahlarını qavrama və yadda saxlama əsasında mənimsəyir.<br>17. Təlim prosesində şagirdlər arasında | 1. Şəxsiyyətyönümlüdür(şagirdə bilik verməkdən çox şəxsiyyət kimi yetişdirir Təhsilin məzmunu ilə yanaşı şagirdlərin tərbiyə və inkişafında təlim metodlaı və təşkilati formalarda mühüm rol oynayır<br>2. Tədrisdə Demokratik üslubəsasdır(şagirdlərdə azad düşüncə formalaşır)<br>3. Şagirdlər daha aktiv, müəllim daha arxa plandadır.<br>4. Təlim nəticələrinə yönəlmiş təlimdir. Məsələnin həlli prosesində biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi ön planda durur.<br>5. İnteqrasiya dərsin əsasını təşkil edir.<br>6. Şagirdyönümlüdür.<br>7. Şagirdin tələbləri daha ön planda dayanır.<br>8. Dialoji təlim(həm müəllim,həm də şagird aktivdirlər və ön planda dayanır.<br>9. Şagirdlər motivasiyadan əldə olunan təcrübələrlə yeni dərsi mənimsəmiş olur<br>10. Tələbyönümlüdür(hər dövrün öz tələbi var və müasir dövrün tələbinə uyğun olan sistem formalaşır)<br>11. İnteqrativlik(fənlərarası əlaqə)əsas prinsip kimi qəbul olunur.<br>12. Qiymətləndirmə standartları və mexanizimləri.<br>13 Təfəkkürə əsaslanır.(şagirdlərin düşüncə tərzinin və məntiqinin formalaşmasında və inkişafında böyük rol oynayır.Evristik təlim(evrika tapmaq deməkdir.Tədqiqat və təlim üsullarından istifadənin üstünlük təşkil etməsi,mənti- qi yanaşma,optimal variantın tapılması və s.<br>14. Produktiv(yaradıcı)təlimə əsaslanır.<br>15. Bilik mənbələri müxtəlifdir.<br>16. Şagirdlər yeni bilikləri tədqiqat zamanı dərk edirlər.<br>17. Təlim prosesində şagirdlər arasında ünsiyyət olur,cütlük,qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir.<br>18. Təlim prosesinin mərkəzi tədqiqatdır<br>19. Təhsil məzmunu ilə yanaşı,şagirdlər |

| | |
|---|---|
| ünsiyyət olmur.Müəllim-sinif və ya müəllim şagird ünsiyyəti üstünlük təşkil edir.<br>18. Təlim prosesinin mərkəzi mühazirədir.<br>19. İnkişafetdirici və tərbiyəedici amil kimi əsasən təhsil məzmunu götürülür.<br>20. Dərs demək olar ki həmişə adi qaydada keçir.<br>21. Müəllim bütün funksiyalarını qoruyur Konservatizmə əsaslanır(yeni dəyərlərə qarşı olmaq,köhnə dəyərləri mühafizə etmək və qorumaq deməkdir.Əldə olunan və mövcud olan vəziyyətin,cəmiyyətin dəyişməsinə və dəyərlərin yoxa çıxmasına qarşı çıxan bir ideyalogiyadır. | in tərbiyə və inkişafında təlim metodları və təşkilat formaları da mühüm rol oyna yır.<br>20. Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayılan və ona qarşı qoyulan bəzi elementləri məsələn:semi nar –dərs,oyun –dərs,yarış-dərs,konfrans-dərs və s.assimilyasiya edir.<br>21. Müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsisəciyyəvidir:bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi(qarşılıqlı və özünüqiymətləndirmə),işin planlaşdırılması,tədqiqat və özünüqiymətləndirmə elementləri. |

Hər bir fənnə aid kurikulum mövcuddur və buna Fənn Kurikulumu deyilir.Fənn kurikulumu sırf bir fənnə aid olur.Məsələn,ingilis dili fənn kurikulumu sırf ingilis dili ilə bağlı sənəddir.Təhsil səviyyələri və siniflər üzrə təlim nəticələri fənn kurikulumunda öz əksini tapır.Fənn kurikulumunda biliklərin həcmi və miqdarı əsas götürülür.Təlimin məzmunu,təlim strategiyaları,şagird nailiyyətinin qiymətləndirilməsi də burada qeyd edilir.

Milli xarakteri özündə əks etdirən kurikuluma isə Milli Kurikulum(Ümumi Təhsil Kurikulumu)deyilir.Milli Kurikulum daha geniş məzmunludur.Bir fənnə deyil,ümumi təhsillə bağlı sənəddir.Təhsilin səviyyələri üzrə təlimin nəticələri yəni bir fənn təlim nəticəsi deyil,ümumu təhsilin təlim nəticəsi burada əsas götürülür.Ümumi təhsil səviyyələri üzrə təlim nəticələri,təhsil səviyyələri üzrə tədris olunan fənlər, ümumi təhsil səviyyələri üzrə dərs və dərsdənkənar məşğələ saatlarının miqdarı, padaqoji prosesin təşkili prinsipləri, şagird nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi haqqında ümumu məsələlər Milli Kurikulumda öz əksini tapmışdır.

## 2. KURİKULUMUN NÖVLƏRİ

**PLAN:**

1. Rəsmi, Qeyri rəsmi kurikulum
2. İnteqrasiya olunmuş və əhatəli kurikulum
3. Nəticələrə və fənnlərə əsaslanan kurikulum

Kurikulum təhsilin (və ya təlimin) məzmunu,təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə birləşdirən sənəddir.Hər bir müəllim oz fənnini kurikulum sənədinə uyğun qurmalıdır.Kurikulumun aşağıdakı növləri vardır.

1. Rəsmi kurikulum-(Rəsmi Məktəbləri dövlət səviyyəsində əhatə edir).Rəsmi məktəb sistemində formalaşmış və biliklərin tədrisi ilə əlaqədar olan xüsusi kurikulum növüdür.Yəni rəsmi sənədlər, hər bir fənnə ayrılan vaxt,dərs planları, hər bir fənnin qiymətləndirilməsi, dərslər və s. rəsmi sayılan hər şey rəsmi kurikuluma aiddir.(məsələn şagirdlərə kitabdan A hərfini keçməyimiz rəsmi kurikuluma aiddir.

2. Qeyri-rəsmi kurikulum-( Rəsmi Məktəblərə aid olmayan kurikulumdur).Rəsmi məktəb kurikulumunun tərkib hissəsi olmayan biliklərin tədrisi, məsələn,dərnəklər rəsm kulubları,dram klublar,şahmat klubları,musiqi klubları və s.əhatə edir.Yəni dərsdən kənar məşğələlər qeyri rəsmi sayılır.(şagirdlərə A hərfinin şəklini çəkməyi və ya plastilin ilə həmin hərfi düzəltməyi tapşırmaq qeyri rəsmi kurikuluma aiddir)

3. İnteqrasiya olunmuş kurikulum- ayrı-atrı fənlərlə bağlı biliyi əhatə edir.Bu növ kurikulum fənləri asanlaşdırmağa xidmət edir,yəni Azərbaycan dilində sentyabrda İsim mövzusunu keçən şagirdlər oktyabrda İngilis dilində İsim mövzusunu keçən də, artıq bu mövzu barədə məlumatları olmuş olacaq və bu mövzu onlara tanış gəlmiş olacaq.İnteqrasiya əsasən təlimi asanlaşdırmaq üçün istifadə olunur.Əsasən ayrı-ayrı fənlərlə bağlı bilikləri əhatə edir.Bir fənni ya fəndaxili,ya da digər fənlər ilə əlaqələndirilməsi və biliklərin sintez prosesi inteqrasiya olunmuş kurikulumun əsasını təşkil edir.Məsələn,şagird dərs ilinin əvvəlində Ədəbiyyatda Ş.İ.Xətai mövzusunu keçir,dərs ilinin ortasında isə Tarixdən Səfəvi dövlətinin qurucusu-Xətai mövzusunu keçərkən dərs ilinin əvvəlində oxuduğu mövzu ilə əlaqələndirir və dərsi daha yaxşı mənimsəmiş olur.

4. Əhatəli Kurikulum- Bu kurikulum şagirdlərin müxtəlifliyini əsas prinsip kimi götürür.İrqi ayrıseçkilik,yaş ayrıseçkiliyi,fiziki qusurluluq kimi problenlərin həlli burda öz həllini tapmış olur.(yəni şagirdlər arasında heç bir baxımdan ayrı seçkilik etmək olmaz).

5. Nəticələrə əsaslanan kurikulum-və ya onu Tələbatyönumlu kurikulum da adlandıra bilərik.Bu o deməkdir ki, cəmiyyətin tələbatına uyğun kurikulum növündən istifadə olunmalıdır.Ən geniş yayılmış və ən çox istifadə olunan kurikulum növüdür.Onun əsas vəzifəsi təhsil sisteminin müəyyən etdiyi təlim

məqsədlərini müəyyən etməkdir.Yəni, sonda əldə olunacaq təlim nəticələrini əvvəlcədən müəyyən olunması mütləqdir.Əvvəlcədən təlim məqsədləri müəyyən edilməlidir ki, sonda nəticə götürülsün.Şagirdlərə 70-ci illərin sistemi ilə təhsil versəniz, heç cürə nəticə götürə bilməzsiniz.Əlavə olaraq qeyd edək ki, təlim məqsədləri zaman keçdikcə dəyişə bilər.Məsələn,multikulturalizm (çoxmədəniy yətlilik) cəmiyyətini necə formalaşdırmaq olar? Müstəqil cəmiyyət qurmaq üçün şagirdlər hansı bacarıqlara yiyələnməlidirlər?"Zamanla ayaqlaşmaq "fikrini bu kurikulum növünü mənası kimi verə bilərik.

6. Fənlərə əsaslanan kurikulum- Bu modeldə təlim, şagirdləricəmiyyətin məhsuldar üzvlərinə çevirmək üçün lazım olan bilik və bacarıqlardan çox,fənlər ətrafında cəmləşir.Bu modelin tətbiqi ən çox universitet müəllimlərinə şamil olunur.Çünki,əsasən tələbələrə fənnin məzmunu haqqında çoxlu bilik və nəzəriyyə ötürür və onları bir fənn ətrafında birləşdirməyə çalışır.Halbuki,tələbələrin əsas ehtiyac duyduğu təcrübədir.Nəticədə də,şagirdlər real həyatın tələbatlarını ödəməkdə çətinlik çəkirlər.Məsələn, xaricdə olan məktəblərdə şagirdlərə dərs oxumaqdan çox təcrübə qazana biləcəkləri tapşırıqlar verilir və sonda istədiklərini əldə edə bilirlər.Yadda saxlamaq lazımdır ki,fənn məzmunu nə qədər tələbata uygun deyilsə,gənc nəslin də bir o qədər təhsil tələbatı ödənilməmiş qalacaq.

## 3. KURİKULUMUN PRİNSİPLƏRİ (Əsas xüsusiyyətləri)

**PLAN:**

1. Şəxsiyyətyönümlülük
2. Şagirdyönümlülük
3. Tələbyönümlülük
4. Qiymətləndirmə standartları

1.Kurikulum prinsiplərinin müasir təhsil sisteminin formalaşmasında böyük rolu var.Çünki bu xüsusiyyətlər şagirdin bilikdən çox təcrübə qazanmasına,həmçinin onların şəxsiyyət kimi formalaşmasına çox təsir edir.Kuikulumun əsas xüsusiyyətləri (prinsipləri) isə bunlardır:Şəxsiyyətyonümlülük; şagirdyönümlülük; nəticəyönümlülük; tələbyönümlülük; interaktivlik və qiymətləndirmə standartları.

1.Şəxsiyyətyönümlülük .Təhsil alanların idraki(koqnitiv),ünsiyyət və psixomotor fəaliyyətləri əsasında bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır.Ümumiyyətlə şagirdi şəxsiyyət kimi yetişdirmək üçün ona sadaladığımız bacarıqları aşılayaraq hər üçünü də şagirddə formalaşdır mağımız ən önəmli faktorlardan biridir.Çünki, şagirdin idrak bacarığı olub da ünsiyyət və psixomotor bacarığı olmazsa,o ğz fikrini çatdıra bilməyəcəkdir.Məsə lən, şagirdin şeyri öyrənməsi idrak bacarığıdır, şeyri söyləyə bilməsi ünsiyyət bacarığına, jest və mimikalarla şeri söyləməsi isə psixomotor bacarığa aiddir.Yəni, hər bir insanı insan edən həm onun düşüncəsidir,həm hissləri, həm duyğuları,həm də hərəkət və davranışlarıdır.İdrak bacarıqları dedikdə, məsələn şagirdlərin bilik, qavrama səviyyəsi əsas götürülür. Şagirdin hər hansı məlumatı xatırlaması,onun haqqında fikirləçməsi, dərk edərək başa düşməsi,nümunə göstərməsi,qaydanı izah etməsi, hər hansı vasitədən istifadə etməsi, əşyanı və situasiyanı adlandırması,onları sadalaması,sıralaması, hər hansı hadisəni təhlil etmə bacarığının formalaşması,hər hansı əsəri oxuyub beynində təhlil etməsi,həm müqayisə hə də fərqləndirə bilməsi,sinif yoldaşı dərs danışdıqca mövzunun məzmununu dərk edərək dəyərləndirməsi və s. Bu kimi beyni fəaliyyətə gətirən bacarıqlar başa düşülür.Bir sözlə şagirdin idraki bacaıqları onun beyin fəaliyyətinə aiddir,onun düşüncə və təfəkküründü formalaşdıran bacarıqlardır.

Şagirdin ünsiyyət bacarıqları dedikdə,(şagirdlərin həm bilik, həm də nitq qabiliy yətinin olması zərurət daşıyır) onun düşüncələrini ifadə etmə tərzini formalaşdıran bacarıqlar kimi başa düşülür. Bu fəaliyyətdə üstünlük verilən əsasən şagirdin emosional hisslərdir.Şagirdlərin ünsiyyətlə bağlı bacarıqları və fəaliyyətləri onların ünsiyyət qabiliyyətini formalaşdıran əsas prinsiplərdir.Bu bacarığın inkişa fını tımin edən şagirdin öz seçimini izah edə bilməsi,hər hansı bir əşyanın quruluşu nu təsvir edə bilməsi,hər hansı bir fikri şərh etəsi,oxuduqlarını nəql etməsi,qruplarla iş zamanı müzakirələrdə iştirak etməsi,oxuduğu mövzunu təqdim

etməsi,hər hansı vəziyyətə reaksiya verməsi,məsələyə münasibət bildirməsi kimi bacarıqlardır.Şagirdin psixomotor bacarıqları dedikdə (jest və mimikalardan istifa də etmək bacarığı) şagirdlərdə hərəki bacarıqların və hərəki fəaliyyətin inkişafı və formalaşması kimi başa düşülür. Şagirdlərin fiziki olaraq hər hansı işi görməsi,rəqs etməsi,jest və mimikalardan istifadə edib öz təəssüratını bidirməsi,müsiqi alətlərində çalması,idman edəkən tiullanması,qaçması,eşitdiyi və ya oxuduğu cümləni yazması, müxtəlif məlumatlar hazırlaması,şəkil və fiqurların elementlərini çəkməsi kimi bacarıqlar psixomotor bacarıqlara aiddir.

2.Şagirdyönümlülük təlim zamanı təhsil sahəsində fəaliyyətlərin təhsilalanların mənafeyinə,maraq və tələbatının ödənilməsinə,istedad və qabiliyyətinin,potensial imkanlarının və bilik səviyyələrinin inkişafına xidmət etməsidir.Hər şagirdin yaş dövrünün öz maraq dairəsi və tələbatları vardır.Ümumiyyətlə kurikulumun əsas məqsədlərindən biri dərsi şagirdlərin maraq və tələbatına uyğun qurmaqdır.Dərs nə qədər şagirdlərin marağına uyğun təşkil edilsə, nə qıdır onların tələbatları ödənsə, bir o qədər də onların həyatda öz mövqelərini müəyyən etmələrinə kömək etmiş olarıq.Əgər şagirdin dərsə marağı olmazsa və həmçinin dərsdə qarşıya qoyduğu muz problem onların potensiallarına və yaş səviyyələrinə uyğun olmazsa, şagirdlər dərsi qavramaqda problem yaşayacaqlar.Əsas məsələ şagirdin yaş səviyyəsini nəzərə almaqla onlarda dərsə qarşı maraq oyatmaqdır.Həmçinin qeyd etmək lazımdır ki, müasir dərsliklər də şagirdlərin tələbinə cavab verəcək formada hazırlanıb.

3.Nəticəyönümlülük.Əldə olunması nəzərdə tutulan təlim nailiyyətlərinin nəticələr formasında əvvəlcədən müəyyən edilməsidir.Nəticəyonümlülük bir növ görəcəyin işi əvvəlcədən planlaşdırmaqdır yəni ki, dərs ilinin sonunda əldə olunacaq əldə edəcəyi nəticə olur və onu sənəddə görə bilir.Hər bir fənn kurikulumunun fənninin sonunda yiyələnməli olduqları bacarıqlar verilib.Yəniki şagirdlərin dərs ilinin sonunda əldə edəcəyi nəticə əvvəlcədən müəllimin əlində sistemləşdirilmiş formada olur.Hər bir müəllim də işini planlı şəkildə quraraq şagirdləri həmin nəticəyə uyğun formalaşdırmağa çalışmalıdır. Bir sözlə,işimizi yaxşı nəticələndir mək üçün, əvvəlcədən planımızı qurmalıyıq, necə ki hər hansı bir işi həyata keçirmək istəyəndə,əvəlcədən planlaşdırırıq.Planlı şəkildə qurulan işin nəticəsi olduğu kimi, təhsil sahəsindədə keçirilən bu nəticəyönümlülük prinsipi təhsili planlı və sistemli qurulmasına kömək etmiş olur.Ona görədə sonda əldə olunacaq nəticənin əvvəlcədən müəyyən olunmasına nəticəyönümlülük deyilr.Məsələn, biri imtahana hazırlaşıb gedir, digəri hazırlaşmada gedir,əlbəttə ki,əvvəlcədən hazırlaşanın nəticəsi müsbət olacaq.

4.Tələbyönümlülük.Fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatları nın nəzərə alınmasıdır.Hər bir dövr öz tələbləri ilə bərabər gəlir və öz təhsilini, texnologiyalarını,ehtiyaclarını tələb edir. Müasir dövrün tələbləri:yaradıcılıq və innovatik; tənqidi təfəkkür və həll etmə bacarığı, kommunikativ və əməkdaşlıq

bacarıqları,informasiya və savadlılıq, İKT savadlılığı(İnformasiya Kommunikasiya Texnalogiya);uyğunlaşma bacarığı,təşəbbüs və özünüistiqamətləndirmə.

Dəyişən dövrün tələbləri də müxtəlifdir,məsələn,əvvəllər metroda,avtobusda hər kəs kitab oxuyardı, ancaq indi gözlə görüləcədə kitab oxuyanların sayı aşağı düşüb. Əvvəllər müəllimlərin vəsaiti sadəcə kitab idi,onunla dərs keçməklə kifayətlənir dilər.Ancaq indi müasir dövr müəllimlərin qarşısına müasir dövrün tələblərinəuyğun məsələn slaydla,elektron vəsaitlərlə dərs keçmək üçün İKT bacarıqlarına yiyələnmə kimi tələblər qoyur.Bundan başqa 10-15 il əvvəl uşaqlar gizlənqaç, evcik-evcik,ortada qalma və .s bunun kimi oyunları sevirdilər.Ancaq dövr dəyişdikcə uşaqlar və onların məşğuliyyətləri də dəyişdi.Müasir uşaqların əyləncəsi əsasən telefon,internet,kompyuter oyunları, televizor,müasir fərqli oyunlar və oyuncaqlardan ibarətdir.Bu onu göstərir ki,zamanın dəyişməsi,nəinki insanlara,həmçinin onların düşüncə tərzlərinə,məşğuliyyətlərinə və ən əsası təhsilinədə təsir edir.

5. İnteqrativliktəhsil komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsidir.İnteqrasiya dünyanın bütöv,vahid və bölünməz obraz olduğunu şagird beynində və təfəkküründə canlandıraraq formalaşdırır.İnteqrasiya latın dilində"integratio"-"bərpa edilmə,doldurmaq,yerinə gəlmə,tamamlama";"unteger"-"bütöv"deməkdir.

6.Qiymətləndirmə standartları.Təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.Hər bir dövlət özünün standartları əsasında öz öhdəliklərini həyata keçirir.Məsələn bizim ölkədə dövlət şagirlərə 11 illik standart qoyub,yəni 11 illiyi bitirən üniveristetə sənəd versə 4 il(və ya 5il)oxumalıdır.Amma başqa ölkələrdə fərqlidir.Paltarlara(S,L,M); ayaqqabılara(35,36,..44,45)standart ölçü qoyulub bundan böyük olanlar artıq standartdan kənar sayılır.Ümumiyyətlə standart dövlətin qəbul etdiyi bir normadır.Yəni ki,dövlət təhsilin qarşısına hansı standartları qoyursa, təhsil də o standartlara əsasən görəcəyi işi həyata keçirməlidir və dövlətin qoyduğu standartlara,tələblərə əməl etməlidir

## 4.ƏSAS KOMPETENSİYALAR

**PLAN:**

1. Bilik,bacarıq,və vərdişlər
2. Dəyər və keyfiyyət
3. Əsas kompetensiyalar
4. Metakompetensiyalar

Kompentasiyalar latın sözü “competentia”olub,”bacarıq,sərişta,qabiliyyət”,” mühakimə etməyə səlahiyyətli”,”danışmağa hüququ olmaq” mənasını verir. Kompetensiya –situasiyadan irəli gələn və qarşında duran hər hansı konkret məsələni həyata keçirmək üçün sərf etdiyi bacarıqdır.Vəziyyətdən qaynaqlanan tələblərə cavab vermək üçün əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək bacarığıdır.Həmçinin müəyyən funksiyaların müvəffəqiyyətli icrası üçün zəruri olan bilik,bacarıq, müvafiq təcrübə və şəxsi keyfiyyətlərin toplusudur.Şagirdin dərsi qavraması üçün mütləq bilikdən əlavə, bacarıqlara da ehtiyacı var.Bunu da formalaşdırmaq üçün “beş barmaq- a aydınlıq gətirək. Kompetensiya sözündə BİLİK+BACARIQ+VƏRDİŞ+DƏYƏR+KEYFİYYƏT kimi açar sözləri birləşdirir.(biz bunu 5 barmaq adı ilə yadda saxlayaq) Ümumiyyətlə kompetensiyanın formalaşması üçün şagird müəllimin qoyduğu suallara cavab tapmağı öyrənməlidir.Bu şagirddən fəal,yaradıcı iş, alınmış məlumatı təhlil etmək bacarığı tələb edir.Bunun üçün müəllim dərs keçərkən həmişə problemli situasiya yaratmalıdır.Bu isə şagirdi dərsi düşünülmüş şəkildə qavramağa, yaradıcılığını inkişaf etdirməyə məcbur edir.Yaşadığımız dövrdə “ 21-ci əsr müəlliminin kompetentliyi” nə də böyük diqqət yetirilir,yəni ki müəllimin savadlılığının, yeni pedaqoji texnalogiyalardan istifadə etmık bacarığının,ünsiyyət qabiliyyətinin, kompüterdən istifadə etmək bacarığının, yaradıcı təfəkkürdən törəyən bilikləri bir-biri ilə əlaqələndirərəkyeni bir bilik yaratma qabiliyyətinin,müəllim- şağird ünsiyyətini ən gözəl formada qura bilmək bacarığının olması ön planda durur.BİLİK- qrşıda duran məsələni həyata keçirmək üçün koqnitiv(şagirdin informasiyanı dərketmə prosesi) fəaliyyət nəticəsində əldə olunan məlumat toplusuna deyilir.Bilik həmçinin bacarığı formalaşdırmaq üçün şagirdin özü və onu əhatə edən aləm və aləmin amilləri haqqında informasiyadır.Biliklərə yiyələnmək,işində çətinliklərin aradan qaldırılması şagirdin paktikasına yaxşı təsir göstərir,şagirdlərdə öz quvvəsinə inam yaradır.Məlumatın mexaniki mənimsənil məsi,formul və tərifl ərin şüurun iştirakı olmadan əzbərlənməsibiliklərin formal mənimsənilməsinə səbəb olur.Ədəbiyyat,Tarix,Coğrafiya kimi fənlər əsasən bilik səviyyəsində öyrənilməlidir.BACARIQ- bilik, təcrübə, vərdiş nəticəsində əldə edilmiş şagirdin işgörmə qabiliyyətidir.Hər işdə bacarıq lazımdır.Çünki insan arzusunu həyata keçirmək üçün öz səyi və bacarığı sayəsində istədiyi məqsədə nail ola bilər.”Göz görmək ağıl başa düşmək üçündür”,yəni bilik olmasa şagird bacarığını formalaşdımaqda çəkər.Bacarıq şagirddə əmək vərdişlərini formalaşdırır onu müstəqilliyə və yaradıcılığa alışdırır.Deməli,bacarıq biliyin məqsədyönlü

formada həyata keşirir.Təbiət və Riyaziyyat fənləri, həmçinin Dil dərsləri bilik və bacarıqlar səviyyəsində öyrənilməlidir.Məsələn,Həndəsəni öyrənmək üçün təkcə teoremləri bilmək kifayət etmir, eyni zamanda həmin teoremi isbat etmək bacarığına yiyələnmək lazımdır.VƏRDİŞ-Şagirdin təlim prosesində qazandığı hərəkət,yəni bir növ biliyin bacarığa çevrilməsi prosesinin intensivləşdirilməsi hadisəsi kimi vərdişi formalaşdırıb alışqanlıq halına salan əsas amillərdəndir.Hər hansı bir bacarığı dəfələrlə təkrarlayan bir şagird bacarığı vərdişə çevirmiş olur. Texnologiya vənni isə bilik,bacarıq və vərdişlər səviyyəsində öyrənilməlidir. DƏYƏR-İnsanın özünün fiziki və mənəvi varlığını qoruyub saxlaması,onun arzu və tələbatlaının ödənilməsi üçün yaşadığı cəmiyyətin və mühütün qəbul etdiyi ortaq dünyagörüş, məqsəd, əxlaq normaları və inanclardır.Şagirdin nəinki cəmiyyətdən,həmçinin ailədən, dövlətdən qazandığı milli və mənəvi dəyərlər onun şəxsiyyət kimi formalaşmasında əsas rol oynayır.Ümumiyyətlə,dəyərlər şəxsiyyəti formalaşdıran keyfiyyətlərdəndir.Şagirdin nailiyyəti isə bilik və bacarıq əsasında əldə olunub formalaşan dəyərlər sisteminə aiddir.KEYFİYYƏT-İnsanın vətənpərvərlik,demokratiklik,humanistlik,kimi keyfiyyətləri özündə cəmləşdirməsi yoldaşına kömək etməsi,böyüklərinə hörmət etməsi,səbrli olması,qətiyyətli olması, cəsarətliliyi,özünü ələ ala bilməsi,inamı,xeyirxahlığı,məsuliyyətliliyi,intizamlılığı, işgüzarlığı,mərdliyi kimi keyfiyyətləri özündə birləşdirməsi kompetensiyanı forma laşdıran prinsiplərdəndir.Beləki şagirdlər üçün əlavə addımların atılması,tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunmasının təşkil edilməsi,bu məqsədlə müəllimin şagirdlərin şüurunu hərəkətə gətirməsi,onları düşünməyə,fikir yürütməyə vadar etməsi,onların diqqətini öyrənilən hadisələrdə səbəb- nəticə əlaqələrinə yönəltməsi, müəllimin rəhbərliyi ilə şagirdlərin müəyyən əqli nəticələr çıxarması və s. Bütün bunlar şagirdlərdə kompetensiyaların intensiv şəkildə formalaşmasına kömək edir.Nəticədə şagirdlər idrak əməliyyatları olan müqayisə,təhlilə,ümumiləşdirməyə,mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar.Əsas kompetensiyalar aşağıdakılardır:-İnsanlar ana dilində ünsiyyət qura bilməlidirlər.-insanlar ana dilində ünsiyyət qura bilməlidirlər; -ən azı bir xarici dildə ünsiyyət qurub danışa bilməlidirlər; -Riyazi savadı olmalıdır; -Elm və texnalogiyada sadə və mürəkkəb bacarıqlara sahib olmalıdır məsələn kompüter proqramını bilməsi,slayd qura bilməsi və s.; - Sosial və vətəndaşlıq kompetensiya ları olmalıdır; - Yenilik və sahibkarlıq hissi kompetensiyaları olmalıdır; - Kompüter savadı olmalı,ondan istifadə etməyi bacarmalıdır, - Müstəqil öyrənmə kompetensiyaları olmalıdır.Əgər bu bacarığı olmazsa digər bacarıqları mənimsəməkdə çətinlik çəkə bilər.;- Texniki kompetensiya- şagird gördüyü işin əsas tərkib hissəsini müəyyən etməyi bacarmalıdır.- Davranış kompetensiyası- şıxsi keyfiyyətlərin təsviri üçün nəzərdə tutulan bacarıqdır;- Siyasi və sosial kompetensiyalar oz üzərinə məsuliyyət götürmək bacarığı birgə qərar qəbul etmək bacarığı və .s; - Çoxmədəniyyətli cəmiyyətin həyatı ilə əlaqəli kompetensiyalar (tolerantlıq,irqi ayrıseçkiliyə qarşı və s); - Şifahi və yazılı ünsiyyətdə kompetensiya lar(orta təhsilli insanın ictimai həyatda şifahi və yazılı ünsiyyət hazırlığını bildirən

bacarıqlar);- İKT sahəsində kompetensiyalar (informasiya texnologiyalarını tətbiq etmək, reklam vasitəsilə yayılan xəbərlərə tənqidi yanaşma bacarığı).

Metakompetensiyalar:(əsas bacarıqlardan əlavə,şagirddə daha da böyük bacarıqların formalaşması):-Tənqidi təfəkkür;(məsələn,sinifdə müzakirə olunan mövzuya şagirdin yanaşması);- Yaradıcı yanaşma(şagirdin mövzuya daha yaradıcı yanaşaraq onu dərk etməsi); - Təşəbbüskarlıq;(şagirdin bilik ehtiyatını toplaması, fürsətləri qiymətləndirməsi,insanların ictimai ünsürlər kimi faktorlar onların təşəb büskarlıq səviyyəsinə təsir edir.Dövlətin təşəbbüskarlığı isə cəmiyyəti canlandır maq və dəstəkləmək üçündür); - Problemlərin həlli;(insanın problemin həlli yolunu daha tez və sadə yolla tapmağa qadir olması); - Riskin qiymətləndirilməsi;(çox risk edən insan riski daha rahat qiymətləndirməyə qadir şəxsdir); - Qərarların qəbul ediməsi;(doğru qərar verənlər qərarları daha rahat qəbul etməyi bacarırlar); - Hisslərin konstruktiv (qurucu) idarə edilməsi;( insanların ağılla hərəkət etməsi,özündən tez çıxması.hisslərini çilovlaya bilməsi,hərəkətlərinə daha çox diqqət göstərməsi və s.)

## 5. TƏHSİL KURİKULUMU

**PLAN:**

1. Ümumi təhsil kurikulumunun tərkibi
2. Ümumi təhsil pilləsində tədris edilən fənlər
3. Təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi
4. Təhsil pillələri və səviyyələri

1.TƏHSİL KURİKULUMUNA VƏ TƏHSİL PROQRAMI VƏ MİLLİ KURİKULUM da deyilir. Hər bir fənnə aid olan kurikulum olur, buna fənn kurikulumu deyilir. Umumi Təhsil Kurikulumu isə bundan fərqli olaraq daha geniş məzmunludur,ümumi fənləri özündə birləşdirir,yəni bir fənlə deyil,ümumi təhsillə bağlı sənəddir.Deməli ümumi təhsil proqramı dedikdə hal-hazırda təhsildə tətbiq olunan kurikulum başa düşülür.Ümumi təhsil üzrə təhsil proqramına (kurikulumuna) isə aşağıdakılar aiddir.

1.Ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartları;(məktəbin ibtidai / ümumi umumi/ tam orta səviyyələr üzrə şagirdlərin nələribacarmalı olduqlarından bəhs bəhs edilir,həmçinin hər bir fənnin özünün məzmunu və məzmun standartları əsasında tətbiq edilməsindən danışılır.

2.Ümumi təhsilin hər bir səviyyəsində tədris olunan fənnlər; Hər sinif üzrə keşirilən fənlər müəyyən olunur.

3.Ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ standartlarının miqdarı;hər sinfin həftə ərzində ne saat məşğələ keçəcəyi müəyyən olunur(səviyyə sözünü harda gördünüz, bilin ki, Təhsil Kurikulumuna aiddir)

4.Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri;müəllimin dərsi necə qurması,hansı strategiyadan istifadə edəcəyi öz əksini tapmışdır.

5. Təlim nailiyyətlərinin(nəticələrinin) qiymətləndirilməsi və monitorinqi.Adından da göründüyü kimi təhsilin qiymətləndirilməsindən,sistemin hansı səviyyədə tətbiq olunmasından,sistemin yoxlanılmasından,lazımı dəyişikliklərin aparılmasından bəhs edir.

Baza tədris planları və proqramları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təstiq edilir.

2.Ümumi təhsil pilləsində hər səviyyə üzrə tədris olunan fənnlər kurikulum sənədində qeyd olunmuşdur.Ümumi təhsil pilləsində tədris edilən fənlər aşağıdakılardır:1.İbtidai təhsil səviyyəsində(11fənn).Azərbaycan -dili(təlim azərbaycan dili olan məktəblərdə),rus- dili(təlim rus dilində olan məktəblərdə), Azərbaycan-dili- dövlət dili kimi(təlim digər dillərdə olan məktəblərdə),xarici-dil,riaziyyat,informatika,həyat bilgisi,texnologiya,fiziki tətbiyə,musiqi,təsviri incəsənət.2. Ümumi orta təhsil səviyyəsində:Azərbaycan dili,rus dili,Azərbaycan dili-dovlət dili kimi(təlim digər dillərdəolan məktəblərdə),ədəbiyyat,xarici dil,ikinci xarici dil,riyaziyyat,informatika,Azərbaycan tarixi,Umumi tarix,Fizika,kimya,biologiya,coğrafiya,həyat bilgisi,texnologiya,fiziki

tərbiyə,musiqi,təsviri incəsənət.3.Tam orta təhsil səviyyəsində:Azərbaycan dili(təlim Azərbaycan dilində olan məktəblərdə)rus dili, Azərbaycan dili- dövlət dili kimi təlim digər dillərdə olan məktəblərdə, Ədəbiyyat,xarici –dil, ikinci xarici dil, riyaziyyat, informatika,Azərbaycan tarixi, ümumi tarix,fizika,kimya,biologiya, coğrafiya,fiziki-tərbiyə, çağırışaqədərki hazırlıq.

3.Təlim nailiyyətlərinin qiymətləndirilməsi:- təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi ardıcıl və sistemli xarakter daşıyır,təhsilin keyfiyyətinin dəyərləndiril məsinə və yüksəldilməsinə xidmət edir; - təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların,(şagirdlərin təlimə münasibətləri və onların nailiyyətləri,müəllimlərin hazırlıq səviyyəsi,kurikulumların məqsədəmüvafiqliyi, təlim resusları ilə təminatı və idarəetmə üsulları) toplanması və onların təhlili ilə müşayət olunur;- məqsədəmüvafiqlik,qarşıqlı dəyərləndirmə və etibarlılıq,inki şafyönümlülük,şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır;-test tapşırıqlarının verilməsi və yoxlanması,sinifdə müşahidələrin aparılması,fənn kurikumlarının icra vəziyyətinin,şagird və müəllimlərin fəaliyyətinin müşahidə olunması,qiymət cədvəllərinin və digər məktəb sənədlərinin təhlili və digər üsullrla həyata keçirilir; - məktəbdaxili, milli və beynəlxalq istiqamətlərdə aparılır; - məktəbdaxili qiymətləndirmə 3 komponent üzrə həyata keçirilir: şagird irəliləyişinin monitorinqi – məktəb səviyyəsində müəllim və məktəb rəhbərləri tərəfindən həyata keçirilir,bu mərhələdə şagirdlərin nailiyyətləri formativ(müntə zəm,davamlı),mikrosummativ(bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazıl və şifahi aparılır; - kurikulum üzrə qiymətlən dirmə- şagirdlərin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədilə aparılır;-təhsil səviyyələri(ümumi orta və tam orta) üzrə yekun qiymətləndirmə mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır.Tam orta təhsil səviyyəsində şagirdlərin müvafiq təmayüllər üzrə təhsil almaları ümumi orta təhsil səviyyəsində keçirilmiş yekun qiymətləndirmənin nəticələrinə görə müəyyət olunur;- milli qiymətləndirmə, bir qayda olaraq, 4-5 ildən bir keçirilir. Təhsil prosesinin təşkili,planlaşdırılması və aparıldığı şərait haqqına toplanmış məlumatlar vasitəsilə kurikulumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə aparılır; -Beynəlxalq qiymətləndir mə aşağıdakı məqsədlərlə aparılır: bir qayda olaraq, hər üç ildən bir seçmə yolla şagirdlərin təlim gostəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək;- müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək; -mövcud vəziyyəti digər ölkələrlə müqayisə etmək və perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq; - toplanmış məlumatların təlili aparılır,nəticədə ölkədə təhsil sisteminin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə istifadə edilir.

TƏHSİL PİLLƏLƏRİ VƏ SƏVİYYƏLƏRİ:

| TƏHSİL PİLLƏLƏRİ | TƏHSİL SƏVİYYƏLƏRİ |
|---|---|
| 1.Məktəbəqədər(baxça) | 1. 0-3 yaş səviyyələri |
| | 2. 3-6 yaş səviyyələri |
| 2.Ümumi təhsil(məktəb) | 1.İbtidai təhsil(1-4-cü siniflər)<br>2.Ümumi orta təhsil(5- 9-cu siniflər)<br>3.Tam orta təhsil(10-11-ci siniflər) |
| 3.İlk peşə ixtisas təhsili | Səviyyəsi yoxdur |
| 4.Orta ixtisas təhsili<br>5.Ali təhsil | Səviyyəsi yoxdur<br>1.Bakalavr<br>2.Magistratura<br>3.Doktorantura. |

QEYD:Qəbul tipli sual:

Təhsilin ikinci pilləsinin sonuncu səviyyəsi hansıdır? –Tam orta təhsil

Təhsilin beşinci pilləsinin birinci səviyyəsi hansıdır? – Bakalavr.

P.S.Asan yadda saxlamaq yolu:

-Pillə alma,səviyyə isə onun dilimidir. Pillə ümumi, səviyyə isə onun tərkib hissəsidir.

-“orta” sözü başda gəlirsə,pillədir;

-“orta” sözü ortada gəlirsə səviyyədir.

## 6/FƏNN KURİKUMLARININ STRUKTURU.

PLAN:

1. Fənnin məzmunu.
2. Məzmun xətləri
3. Fəaliyyət xətləri

Ölkəmizdə tətbiq olunan Kurikulum sistemində hər bir fənnin özünün məqsədi, vəzifələri, xarakterik xüsusiyyətləri, məzmunu, strategiyaları və şagird nailiyyət lərinin qiymətləndirilməsi öyrənilir. Kurikulum tərifini xatırlayaq:Kurikulum təhsilin(və ya təlimin) məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə birləşdirən konseptual sənəddir.Fənn kurikulumunun strukturu dedikdə, onun sklrti kimi nəzərdə tutulur. Hər bir fənn kurikulumu 3 hissədən ibarətdir (giriş əsas hissə kimi verilmir). Fənn kurikulumunda nələr var deyildikdə isə 4 götürməliyik: giriş, məzmun, təlim strategiyaları və qiymətləndirmə.Hər bir fənnin özünəməxsus məzmunu, təşkili və qiymətləndirilməsi var və hər bir fənnin başlanğıcında da özünəməxsus Giriş yazılır, yəni həmin fənnin məqsəd və

vəzifələri, xarakteristikası giriş hissəsində öz əksini tapır. Girişi ön söz kimi də başa düşmək olar.Bunun ardınca isə aşağıdakılar ardıcıl qeyd olunur:

1.Fənnin məzmunu ümumən fənnin nədən ibarət olub nədən bəhs etdiyini əhatə edir.Öyrədiləcək bilik, bacarıq və vərdişlərin məcmusu fənnin məzmunu adlanır. Yəni,məktəbə gedəndən məktəbi bu fənn bizə nəyi öyrədilənlər fənnin məzmun hissəsində öz əksini tapmış olur. Yəni fənnin tələbləri, nəticələri və s.burada verilir.

2.Təlim strategiyaları da fənnin məzmununu hansı strategiyadan və hansı öyrədici vasitələrdən istifadə edəcəyimizdən, dərsin mərhələlərinin qurulmasından, onu necə təşkil edəcəyimizdən və təşkilindən bəhs edir.Yəni nə öyrədəcəksən? deyil, "Necə öyrədəcəksən"sualının cavabı burada öz əksini tapır.

3.Qiymətləndirmə isə şagird nailiyyətinə verilən qiymətdir. Hər bir dərsdə qiymətləndirmə vardır. BSQ, KSQ.

| Giriş |
| --- |
| 1. Fənnin məqsəd və vəzifələri |
| 2. Fənnin xarakterik xüsusiyyətləri |

| 1.Fənnin məzmunu -nin qiymətləndirilməsi | Təlim strategiyaları | Şagird nailiyyətləri- |
| --- | --- | --- |
| 1.Ümumi təlim nəticələri .<br>2Məzmun xəttləri<br>3.Fəaliyyət xətləri<br>4. Məzmun xətləri üzrə təlim nəticələri<br>5.Məzmun standartları<br>. | 1.Fənn üzrə təlimin təşkilinə verilən əsas tələblər<br>2.Təlimin forma və üsulları<br>3.Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına aid nu munələr<br>4.Məzmun standartlarının | 1.Əsas qiymətləndirmə növləri<br>2.Qiymətləndirmə stan dartları və vasitələri |

Fənnin məzmunu:

Ümumi təlim nəticələri- mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.Bir növ sonda müəllimin öz fəaliyyətini düzgün istiqamətləndirilməsinə şərait yaradır.Məsələn:

Aydındır ki,müəllim dərs ilinin əvvəlində hansı sinfə dərs keçəcəyini və hansı fənnin tədris edəcəyini əvvəlcədən bilmiş olur. Hansı fənni tədris edəcəksə, həmin fənnin kurikulum sənədi əvvəlcədən müəllimin əlində olur, müəllim həmin sənədin içində yazılan təlim nəticələri ilə tanış olur. Həmin sənəddə yazılır ki, dərs ilinin sonuna qədər şagirdlər bu nəticələri əldə etməli və onlara yiyələnməlidirlər. Müəllim də buna əsasən işini əvvəlcədən planlaşdırır,il ərzində dərsi necə keçəcəyini müəyyən etmiş olur.Deməli ümumi təlim nəticələrui bir növ müəllimə istiqamət verir, yol göstərir.

Yadda saxla:

-Məzmun standartları Fənnin məzmunudur.

-Məzmun standartlarının şərhi isə Təlim strategiyalarındadır.

2. Məzmun xətləri- fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunmuş məzmunun əsas və zəruri hissəsi, leytmotivi, bünövrəsi, və ana xəttidir.Yadda saxlayın ki, bir fənn nəyi öyrədirsə, o öyrətdiyi yollar və istiqamətlər məzmun xəttinin elə özüdür.Bir sozlə, hər bir fənnin məzmun xətti var. Deməli məzmun xətti məqsədə gedən birinci yoldur və dəyişməzdir. Məsələn ana- dili dinləyib anlamanı,oxu,yazı dil qaydalarını şagirdə 1 ci sinifdə 11-ci sinfə kimi oyrədir.Və yaxud da Tarix fənni zaman, məkan dövlət, şəxsiyyət və mədəniyyət haqqında məlumatları özündə birləşdirib.Göründüyü kimi, Ana dilinin 4,Tarixin 5 məzmun xətti var.Ana dilində məzmun xətləri 1,2,3, və 4 rəqəmləri ilə başlayacaq(məsələn, 4.1.1, 3.1.2 və s. 5 ilə başlaya bilməz çünki dilin dörd məzmun xətti var,beş yox).Tarixdə isə 1,2,3,4, və 5 ilə başlayacaq(6.1.2 olmaz.çünki tarixdə 5 məzmun xətti var 6 yox)

| | | |
|---|---|---|
| 1. Ana dili:<br>1. Dinləyib anlama və danışma<br>2. Oxu.<br>3. Yazı.<br>4. Dil qaydaları | 2.Riyaziyyat:<br>1. Ədədlər və əməllər.<br>2. Cəbr və funksiyalar.<br>3. Həndəsə.<br>4. Ölçmələr.<br>5. Statistika və ehtimal. | 3. Ədəbiyyat:<br>1. Ədəbiyyat və həyat həqiqətləri.<br>2. Şifahi nitq.<br>3. Yazılı nitq. |
| 4. Xarici dil:<br>1. Dinləyib- anlama<br>2. Danışma<br>3. Oxu<br>4. Yazı. | 5. Tarix:<br>1. Tarixi zaman<br>2. Tarixi məkan<br>3. Dövlət<br>4. Şəxsiyyət<br>5. Mədəniyyət | 6. Azərbaycan Tarixi<br>1. Tarixi zaman<br>2. Tarixi məkan<br>3. Dövlət<br>4. Şəxsiyyət<br>5. Mədəniyyət |

| | | |
|---|---|---|
| 7. İnformatika:<br>1. İnformasiya və informasiya prosesləri<br>2. Formallaşdırma,model ləşdirmə,alqoritmləşdirmə və proqramlaşdırma<br>3. Kompüter,informasiya və kommunikasiya texno logiyaları və sistemlər.<br>4. Cəmiyyətin informasiya laşdırılması.<br>10. Kimya:<br>1. Maddə və maddi aləm<br>2. Kimyəvi hadisələr<br>3. Eksperimental və modelləşdirmə<br>4. Kimya və həyat | 8. Biologiya:<br>1. Canlıların quruluşu və müxtəlifliyi<br>2. Bioloji proseslər<br>3. İnsan və onun sağlamlı ğı.<br>4. Canlılar və ətraf mühüt<br><br>11. Coğrafiya:<br>1. Coğrafi məkan<br>2. Təbiət<br>3. Cəmiyyət. | 9. Fizika:<br>1. Fiziki hadisələr, qanunauyğunluqlar və qanunlar.<br>2. Maddə və sahə,qarşılıqlı təsir,əlaqəli sistemlər<br>3. Eksperimental fizika və müasir həyat.<br><br>12. Təsviri incəsənət.<br>1. Cəmiyyət və təsviri incə sənət.<br>2. Təsviri və dekorativ yaradıcılıq<br>3. Estetik reaksiya. |
| 13. Fiziki Tərbiyə:<br>1. İnformasiya təminatı və nəzəri biliklər<br>2. Hərəki bacarıqlar və vər dişlər.<br>3. Hərəki qabiliyyətlər<br>4. Şəxsiyyətin mənəvi iradı keyfiyyətlərin formalaşması | 14. Texnologiya.<br>1. Emal texnalogiyaları<br>2. Texnika elementləri<br>3. Məişət mədəniyyəti. | 15. Musiqi<br>1. Musiqi aləmi<br>2. Emosional dəyərləndir mə.<br>3. Musiqi fəaliyyəti.<br>----------<br>16. Həyat bilgisi.<br>1. Təbiət və biz.<br>2. Fərd və cəmiyyət.<br>3. Mənəviyyat<br>4. Sağlamıq və təhlükəsizlik. |

Məsələn yuxarıda cədvəldə qeyd etdiyimiz kimi:Coğrafiya fənnin 3 məzmun xətti var: 1.Coğrafi məkan; .Təbiət mövzusu keçərkən 2-ci məzmun xəttindən,Cəmiy yətə aid mövzu keçərkən isə 3-cü məzmun xəttindəm istifadə olunaraq kodlaşdırılır

Məsələn: -Coğrafiya: “Coğrafi obyektləri xəritədə göstərir”.a)3.2.3. b)2.4.1. c)1.2.1. d)4.1.3. e) 3.1.2. Cavab C bəndi.Çünki xəritədə göstərirsə,deməli məkandır ki,xəritədə göstərə bilir və 1 ilə başlayan bəndi seçməliyik. Deməli, şagirdlər də müəyyən olunmuş bu məzmun xətləri üzrə inkişaf etdirilməlidir

4. Fəaliyyət xətləri-Məzmun xətlərində əks olunan biliklərin əldə ediməsində şagirdə praktik imkan yaradır.Fəaliyyət xətti bir növ biliyin tətbiq olunması prosesidir.Fənn məzmun standartı da bu fəaliyyət xətləri ilə əlaqə əsasında tətbiq olunur.Fənn kurikulumlarında hər bir fəaliyyət xəttinə uyğun məzmun standartları mövcuddur.Hər bir fənnin özünün də fəaliyyət xətti var: məsələn, Ana dilində problemin həlli, mühakimə yürütmə və əsaslandırma, ünsiyyət, tətqiqetmə(araşdır ma),tətbiqetmə. Şagirdin məzmunu

mənimsəməsi üçün müəyyən fəaliyyət xətti olmalıdır.Fəaliyyət xətti dedikdə, şagirdin dərsi anlaması,ünsiyyət qurması, fikrini əsaslandırması, öyrəndiyini təhlil və tətbiq edə bilməsi və s. başa düşülür.Məzmun xətlərinə uyğun olaraq təlim nəticələrini əvvəlcədən müəyyən etmək lazımdır.Məzmun standartları(əsas standart və alt standart) isə ümumi təlim nəticələrinin həyata keçirilməsinə xidmət edir.Məzmun standartı şagirdin bilik və bacarığına qoyulmuş dövlət tələbidir. Yəni, dövtət deyir ki,"şagirdin bilik və bacarığına bu standartları qoymuşam, bu standartlara uyğun olmalıdırlar və mənim qoyduğum bu tələblərə uyğun şagirdlərdə fəaliyyətlər,bacarıqlar formalaşmalıdır.Məzmun standartları bunlardır:ƏSAS SANDART VƏ ALT STANDART

## 7.ƏSAS VƏ ALT STANDARTLARIN FUNKSİYALARI

PLAN:

1. Əsas standartların funksiyaları.
2. Alt standartların funksiyaları
3. Sinifdən –sinfə məzmun xəttinin sabitliyi

Əsas standartların funksiyaları aşağıdakılardır:

-Əsas standart fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir;

- Əsas standart sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir;

- Əsas standart əsasən dəyişməzdir.

- Əsas standart iki rəqəmlə ifadə olunur.(4.3. . .)

Alt standartların funksiyaları:

-Alt standart təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır.

- Alt standart təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır.

- Alt standart təlim interaktivliyini təmin edir.

- Alt standart təlimin məzmununun davamlı inkişafını təmin edir.

- Alt standart üç rəqəmlə ifadə olunur.

- Alt standart daima dəyişir.

"4"-məzmun xətti;-"3"-əsas standart,"2"-alt standartdır. Bu cür oxunur: 4-cü məzmun xəttinin 3-cü əsas standartın 2-ci alt standartı. Məsələn, belə təsəvvür edək: məzmun xətti "bina"dır; əsas əsas standart"mərtəbə"dir; alt standart isə "mənzildir".Məsələn, Soruşuram ki, Əli müəllim hansı binada qalır? Deyirlər 32-ci binada.Yəni ümumən hansı binada qaldığını bildik,amma dəqiq hansı mərtəbədə və mənzildə qaldığını bilmirik; Bəs neçənci mərtəbədə olur? Deyirlər 4- cü mərtə bədə.Yəni mərtəbəni də bildik, amma həmin mərtəbədə çox mənzil var, dəqiq bilmirik hansı mənzildir. Neçə nömrəli mənzil? – 25 nömrəli mənzil.Deməli, müəllimin ünvanını dəqiq bilməyimiz üçün bizim alt standartlara ehtiyacımız var. Misala baxaq: 4-cü sinif. Ana dili.

4.1. Şagird zəruri dil qayralarını mənimsədiyini nümayiş etdirir.(Dil qaydaları 4-cü məzmun xətti olduğu üçün 4 yazılıb.Ümumilikdə isə zəruri dil qaydalarını mənimsədiyini deyir,çünki zəruri dil qaydaları çoxdur, alt standartda onların adını çəkərək dəqiq məlumat vermiş olur).

4.1.1. Sadə formada formada fonetik təhlil aparır.

4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydalarından məqamına uyğun istifadə edir.

4.1.3. Rast gəldiyi yeni sözlərinyazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün sorğu kitabları və kataloqlardan istifadə edir.

4.1.4. Cümlənin formalaşdırılmasında cəm şəkilçilərindən düzgün istifadə edir.

4.1.5. Köməkçi nitq hissələrini tanıyır.(və sair.)

Göründüyü kimi ,zəruri dil qaydaları çoxdur(fonetik təhlil,yeni sözlərin yazılışı və s.) və bunlar alt standartlarda verilir və daima dəyişir.Bütün bunlar tədris edəcəyiniz fənnin metodik vəsaitində verilmiş olacaq. Metodik vəsaitdən istifadə edərək,məzmun xətti, əsas standart və alt standartı müəyyən edə bilərsiniz.Bundan bu qənaətə gəlirik ki, məzmun xətti dəyişmir,əsas standart əsasən dəyişməzdir,alt standart isə daim dəyişir.Məzmun xətti, əsas standart və alt standart bir-birilə zən-cirvari əlaqəlidir.

Əsas standartın funksiyaları bunlardır:

-Əsas standart fənnlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir; bir sözlə, ümumi məlumat verir.Əsas standartda konkret bir məqsəd yoxdur.Alt standartları da əsas standarta əsasən müəyyən edirik.

-Əsas standart sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir.Yəni ki, əsas standart kitabdakı "bolmə"dir, hər bir bölmədən sonra

summativ qiymətləndirmə aparılır.Deməli, əsas standatın da nəticəsində şagirdlərin KSQ, BSQ-ləri müəyyən olunmuş olur.

-Əsas standart əsasən dəyişməzdir. –(tez-tez dəyişmir)

9-cu sinif Ümumi Tarix fənnindən olan misalımıza baxaq:

1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.

1.1.1. Müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini izah edir.

1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır

(1.1.-də Tarixi faktların tarixi zamanla əlaqəsi haqqında ümumi məlumat verir. Ancaq 1.1.1; 1.1.2.; 1.1.3- də isə daha dəqiq məlumat əldə etmiş oluruq.)

-Alt standartların funksiyaları bunlardır:

-Alt standart təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır; Alt standart hal hazırda keçdiyimiz mövzu deməkdir, ona görə də təlim məqsədi dəqiq şəkildə müəyyən edilir,yəni dərsin mövzusunu bildiyimiz üçün məqsədimizi də müəyyən etmiş oluruq.Əsas standart isə sadəcə bölməni nəzərdə tutduğu üçün təlim məqsədimizi,dərsi necə quracağımızı dəqiq bilmirik.

- Alt standart təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır; Alt standartı(mövzu) bildikdən sonra dərsi necə təşkil edəcəyimizi, hansı üsullardan, hansı fomalardan istifadə edəcəyimizi bilmiş oluruq.Sırf hansı mənbə və obyektləri olduğunu,hansı qaydalara əməl olunmalı olduğu alt standartda verilir.Çünki alt standartda fikir hissələrə ayrılaraq daha da aydın izah olunur.Ancaq əsas standartda fikrə ayrı-ayrı deyil ümumi şəkildə yanaşılır.

-Alt standart təlim interaktivliyini təmin edir; İnteraktivlik qarşılıqlı əlaqə deməkdir.Yəni alt standartda mövzular arası əlaqə qurmaq mümkündür.İngilis dili dərsində İsim mövzusu keçərkən, Ana dilində olan isim mövzusu ilə əlaqələndirilməsi buna misal ola bilər.Bu əlaqəni əsas standartda qura bilmirik, çünki orda mövzu arası əlaqə yoxdur, bölmədən- bölməyə keçid var.

- Alt standart təlimin məzmununun davamlı inkişafını təmin edir.Bildiyimiz kimi, məzmun xətti dəyişmir. Sadəcə sinifdən - sinfə keçdikcə mövzular sadədən mürəkkəbə doğru dəyişərək və inkişaf edərək daha da genişlənmiş olur. Yəni ki şagirdin bilik və bacarıqları sinifdən- sinfə keçdikcə 1- ci sinifdən 11-ci sinfə kimi formalaşaraq davamlı inkişaf edir və daha da əhatəli olur.

-Alt standart üç rəqəmlə ifadə olunur.(1.3.4.)
-Alt standart daima dəyişir
Alt standart bir akademik dərslə (45 dəqiqə)məhdudlaşa bilər, amma əsas standartı

bir akademik dərsdə keçib qurtara bilmərik, çünki mövzunu ümumi şəkildə ifadə edir və bizə summativlərin keçirilməsində daha çox kömək edir.–Yadda saxla:
-Alt standart təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır;

-Alt standart təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır;

-Alt standart təlim interaktivliyini təmin edir;

-Alt standart təlimin məzmununun davamlı inkişafını təmin edir;

-Təlim sözünün yerinə Təhsl, Tərbiyə kimi sözlərlə rastlaşsanız,bilin ki, o səhvdir.Çünki əsas standart, alt standart təlimi formalaşdırır, təhsili yox.

Misal: Riyaziyyat(ibtidai)

1-ci sinif.

Məzmun xətti:1 Ədədlər və əməllər

Şagird:

Əsas standart: 1.1.2 Toplama və çıxma əməllərinin mənasını başa düşdüyünü nümayiş etdirir.

Alt standart:1.2.1.Toplamanı iki qrupun əşyalarının birgə sayılması kimi modelləşdirilir.

2-ci sinif.

Məzmun xətti :1Ədədlər və əməllər.

Şagird:

Əsas standart:1.2. Hesab əməllərinin mənasını və onlar arasındakı əlaqəni başa düşdüyünü nümayiş etdirir.

Alt standart:1.2.1. Vurma və bölməni yollarla modelləşdirir.

3cü sinif.

Məzmun xətti:1 Ədədlər və əməllər.

Əsas standart:1.2. Hesab əməllərinin mənasını, xassələrini və onlar arasında əlaqəni başa düşdüyünü nümayiş etdirir.

4-cü sinif.

Məzmun xətti:1 Ədədlər və əməllər.
Şagird:

Əsas standart: 2.1. Hesablamalarda riyazi ifadələrdən istifadə edir.

Alt standart: 2.1.1. Riyazi ifadələrin qiymətinin hesablanmasında əməllər sırasında istifadə edir.

Burada biz həmçinin məzmun xəttinin stabil qalıb dəyişmədiyini görürük.Əsas standart isə sinifdən-sinfə keçərkən dəyişir.Deməli, əsasən əsasən dəyişməzdir, bəzən dəyişir.Yuxarıda misalda görürük ki, şagird 1-ci sinifdə toplama və çıxma əməlini öyrəndi, 2-ci sinifdə isə artıq hesab əməlləri arasında əlaqələri öyrəndi,3-cü sinifdə həmçinin xassələri də öyrəndi və s. bu ardıcıllıqla davam edir.Alt standartlarda isə məzmun sinifdən-sinfə genişlənərək dəyişir.

## 8. MƏZMUN STANDARTLARININ QURULUŞU.

PLAN:

1. Məzmun standartları
2. Fəaliyyət bacarıqları
3. İdraki bacarıqlar.
4. Unsiyyət fəaliyyəti.
5. Psixomotor bacarıqlar.

Məzmun standartı təhsil alanın bilik və bacarıq(fəaliyyət) səviyyəsinə qoyulmuş dövlət tələbidir.Göründüyü kimi standart iki hissədən ibarətdir: Bilik, Fəaliyyət.

Bilik- şagirdin nəyi öyrənəcəyini, bacarıq- isə öyrənilənin necə nümayiş olunacağını özündə əks elətdirir. Biliyin 3 növü var:

1. Deklarativ bilik(Faktoloji bilik).Deklarativ sözü latın mənşəli olan"Declare" sözündəndir, "elan etmək deməkdir".Bu bilik növü özündə sadəcə dərk dərk edilmiş anlayışı, mühüm informasiyaları, faktlara əsaslanan məlumatları əks elətdirir.Bu bilik məlumat xarakterli biliklərdir və ona anlayışlar, dərk edilən bilik, hər hansı problrmi həll etmək üçün lazım olan məlumatlar toplusu, terminologiya -lar, qaydalar, şagirdin yazdığı imlalar, təriflər, faktlar daxildir.

2. Prosedural bilik. Bu bilik növü hər hansı bir anlayışın həyata keçmə prosesini özündə əks etdirir .Prosedural bilik fəaliyyətin icrasına dair prosedural qaydaları əhatə edən biliklərdir.Bu biliklərə tədqiqat, araşdırma üsulları,tətbiqetmə texnikaları, alqoritimlər, xüsusi metodogiyalar aiddir.

3. Kontekstual bilik (konseptual bilik)-Deklarativ və prosedural biliyin yeni məzmununu təşkil edir.Problemin həlli və fəaliyyətin icrası zamanı əldə olunan yeni biliklərdir.Hər şagird öz konteksinə, estetik zövqünə uyğun yeni fəaliyyət nümunələri yaradırsa, bu kontekstual bilikdir.Bunların sırasına isə müəyyən bilik sahəsinə münasib faktları ümumiləşdirən və əlaqələndirən şəxsin yaratdığı

konsepsiyalar, nəzəriyyələr, ümumiləşdirmələr, tərtib olunan prinsiplər, layihələr, təsnifatlar, mühükimələr, modellər, müşahidələr, şagirdin yazdığı inşalar, çəkdiyi planlar, strukturlar daxildir.

Deməli qaydaları öyrəniriksə, öyrəndiyimiz qaydaları xatırlayırıqsa hər hansı bir xörəyi (məsələn dovğanı) tanıyırıqsa, yəni bizə verilən məlumatı başa düşürüksə, bu deklarativ bilikdir.(şagird yazı yazır.-idraki).Öyrəndiyimiz qaydaları, istifadə olunacaq məlumatları hazırlayıb tətbiq etməyə başlayırıqsa,(dovğanın hazırlanma prosesini), verilən məlumatın necə əldə edildiyini biliriksə, həmin əldə olunan informasiyanı icra ediriksə, bu zaman deklarativ bilik başqa biliyə çevrilmiş olur, bu da prosedural bilik adlanır.( şagird hüsnxət qaydaları üzrə sürətlə yazır.-prosedural).Əgər yrməyi(dovğanı) tanıyıb hazırlanma prosesini biliriksə və atıq tətbiq zamanı özümüzdən ona əlavələr (əlavə göyərtilər) ediriksə, öz yaradıcılığımız ilə nəticə əldə edə biliriksə, yəni delarativ biliklə prosedural biliyin nəticəsində yeniliklə tanış oluruqsa bu kontekstual bilik olmuş olacaq. Məsələn Riyaziyyat dərsində şagird "Toplananların yerini dəyişəndə cəm dəyişmir" qaydası ilə tanış olur(deklarativ bilik).Qaydanı bildikdən sonra verrilən tapşırığa əsasən şagird misalları tətbiq edir(lövhəyə 4+5=9, 5+4=9 yazaraq mövzunu dərk etdiyini təsdiqləmiş olur).İdrak prosesi müddətində dərketmənin refleksiyası baş verir.Bu proses idrak məsələlərini və problemləri həll etməyi və onların necə reallaşdırıldı –ğını özündə əks etdirir. Özündə reflektiv bilikləri fomalaşdıan bu biliklərə metokoqnitiv biliklər deyilir.

Fəaliyyətin isə 3 növü var.1.İdaki(Koqnitiv,Qnostik)-Tanımaq, fərqləndirmək, müqasisə etmək, istifadə etmək, qaydanı izah etmək, dəyərləndirmək, təhlil etmək, nümunə göstərmək, müəyyən etmək, sadalamaq, təsnif etmək, hesablamaq,qruplaş dırmaq,sxem qurmaq, icra etmək, nümayiş etdirmək, tərtib etmək.2. Ünsiyyət seçimini izah etmək, müzakirə etmək, nəql etmək, təsvir etmək. 3.Psixomotor-Rəqs etmək,yazmaq, tullanmaq, rəsm çəkmək, qaçmaq, yapmaq, quraşdırmaq, jest və mimikalardan istifadə etmək, hazırlamaq, hərəkətləri təkrar etmək, alətlərdə (piano) çalmaq, plan tutmaq.

İdraki bacarıqlarna aşağıdakılar aiddir.1.Tanımaq sadəcə beyində baş verən bir prosesdir və onu reallaşdırmaq üçün xüsusi bir hərəkətə ehtiyac duyulmur.Məsələn, illər əvvəl gördüyün bir insan qarşına çıxırsa, istər-istəməz beyin fəaliyyətə düşüb onu axtarıb tapır,sənə siqnql olaraq ötürür və sən tanımış olursan.Digər misala baxaq, Nizami gəncəvinin şəklini şagirdlərə göstərib kim olduğunu soruşursan, baxan kimi şagirdlər tanıyır.4.1.5. Köməkçi nitq hissəsini tanıyır.(4 cü sinif Azərbaycan dili).2.Fərqləndirmək .Şagird dərk etdiyi anlayışları fərqləndirə bilir.Məsələn, 3+8=? Yazılanda bilirki toplamaq lazımdır,çıxmaq yox.Və ya oxuduğu mövzuları fərqləndirə bilir.Deməli,fərqləndirmək üçün baş lazımdır nə ünsiyyətə, nə də hərəkətə ehtiyac yoxdur. 2.1.4. Çoxmənalı sözləri omonimlərdən fərqləndirir və nitqində istifadə edir(4 cü sinif Azərbaycan dili),3.

Müqayisə etmək. Məsələn şagird İsim mövzusunu həm Azəbaycan dilində, həm də İngilis dilində keçir və onları başa düşərək müqayisə etməyi bacarır.2.1.8. Müxtəlif bitki və heyvanlar aləminin yaşayış mühitini müqayisə edir.( 8-ci sinif coğrafiya).
4. İstifadə etmək. Məsələn müəllim "İsim kim?, nə?, hara?, sualına cavab verir"dedikdə, şagird tez bir zamanda beynində o suallara cavab axtarır.Kim?-İnsan.Hara? Azərbaycan və s.2.1.2. Heykəl, büstün real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir.5.Qaydanı izah etmək.6.Dəyərləndirmək,7.Təhlil etmək,8. Numunə göstərmək, 9.Müəyyən etmək,10. Sadalamaq,11.Təsnif etmək,
12.Hesablamaq,13.Qruplaşdırmaq,14.Sxem qurmaq,15.İcra etmək,16. Nümayiş etdirmək, 17.Tərtib etmək.

4.Ünsiyyət bacarıqları. Ünsiyyət nitq vasitəsilə baş verir.Bu fəaliyyət zamanı şagird başqalarını dinləyir,yazılanları oxuyur, öz fikirlərini yazır, danışmaqla fikrini ifadə edir, məsələyə münasibət bildirir, müzakirələrdə iştirak edir.Bu bacarıq həm şagirdlərin birgə fəaliyyətini təşkil edir,həm də şəxsiyyətlərarası münasibətləri formalaşdırıb inkişaf etdirir.Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir.Onlar arasında "nitq"(mülahizə,sual, replika və.s)xüsusilə yer tutur.B u fəaliyyət fiziki hərəkətlərdən çox emosional hisslərə üstünlük verir.Çünki dərs zamanı şagird öz fikrini əsasən nitq vasitəsilə çatdırır.Fənn kurikumlarında da standartlar məhz şagirdlərin nitq qabiliyyətlərini, ünsiyyətini formalaşdıracaq şəkildə qeyd olunmuşdur. Ünsiyyət bacarıqları: 1. Reaksiya vermək, 2. Rəy bildirmək, 3. Təqdim etmək, 4. Şərh etmək, 5. Seçimini izah etmək, 6. Müzakirə etmək, 7.Nəql etmək,
8.Təsvir etmək.

5.Pxixomotor bacarıqlar.Bu fəaliyyət əzələ hərəkətləri vasitəsilə vasitəsilə psixi fəallığının reallaşdırılması prosesidir və bu fəaliyyət müddətində insan fiziki olaraq hərəkətlər edir.Bu hərəki qabiliyyət insan sağlamlığının mərkəzində dayanır.Psixomotor fəaliyyət 2 formada qruplaşdırır.Böyük motor bacarıqları (qaçmaq,tullanmaq və s.) və kiçik motor bacarıqlar(plastinlə əşyalar düzəltmə, bükülmüş barmaqların açılması, barmaqların yumruğa yığılması və s. Mimika və jestlər isə natiqliyin mühüm şərtlərindəndir və onlar nitqin təsirini artırır, dinləyicinin diqqətini cəmləşdirir.Nitq prosesində üz əzələlərinin mənalı hərəkəti mimika adlanır.Mimika nitqin anlaşılmasında, ifadə olunmasında , müəyyən emosionallığın ,sözlə ifadəsi mümkün olmayan çalarların verilməsində, fikrin ciddi və ya ironiya ilə deyilməsində çox ciddi rol oynayır. Jest isə əl- qol hərəkətlərinə deyilir.Jestlər əl-qol hərəkətlərindən danışığın intonasiyasına, ritminə uyğun istifadədir.Fənn kurikulumlarının standartlarında təhsil alanların hərəki bacarıqlarına da xüsusi yer verilmişdir.Psixomotor bacarıqlar: Rəqs etmək,yazmaq, tullanmaq, rəsm çəkmək, qaçmaq, yapmaq, quraşdırmaq, jest və mimikalardan

istifadə etmək, hazırlamaq, hərəkətləri təkrar etmək, alətlərdə(piano)çalmaq, plan tutmaq(çəkmək).

## 9. İNTERAKTİVLİK.

PLAN:

1. Rəsmi inteqrasiyanın səviyyələri.
2. Fənnlərarası inteqrasiya.
3. Fənnüstü inteqrasira.

1.İnteqrativlik – alt standart standart təlimdə interaktivliyi təmin edir.Yəni ki, alt standart məzmun komponentləri arasında əlaqənin yaradılmasına, şagirdlərin mövzunu daha yaxşı dərk edərək qavramasına kömək edir.İnteqrasiya şagirdlərdə ətraf aləm haqqında tam təsəvvür yaradır və həmçinin fənn üzrə biliklərin əlaqələndirilməsi üçün ümumi müstəvinin yaranmasına xidmət göstərir.Məzmun standartlarında interaktivliyin olmasına böyük əhəmiyyət verilmişdir.Çünki şagirdlər bir neçə fənni əlaqəndirdikdə daha yaxşı öyrənirlər.Məsələn şagird Ədəbiyyatda öyrəndiyi eyni mövzusunu, Tarix dərsində təkrar edərkən daha da dərk etmiş olur.İnteqrasiya təlim prosesinin təkmilləşdirilməsinə, fənlər arasında qarşılıqlı əlaqənin yaranmasına və fənlər arasında asılılığın dərinləşməsinə xidmət edir. İnteqrasiya təlimdə sistemli olaraq ətraf aləmin vahid obrazını formalaşdırmaq üçün vacib sayılır. İnteqrasiya müəyyən təhsil sistrmi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq,onları inkişafa və özünü inkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmunu komponentləri arasında struktur əlaqələri qurmaqla onları sistemləşdirən didaktik prinsipdir.Deməli, inteqrasiya təhsil komponentləri nin fənlərlə və həyatla əlaqəsi kimi başa düşülür.İnteqrasiyanın 2 növü var:
1. Rəsmi İnteqrasiya.(metodik vəsaitdə olan standartlar):Məsələn , 5-ci sinif üçün "Təsviri incəsənət" fənninin illik planlaşdırılmasında aşağıdakı mövzular "Texnologiya" fənnində olan Emal texnologiyaları mövzusu ilə inteqrasiya olur.Misal.

-Real təsvir nədir.

-Abstrakt təsvir nədir

-Sadə əşyaların dizaynı.

-Xalçaçılıq,bədii tikmə, ağac üzərində oyma.

Həmin mövzular Emal texnalogiyaları mövzusunun 1.2.3.,1.3.2. standatları ilə inteqrasiya olunur

2.Qeyri – rəsmi inteqrasiya.(metodik vəsaitdə olmayan standartlar):Bu inteqrasiyanı müəllim özü yaradır.Məsələn, müəllim hər hansı bir mövzunu keçərkən,həmin mövzunu başqa bir mövzu ilə əlaqələndirir hansı ki, bu əlaqə metodik vəsaitdə yoxdur.Bu inteqrasiya müəllimin öz ideyasından ortaya çıxmış bir əlaqədir və ona görədə qeyri- rəsmi inteqrasiya adlanır.Məsələn, müəllim "İsmin mənsubiyyətə görə dəyişməsi" mövzusunu keçərkən, Səməd Vurğunun "Azərbaycan" şeyrini söyləyir və şagirdlərdən bu şeyirdə mənsubiyyət şəkilçilərini tapmağı tapşırır.Göründüyü kimi bu inteqrasiyanı müəllim etmiş oldu və metodik vəsaitdə verilmir.Müəllimin yaradıcılığından ortaya çıxan bu əlaqə şagirdlərin dərsi daha yaxşı qavramasına kömək etmiş olur.Rəsmi inteqrasiyanın 3 səviyyəsi var: 1. Fəndaxili inteqrasiya.(sinifdaxili inteqrasiya): Sinif daxilində olan standartların bir-birilə məqsədyönlü əlaqəsinə imkan yaradır.Hər bir fənn üzrə anlayış,bilik və bacarıqların əlaqələndirilməsi – fənn daxilindəki faktların sistemləşdirilməsidir.Bu səviyyədə inteqrasiyanı verilmiş materialın ayri-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun, strukturunun dəyişdirilməsinə gətirib çıxarır.Fəndaxili inteqrasiyanın isə 2 növü var.:

-1. Şaquli İnteqrasiya (siniflərarası inteqrasiya). Eyni mövzunun standartlarının siniflər üzrə əlaqəsini təmin edən inteqrasiyadır.Bu inteqrasiya bilik, bacarıq və vərdişlərin sinifdən- sinfə tədricən dərinləşib genişlənərək inkişaf etməsinə zəmin yaradır və məzmun xətləri arasında varisliyi təmin edir.Məsələn, "İsim" mövzusu sinifdən-sinfə keçdikcə daha da ətraflı öyrənilir,aşağı siniflərdə İsim sadə izahla öyrənilsədə, yuxarı siniflərə döğru daha da geniş formada,İsmin mənaca növləri, İsmin quruluşca növləri və s. Bu ardıcıllıqla öyrənilir.Yəni, göründüyü kimi, alt standart sinifdən- sinfə keçdikcə məzmun eyni olaraq qalır və dəyişmir.Məzmun eyni qalsada, sadədən mürəkkəbə doğru irəliləyərək sinifdən –sinfə keçdikcə dəyişib təkmilləşmiş olur və standartlar arasında əlaqə itmir.

-2. Üfüqi İnteqrasiya.- Fənn üzrə eyni sinif daxilindəki standartların yəni məzmun xəttlərinin əlaqələnməsinə xidmət edir,müvafiq məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin edir.Yəni sinif üzrə müəyyən olunmuş bilik, bacarıq və vərdişlərin formalaşmasına kömək edir.Məsələn, 5- ci sinif Texnologiya dərsində Oduncaq detalların birləşdiriməsi mövzusunda məzmun xətləri aşağıdaki kimi əlaqələndirilir.1.1.1.. Əl alətlərindən istifadə etməklə, oduncaq detallarının birləşdirilməsi texnologiyalarını izah edir.2.2.1. Çəkiç,kəlbətin,vintaçan və s. Istifadə edir.Texnalogiya fənninin məzmun xətlərini xatırlayaq.1. Emal texnalogiyaları. 2.Texnika elementləri. 3.Məişət mədəniyyəti. 5-ci sinif Texnologiya fənnin Oduncaq detalların birləşdirilməsi mövzusunda şagird emal texnologiyaları ilə tanış olur,yəni yuxarıda qeyd olunankimi(1.1.1), şagird

dərsin əvvəlində əl alətlərindən istifadə etməklə oduncaq detalların birləşdirilməsi qaydaları ilə tanış olur.Daha sonra isə dərsin gedişatında çəkic,kəlbətin, vintaçan və .s .alətlərdən istifadə edir.(2.2.1.)

Fənnlərarası inteqrasiya. Müxtəlif fənnlərin əhatə etdiyi ortaq biliklərin və eyni prinsiplərin qarşılıqlı əlaqəsindən yaranan, fənləri birləşdiorən inteqrasiyadır. Bu sintez ayrı-ayrı fənlərin məzmun standartlarını bir-biri ilə əlaqələndirir, eyni bir bacarığı fəqli fənlərin köməyilə birləşdirib daha da inkişaf etdirir,bir-birini tamamlayan mövzuları müəyyən bir çərçivədə birləşdirir, bir və ya birdən artıq fənnlərin oxşar anlayışlarını, yanaşmalarını, kateqoriyalarını birləşdirərək eyni vaxtda tədrisinə şərait yaradır,təlimi daha da genişləndirərək təkmilləşdirir həmçinin bir fənnə aid olan qanun,qayda, nəzəriyyə və üsulların başqa bir fənnnin öyrədilməsi zamanıistifadəsinin formalaşdırılmasına kömək edir.Fənnin bu usul ilə tətbiq olunması həmçinin şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının sistemləşdirilməsinə kömək edir.Gördüyümüz kimi bu inteqrasiyanın əsas məqsədi şagirdlərdə yeni tip bilikləri formalaşdırmaqdır.

Fənnüstü inteqrasiya- (transfənn inteqrasiyası).İnteqrasiyanın ən yüksək səviyyəsi sayılır.Təlimin əsas və əlavə komponentlərini özündə birləşdirir.Yəni bu inteqrasiya ilə şagirdlərin məktəbdə öyrəndiklərini həyatda tətbiq etməklə daha da yaxşı qavraya bilir.

## 10. Taksanomiya.

PLAN:

1. Taksanomiya anlayışının mahiyyəti.
2. Taksanomiyanın məqsədi.
3. Taksanomiya nın yaranmasında əsas prinsiplər.

Taksanomiya rus-dilində «таксаномия», ingilis dilində “taxonomy”kimi işlədilir, “taxis-dərəcə, sıra, düzülüş, nizam”, “homos” isə “qanun” deməkdir.Taksanomiya - taksonlar,onların qruplaşdırılması və tabeliyi haqqında elm və ya yaxud təsnifatın prinsipləri haqqında təlimdir.Taksonomiya və Taksonomik kateqoriyalar-sadədən mürəkkəbə doğru zəncirvari, iyrarxiya(Şaxələndirmə-bir-birinə tabe olunmuş halda düzülmə) üzrə inkişafı əks etdirən anlayışlar sistemidir.Taksonomik kateqoriyaların iyerarxiyasını ilk dəfə Kari Liniey yaratmışdır.İlk dəfə termin kimi isə 1813 cü ildə Ogüsten Dekandol tərəfindən bitkilərin siniflərə bölünməsini vermək üçün işlədilmişdir.Sonralar bu termin biologiya ilə yanaşı, pedaqogika,linqi vistika,coğrafiya, gealogiya və başqa elm sahələrində də mürəkkəb sistemlərin

mahiyyətini,klasifikasiyasını göstərmək üçün geniş istifadə edilməyə başlandı. 30-cu illərdə isə psixologiyada istifadə olunmağa başlanmışdır.Taksanomiyanı "Takson" kəlməsi ilə dəyişik salmayın:Taksanomiya sistemli, sadədən- mürəkkəbə, zəncirvari,iyerarxik, yəni ağacşəkilli təsnifatdır və təfəkkürün inkişafıdır.Takson isə təkamüldür və taksanomik təsnifatın üzvüdür.. Taksanomiya – ağacvari struktura malik, sistemləşdirilmiş obobyektlər toplusudur.Taksanomiya –nəyi?, oyrətmək, "necə?" öyrətmək və "necə?"qiymətləndirmək kimi sualları sistemli şəkildə cavablandırmağa imkan verir.Taksanomiya –iyrarxik quruluşa malikdir.Taksanomiyalarda yuxarı mərhələ aşağıdakı mərhələlərin bütün xüsusiyyətlərinin daşıyıcısıdır.Lakin aşağıdakı mərhələlər yuxarıdakıların bütün xüsusiyyətlərinin daşıyıcısı deyil. Taksanomiya – bacarıqların pillə-pillə inkişaf etməyinə imkan yaradır və təlim məqsədlərinin şəbəkəli (iyerarxik) və ya sistemli təsnifatıdır.Təlim məqsədlərinin taksanomiyası tədris prosesinin elmi- metodik səviyyədəplanlaşdırmaq və onun nəticəsini ölçməyə imkan verir.Təlim məqsədləri bilik, bacarıq, vərdiş və dəyərlərin formalaşmasını əks etdirir. Alimə görə, hər bir şagirdin öz patensialı, maraqları,metodu və qavrama qabiliyyəti var. Buna görə də hər bir şagirdi öz potensial imkanına uyğun istiqamətləndirmək lazımdır. Bu səbəblərə görə Amerika professoru Benjamin Blum təlim məqsədlərinin əsasən 3 istiqamətdə cərayan etydiyini vurğulamış,"Təhsil məqsədlərinin taksanomiyası" nəzəriyyəsini təklif etmiş və onun bu addımı 1956 –cı ildə kitab şəklində işıq üzü görmüşdür.Təsnifata əsasən isə təhsilin 3 taksanomiyası müəyyən edilib:

2. Emosional taksanomiya; (emosiaların idarə edilməsini tərbiyə edir).

3. Psixomotor taksanomiya; (fiziki inkişafı tənzimləyir).

-Taksanomiya -hadisə və proseslərin qarşılıqlı əlaqə əsasında təsnifatını sistemləşdirilməsini bildirir,ardıcıllıqla yerləşmiş artan meyarlarını özündə əks etdirir.Taksanomiya – varlığın mürəkkəb quruluşu sahələrinin sinif və qruplar üzrə paylanması haqqında nəzəriyyədir. Taksanomiya şəbəkələr düzülüşünə malik olan mürəkkəb fəaliyyət sahələrinin sistemli nəzəriyyəsidir.-Taksanomiya məqsədəuyğunluq nəzəriyyəsini əks etdirir, müəllim-praktika uçun effekt vasitəsidir.Taksanomiya təlimin fərdiləşməsini təmin edir.Şagirdlərin fərdi bacarıqları müəyyən edildikdən sonra onlara taksanomiyaların müxtəlif səviyyələrində hazırlanmış tapşırıqlar veməklə ayrı-ayrı qruplar və ya fərdlərə fədi yanaşma təmin edilir.Beləliklə, səviyyədən- səviyyəyə hər bir şagirdin inkişafı müəllimin tam nəzarətində olur. –Taksanomiya problemləri düzgün müəyyənləşdirmək, şagirdin bu vəya digər materialın öyrənilməsində hansı çətinliklərlə qarşılaşdığını müəyyən etmək(diaqnostikasını aparmaq) və həmin çətinlikləri aradan qaldırmaq imkanı yaradır.- Taksanomiya təfəkkürün müxtəlif növlərini inkişaf etdirmək üçün tapşırıqları tərtib edir, şagirdin təfəkküünü

(məntiqi, tənqidi, yaradıcı) inkişaf etdirir. –Taksanomiya qiymətləndirmə və üsul vasitələrini hazırlamaqda, refleksiyanı həyata keçirməkdə müəllim üçün istiqamətləndirici rol oynayır.Yəni ki, şagirdin refleksiyasına nail olmağa şərait yaradır.Taksanomiya təlim prosesinin düşünülmüş təşkili planlaşdırılması üçün vasitədir. -Taksanomiya intellektual bacarıq və vərdişlərin inkişaf etdirilməsini istiqamətləndirir və şagird bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynayır. –Taksanomiya təlim məqsədlərinin əlaqəliliyini və əhatəliliyini, məqsədlərinin ardıcıllığını təmin edir. -Taksanomiya düşünmə strukturunu təmin edir, məntiqi baxımdan tamamlanmış və mükəmməl daxili bitkinliyə malikdir.Taksanomiya aşağıdan yuxarıya tabeçilik əlaqələri əsasında hissələrin düzümü deməkdir.

Deməli taksanomiya nəyə xidmət edir?.

-Təlim məqsədlərinin düzgün müəyyən edilməsi;

- Qoyulmuş tələbə uyğun qiymətləndirmə vasitəsi seçilməsi;

- Problemləri düzgün müəyyən etmə və uyğun tapşırıq tərtib etmə;

- REFLEKSİYANI düzgün keçirməyə imkan vermə

- Konqurentliyə əminlik yaratma;

- Təfəkkürü inkişaf etdirmə.

Təlim modelinin 4 kompenenti var.1. Təlim məzmunu(nəyi öyrədəcək); 2. Təlim metodları(hansı üsuldan istifadə edəcək); 3. Öyrədici mühit(hansı mühitdə təlim keşəcək); 4. Qiymətləndirmə(necə qiymətləndirəcək).

Təlim sisteminin komponentləri arasında əlqə yaradan ünsürlər təlim prosesinin 2 əsas istiqamətini göstərir.1. –Şagirdin idrak proseslərinin inkişafı(təxəyyül,təfək -kür,hafizə,diqqət). 2.-Şagirdin şəxsiyyətinin inkişafı(sosial-psixoloji, emosional- iradi inkişaf).

Taksanomiyanın yaradılmasında əsasən aşağıdakı prinsiplər nəzərə alınıb.

1. Praktiki istiqamət prinsipi.Taksanomiya məqsədəuyğunluq nəzəriyyəsini əks etdirməli,müəllim üçün praktik effektiv(yəni təcrübə qazandırmalıdır).
2. Psixoloji prinsip.Taksanomiya psixologiya elminin müasir nailiyyətlərinə aslanmalıdır.(təlim sistemində şagirdin psixologiyası ön planda durmalıdır).
3. Məntiqilik prinsipi: Taksanomiya məntiqi baxımdan tamamlanmış və mükəmməl daxili bitkinliyə malik olmalıdır.(mükəmməl nəticə üçün məntiqi ardıcıllıq olmalıdır.

4. Obyektivlik prinsipi: məqsədlərin təsnifatı,onların dəyərlərinin təsnifatı deyilir.(məqsədləri birlikdə deyil də, ayrılıqda həyata keçirdikdə daha effektli nəticə əldə olunur.
   Taksanomiyanı pozan kimdir? Əlbətdəki ki, müəllim Taksanomiyanı müəllim qurur, deməli ona düzgün əməl etmədikdə aftomatik taksanomiyanı elə müəllimin özü də pozmuş olur.Əgər müəllim dərsin məqsədini,vəzifəsini və ən əsası gedişatını özü tam başa düşmürsə,şagird-lərdə hansı bacarıqların, qabiliyyətlərin aşılanmalı olduğunu da düzgün seçə bilmir.Və nəticədə müəllim taksanomiyanı (dərsin zəncirvari əlaqəsini)pozmuş olur.

## 11. İDRAK TAKSANOMİYASI.

PLAN:

1. Biilmə, anlama.
2. Tətbiq, təhlil(analiz).
3. Sintez, Dəyərləndirmə(qiymətləndirmə).

İdrak taksanomiyası ən unversal bir model kimi tətbiq olunmaqdadır.Bu taksanomiyalar sadədən mürəkkəbə düşünmə bacarıqlarının 6 səviyyədə təşkilini təmin edir.

| SƏVİYYƏLƏR. | AÇAR SÖZLƏR. |
|---|---|
| 1. BİLMƏ | MTTSSSS XİGA |
| (Ümumi terminləri bilir). Bu mərhələni Deklarativ bilik kimi də başa düşə bilərik Bu mərhələnin əsas funksiyası məlumata heç bir əlavələr etmədən olduğu kimi çatdırmaqdır.Bu səviyyə bir növ Hafizəyə(həmçinin əzbərçiliyə) əsaslanır(Təfəkkürə yox. Çünki təfəkkür şagirdi düşünməyə vadar edir, hafizə isə sadəcə əzbərləməklə kifayətənir).Şagird şeiri əzbər söyləyə bilir, elmi anlayışları bilir,eşitdiyi informasiyanı olduğu kimi çatdırır, deyiləni təkrarlayır,amma mənasını dərk etmirsə, bilmə səviyyəsindədir,digər səviyyəyə keçməyib.Deməli hər hansı bir məluma-tı bilməklə onu alamış olmuruq.Amma növbəti pillələrdə həmin məlumatı qavramaq üçün mütləq bilmə mərhələ-sinin içindən keçməliyik,yoxsa onu dərk | -“M”üəyyən edir.Şagird verilmiş tapşırıq da sifətin dərəcələrini müəyyən edir.<br>-“T”əsvir edir.Şagird sinif yoldaşının xüsusiyyətlərini təsvir edir.<br>-“T”anıyır.Bu hansı şairin heykəlidir? Şagird tanıyır.<br>-“S”adalayır.Şagird sait səsləri sadalayır.<br>-“S”ıralayır.Şagird tək və cüt ədədləri sıralayır.<br>-“S”eçir.Şagird cümlədə olan sifətləri seçir.<br>-“S”axlayır.Şagird yeni sözləri yadında saxlayır.<br>-“X”atırlayır.İlk öyrəndiyiniz şeirin adı nə idi? Şagird xatırlayır.<br>-“İ”şarə edir.Bu simvollar nəyə işarə edir?<br>-“G”östərir.Şagird xəritədə Gəncə |

| | |
|---|---|
| etməkdə çətinlik çəkmiş olarıq.Məsələ - lən, şagird “May”modal felini,mübtəda- dan sonra gəldiyini,yalnız indiki zaman – da işləndiyini,”olarmı ? edə bilərəmmi?” kimi tərcümə olunduğunu və.s. bu kimi xüsusiyyətləri müəyyən edir, təsvir edir, adlandırır, sadalayır, sıralayır,seçir, göstərir.Başqa misala baxaq.“Kurikulum nəyə deyilir?” sualı verilir və onun tərəfini olduğu kimi deyirik.Mənasını soruşduqda isə cavab verə bilmiriksə, deməli bilmə səviyyəsndə qalmışıq.Əksi nə, cavab verə biliriksə, bu o deməkdir ki, əzbərlədiyimizin mənasını bilirk və artıq Anlama səviyyəsinə keçmişik. | şəhərinin yerini göstərir.<br>-“A”dlandırır.Bunlardan hansı ev heyvan larıdır?.Şagird onları adlandırır. |
| 2.ANLAMA(QAVRAMA) | ŞTK FİN |
| Fakt və prinsipləri artıq anlayır.Məntiqi təfəkkürə əsaslanır.Bu səviyyəyə daxil olan bacarıqlara əsasən şagird artıq oxuduğunu anlayıb dərk edir, öz fikrini çatdıra bilir,əzbərlədiyi şeyrə izah verə bilir, söylədiyi qaydanın mahiyyətini anlayır,əzbərçilikdən kənara çıxıb öz sözləri ilə ifadə edir, mövzuya aid öz nümunələrini göstərə bilir.Yəni, şagird işi görməzdən əvvəl onun mahiyyətini anlayırsa, anlama səviyyəsini keçmiş sayılır.Məsələn, şagird sait və samit səsləri sadalayırsa, şeyri əzbər söyləyə bilirsə,deməli, bilir; əgər o bildiyini (qaydanı və ya şeyri) öz sözləri ilə ifadə edə bilirsə, deməli qaydanı qavrayıb. Yəni şagirdin hər hansı bir mövzu haqqında müəyyən bilgisi və məlumatı olmazsa,lazımi informasiya ilə təmin olunmazsa, o, mövzunu anlaya bilməz və öz sözləri ilə ifadə edə bilməz. | -“Ş”ərh edir. Canlı aləmin müxtəlifliyinin səbəblərini şərh edir.Yəni, səbəbləri qavrayıb ki, artıq şərh edə bilir.<br>-“T”əsvir edir.Qədim insanların Yer haqqında təsəvvürlərini şərh edir.Yəni artıq öz sözləri ilə təsvir edə bilir.<br>-“K”eçilir.Bir ifadə vasitəsindən digər ifadə vasitəsinə keçirir.<br>-“F”ərqləndirir.Dünya xalqlarını irq, din və dil baxımdan fərqləndirir.<br>-“İ”zah edir.Köməkçi nitq hissələrini tanıyır,onların əsas nitq hissəsindən fərqini izah edir.<br>-“N”ümunə göstərir.Şagird vuruqların yerini dəyişəkdə də hasil dəyişmir qaydasına nümunə gətirir. |
| 3.**Tətbiq .**<br>Konsepsiya və prinsipləri yeni şəraitdə artıq tətbiq edə bilr.Məntiqi təfəkkürə əsaslanır.Prosedural bilik kimi də başa düşülür.Şagird öyrəndiklərini praktiki | **(DİNH TCP)**<br>**“D”əyişir** (Sən işləyirsən).Sən işləyirsən? Sən işləmirsən.Şagird cümləni təsdiq, sual və inkarda verərək dəyişə bilir.<br>**“İ”stifadə edir.**Metal üzərində əl |

| | |
|---|---|
| baxımdan həyata keçirə bilirsə, artıq o məlumat anlamaqla yanaşı, beyninə də həkk etmiş olur.Hər hansı bir tapşırığı tətiq edərkən, şagird ona toxunaraq dəyişir, istifadə edir, daha yaxşı qavrayır, onu daha asan istifadə qaydasını, texnikasını öyrənmiş olur. Niyə məhz toxunaraq Çünki ən həssas sinir ucları insanın barmaqları ucunda yerləşir və beyinə ən tez siqnal ötürən məhz barmaq uclarıdır.Ona görə də,insanın görərək, toxunaraq və tətbiq edərək bildiyini icra etdikdə həm dərk edir, həm də təcrübə qazanır.Hz.ƏLİ(ə) "Bir şey yazmaqla əzbərləyin!"Çünki yazarkən dəftərdən beynimizə yazmış oluruq və beynə ilkin məlumatlar çatmış olur.Şagird əgər qəbul etdiyi informasi-yanı anlayarsa, onun tətbiqində çətinlik çəkməz.Anlamazsa, öyrəndiyini tətbiq edə bilməz.Bir sözlə, anlamadan əzbərləyən insan tətbiq edə bilməz. Digərbir misala baxaq.Bir kitabı oxuyursunuz (bilmə mərhələsi), oxuduğunuzu dərk edirsinizsə(anlama mərhələsi), deməli testi də rahat işləyə biləcəksiniz(tətbiq mərhələsi) | alətlərindən istifadə edir.<br>**"N"umayiş etdirir.**Qrup tərkibində birgə fəaliyyət bacarıqları nümayiş etdirir.Deməli artıq bacarıqları dərk edib ki, indidə tətbiq edərək nümayiş etdirə bilir.<br>**"H"əll edir** Ev tapşırıqlarını həll edir.<br>"**T"ətbiq edir.**Müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq edir.<br>**"C"ümlə qurur.**Qaydanı başa düşən şagird cümlədə qura bilir.<br>**"P"roblemləri həll edir.**Artıq şagird həm bildiyi, həm də qavradığı üçün qarşısında duran problemimhəll edə bilir. |
| **4. TƏHLİL(ANALİZ)**<br>İşin təşkili strukturunu analiz edir. Məntiqi təfəkkürə əsaslanır.Bu mərhələdə şagird tətbiq etdiyi işin oxşar və fərqli tərəfini müəyyən edərək analiz edir.Məsələn, şagird hər hansı bölmə (morfalogiya) üzrə təhlil aparmaq üçün həmin bölməni bilməli, həmçinin bölməyə aid olan mövzuların hər birini ayrı-ayrılıqda (isim,sifət, say, qoşma, bağlayıcı və s.) tətbiq edə bilməlidir. Şagird hər hansı bir sözün tək və cəm olmasını, sadə düzəltmə mürəkkəb olmasını bilirsə, kök və şəkilçiyə ayıra bilirsə, demək təhlil edə bilir.Şagird | **( PS AHƏMM)**<br>**"P"arçalayır onların bir yerdə** necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalayır.<br>**"S"turukturu tapır.Ünsiyyətin** əsasınl təşkil edən sturukturu tapır.<br>**"A"yırır** Sözü kök və şəkilçiyə ayırır.<br>"**H"hissələrə bölünür.Oxuduğu mətni hissələrə bölür və hər bir hissə haqqın-da fikirlərini deyir.**<br>**"Ə"laqələndirir** Öyrəndiyi mövzunu əvvəl öyrəndikləri ilə əlaqələndirir: Azərbaycan təbiətinin müxtəlifliyini iqlimlə əlaqələndirir.<br>**"M"üəyyən edir(strukturunu)** |

| | |
|---|---|
| qəbul etdiyi informasiyanı tətbiq edərsə onu təhlil də edə bilər, hissələrə ayırar, strukturunu müəyyənləşdirər,müqayisə etmə bacarıqları formalaşar, gördüyü işi bir daha gözdən keçirərək analiz edir.<br>**5.SİNTEZ**<br>Əşyaları və ideyaları təsnif edərək sxemlər yaradır.Yaradıcı təfəkkürə əsaslanır.Bu mərhələni **kontekstual bilik** kimi də başa düşə bilərik.Sintez sözünə bir çox sahələrdə rast gəlirik: mürəkkəb üzvi maddələr sintezi, xalq sənəti ilə profesional sənətin sintezi, köhnə mahnıların yeni versiyaya salınması və s. Bu mərhələ güclü təhlil bacarığı, yaradıcılıq tələb edir və bütün şagirdlər bu mərhələyə qədərinkişaf edə bilmir.Ona görə də dərsin mərhələlərini düzgün seçmək lazımdır ki, uşaqları bu səviyyəyə çatdıra bilmək mümkün olsun.Təhlil analiz mərhələsində ayırırdıqsa da sintez mərhələsində birləşdiririk.Şagirdlərin fərqli vasitələri birləşdirib ixtiralar etmə si,ayrılmış hissələri ardıcıllıqla birləşdir-məsi(məsələn puzzle düzəltməsi, verilm iş feillərin hansı zamanda olduğunu müəyyən etməsi),və s. bu mərhələdə həyata keçir.Şagird informasiyanı təhlil etdikdən sonra onun başqa variantlarını da yarada və sintez edə bilər.<br>**6.DƏYƏRLƏNDİRMƏ(Qiymətləndirmə)** Məntiqi ardıcıllığı dəyərləndirir.Tənqidi təfəkkürə əsaslanır.Bu mərhələdə şagird artıq hər hansı fikrə və ya kiminsə işinə münasibət bildirə, mühakimə yürü də, səhvi düzdən ayıra bilirlər.Artıq başa çatmış prosesin şüurda inikası olan refleksiya bu mərhələdə həyata keçir. Şagird artıq asanlıqla qaydaları qarşılaşdırır, müsbət və mənfi fikirləri seçir.Əgər şagird mövzunu dərindən | **“M”üqayisə edir.**Mətndə oxuduğu obrazları müqayisə edir.<br><br>**(YYTN P)**<br><br>**“Y”aradır** həm şifahi formada, həm də fiziki obyekt ola bilən unikal, orginal məhsulu yaradır.<br>**“Y”azır** Şagird dinlədiyi şeiri nəsrə çevirib yazır.<br>**“T”ərtib edir.**Şagird öyrəndiyi yeni söz və terminlərin əlifba sırasına uyğun lüğətini hazırlayır.<br>**“N”əql edir.**Şagird mətndəki müəyyən epizodları genişləndirməklə, oxuduğu əsərin sujet xəttini təxəyyülünə uyğun dəyişməklə yaradıcı formada nəql edir.<br>**“P”lan tutur.**Şagird mətndə yeni epizod və obrazlar əlavə etməklə yaradıcı plan tutur.<br><br>**(MMMQQ H)**<br>**“M”ühakimə yürüdür** müşahidə etdiyi, eşitdiyi, oxuduğu hadisələr və inanclar haqqında mühakimə xarakterli fikirlər irəli sürür.<br>**“M”ünasibət bildirir**.Mətndəki fikir və mülahizələrə münasibət bildirir.<br>**“M”üqayisə edir.**Bədii sənət əsərlərin də milli uslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |

| | |
|---|---|
| başa düşrsə, deməli ən üst mərhələ olan dəyərləndirmə mərhələsinə gəlib çatıb.Bu mərhələyə çatan şagird bir növ "juri"ni xatırladır, çünki juri kürsüsün də oturanlar bu 6 səviyyənin hamısını keçmiş olurlar və ona görədə düzgün qərar qəbul edə və münasibət bildirə bilirlər(məsələn dərs vaxtı sinif yoldaşının səhvini tapa bilirlər).Bu inkişaf səviyyəsinə qədər irəliləmiş bir şagird artıq hər hansı bir fikrə rahatlıqla münasibət bildirə, fikirlərini asanlıqla əsaslandıra və mühakimələr yürüdə bilər, yəni dəyərləndirmə bacarıqları formalaşar. | **"Q"ərarlar qəbul edir**.Məsələ haqqında mühüm qərqrlar çıxarır.<br>**"Q"arşılaşdırır.**Debat zamanı oxuduqla rından və eşidib gördüklərindən misallar gətirməklə fikirləri əsaslandırır və qarşılaşdırır.<br>**"H"əll edir.**Mübahisələri və fikir müxtəlifliklərini həll edir. |

Gördüyünüz kimi bütün səviyyələr bir-biri ilə əlaqəlidir.Pillələr arasında əlaqə : Şagird bilməsə, anlaya bilməz, anlamasa tətbiq edə bilməz, tətbiq edə bilməsə təhlil edə bilməz, təhlil edə bilməsə isə sintez edə bilməz, sintez edə bilməsə isə dəyərləndirə bilməz. İbtidai sinifdə hə hansı bir mətni üzündən ifadəli və sürətli oxumaq üçün əvvəlcə hərfləri daha sonra yuxarı siniflərə doğru qalxdıqca sözləri, söz birləşmələrini, cümlələri mətnləri öyrənirik, yəni asandan çətinə,sadədən mürəkkəbə gedən, zirvəyə pillə-pillə qalxan yolu mənimsəyirik. Buna görədə, "taksanomiya zəncirvari quruluşa malikdir və şagirdin təfəkkürünü düzgün inkişaf etdirməyin ardıcıl mərhələlərini özündə əks etdirir.Deməli uğur qazanmağın yolu mərhələlərdən keçir.Yəni sıranı pozmaq olmaz, hərtərəfli öyrənmək üçün şagird sistemli oxumalıdır.Bizim məqsədimiz: birtərəfli yox, hərtərəfli insan yetişdirmək – dir.Bilmə, Anlama, Tətbiq Alt səviyyədir, Təhlil, Sintez, Dəyərləndirmə isə Üst səviyyədir.Hər səviyyəyə qalxmaq üçün mütləq şəkildə əvvəlki səviyyəni inkişaf etdirmək lazımdır.

Diqqət:"Fərqləndirir" və "Müqayisə edir" fərqli mənaları daşıyır."Fərqləndirir" açar sözü Anlama mərhələsindədir; "Müqayisə edir" açar sözü isə Təhlil mərhələsindədir.Məsələn, şagirdə deyirsən ki, bu vərdişləri fərqləndir və hansının yaxşı, hansının pis vərdiş olduğunu qeyd elə".Bu fərqləndirməkdir. Amma "bu vərdişləri müqayisə et" desəm, o zaman şagird yaxşı və pis vərdişləri fərqləndirməklə yanaşı, onların insanlarda yaranma səbəbləri, hansı şəraitdə formalaşması haqqında daha geniş açıqlama verməlidir.Buradan görünür ki, fərqləndirmək müqayisə etməkdən daha asandır.

## 12. EMOSİONAL VƏ PSİXOMOTOR TAKSANOMİYA.

PLAN:

1. Şagirdin davranış xüsusiyyətləri.
2. Şagirdin fəaliyyət xüsusiyyətləri.
3. Taksanomiyanı pozan tərəf.

Emosiyaları idarə edilməsini təmin edən, şagirdlərin davranış xüsusiyyətini, dəyərlərini, fiziki inkişafını, hiss və yanaşmalarını inkişaf etdirən səviyyələr isə Emosional (Affektiv ünsiyyət) taksanomiyanı formalaşdırır. Bu taksanomiya nəzəriyyəsini isə 1964-cü ildə Kraslov təqdim etmişdir.

| SƏVİYYƏLƏR.<br>Şagirdin davranış xüsusiyyətləri. | İZAHLAR. |
|---|---|
| 1. Mqbul saymaq.<br>Şagird hər hansı bir təlim prosesində iştirak etmək üçün stimullaşdırılır.Bu təlim nəticələri əşyanın mövcudluğunu dərk etmədən tutmuş seçimli yanaşmaya qədər inkişaf etdirir. | Yəni ki, şagirdin yeni mövzunun müzakirəsində fəal olması üçün onun müzakirədə iştirakı məqbul sayılır, buna görə də, şagird həvəsləndirilir və ona stimul verilir. |
| 2. Reaksiya vermək.<br>Şagird təlim prosesində fəal iştirak edir, suallara cavab, hadisələrə reaksiya verir.Bu təlim nəticələrində şagirdin zövq və maraqlarının axtarılması və fəaliyyətdə tətbiqi vurğulanır. | Şagird bu mərhələdə daha fəal olur, suallara cavab, hadisələrə reaksiya verir, yəni münasibət bildirir. |
| 3. Dəyərləndirmək.<br>Şagirdin hər hansı əşya və ya hadisənin dəyərləndirməsinə və ona əhəmiyyət verməsinə xidmət edir.Bu təlim nəticələri hər hansı yanaşmaların və ya rəğbətin ümumilikdə təsnif edilməsi üçün şərait yaradır. | ----------<br>--<br>Bu mərhələdə şagird artıq reaksiya verdiyi hadisəni dəyərləndirir, münasibət bildirdiyi mövzuya daha çox əhəmiyyət verir.Bu mərhələ şagirdin mövzuya yanaşaraq onu daha yaxşı dərk etməsinə şərait yaradır |
| 4. Təşkil etmək<br>Ümumilikdə dəyərlər sisteminin, bütün ömür fəlsəfəsinin yaradılmasına, dünya görüşünün, hər hansı bir işin təşkilində qərarlığın, problemləri həll etməyi alışqanlıq halına gətirilməsi bacarığının inkişafına xidmət edən təlim | Bu mərhələdə şagirdə daha çox həyat daha çox həyat dair məqamlar öyrədilir. Ömür fəlsəfəsinin(həyat yaşamı) başa salınmasını, dəyərlər sisteminin yaradılması, həyatda uğur qazanmaq, böyüklərə hörmət,davranış qaydaları, |

| | |
|---|---|
| məqsədləri bu kateqoriyaya əsaslanır.<br><br>5.Dəyər və dəyərlər sistemini xarakterizə etmək.<br>Bu mərhələdə fərd, davranışlarını nəzarətdə saxlaan və həyat tərzini müəyyənləşdirən dəyərlər sisteminə malikdir.Şagirdin şəxsi, ictimai və emosional davranışın formalaşmasına bu təlim nəticələri kömək olur. | adət-ənənə və s. aşılanır.<br>---<br><br>Sonuncu mərhələnin məqsədi şagirdin şəxsi, ictimai, emosional davranışlarını formalaşdıran həyat qurmaqdır.Şagird bu mərhələdə özünü cəmiyyətdə necə aparmaq lazım olduğunu, qərarlar verə bilməsini, davranışlarını necə formalaşdıra biləcəyini, yəni daha çox mənəvi dünyanın zənginləşdirilməsinə xidmət edir. |

Fiziki inkişafı tənzimləyən, hərəki qabiliyyətləri mərhələli şəkildə inkişaf etdirən, psixomator bacarıqları formalaşdıran mərhələlər isə Psixomotor taksanomiyanı formalaşdırır. Bu Taksanomiya Fiziki tərbiyə, Təsviri incəsənət, Texnalogiya kimi hərəkətin olduğu fənnlərə aiddir. Bu taksanomiya nəzəriyyəsini isə 1972- ci ildə Kennes Mur təqdim etmişdir.

| SƏVİYYƏLƏR.<br>Şagirdin fəaliyyət xüsusiyyətləri. | İZAHLAR |
|---|---|
| 1. Hiss etmə<br>Şagird hərəkətin icrasından əvvəl öz imkanlarını müəyyənləşdirilir, öz mənəvi vəziyyətini nizamlayır, görəcəyi işə özünü psixoloji hazırlayır. | Məsələn, idman dərsində şagird tələb olunan hərəkəti etməlidir.(topu çiləmə li, məsafəni qaçmalı, turnikdə özünü çəkməli və.s).Şagird buna əvvəlcədən hazır olmalı, yəni öz imkanlarını, nəyi bacara biləcəyini əvvəlcədən müəyyənləşdirir. |
| 2. Hazır olma.<br>Hərəkətin icrasına hazırlıq işləri aparır. (insan bir işi görməyi hiss edə bilməsə, hazır da ola bilməz. | Yəni, şagird işə başlamaq üçün lazım olan hazırlığı görür, əsas və lazım olacaq vasitələri seçir. Bir sözlə, həmin hərəkəti etmək üçün hazırlaşır və özünü hazır hiss edir. |
| 3. Təqlid etmə.<br>Nümayiş etdirilən hərəkətləri təkrarla – yır,vərdişlərə yiyələnir.Komples vərdişlərin ilkin mərhələsində istifadə edir. | Şagird göstərilən nümunəvi hərəkətləri təqlid edir, yəni təkrarlayır.(bir hərəkəti dəfələrlə təkrar edir, özünküləşdirir.Bir sözlə təkrar biliyin anasıdır. |
| 4. Mexanizimlərin mənimsənilməsi.<br>Hərəkətləri qaydalara uyğun yerinə yetirir, fəaliyyətin icrası zamanı özünə | Yəni, həmin hərəkəti həyata keçirməyin texnikasını,qaydalarını və yollarını öyrənir, fəaliyyət zamanı özünə inam |

| | |
|---|---|
| inam nümayiş etdirir. | nümayiş etdirir.(idman hərəkətlərini qaydaya uyğun edərək hərəkətin mexanizmi mənimsəmiş olur). |
| 5. Mükəmməl icra .<br>Mükəmməl vərdişlər kimi formalaşmış hərəkətlər icra edərək nümayiş etdirir. | Şagird artıq hərəkəti necə etmə mexanizmini mənimsədiyi üçün formalaşmış hərəkətlər göstərə bilir, idman hərəkətlərini mükəmməl icra edə bilir. |
| 6. Uyğunlaşma.<br>Hərəkətin icrası zamanı yaranmış problemi asanlıqlq həll etmək üçün davranışda dəyişiklik edir. | Şagird artıq hərəkəti mükəmməl icra edə bildiyi üçün özünü hərəkətə uyğunlaşdırmış və problemi həll etməyə qadir sayılır. Hərəkətlərin icrası zamanı yaranmış problemi həll etmək üçün şagird hərəkətə uyğun davranma edərək davranışında dəyişiklik etməyi bacarır. |
| 7. Yaradıcılıq.<br>Yeni fəaliyyət nümunələri yaradır.Şagird özünü hərəkətə uyğunlaşdırdığı və onu mükəmməl icra edə bildiyinə görə, artıq yeni fəaliyyət nümunələri yaratmağa qadirdir. | Bu da şagirdin yaradıcılığı ilə bağlı olan bir vəziyyətdir.Şagird məsafəni tez bir zamanda qət edə bilməsi, hərəkəti mükəmməl icra edə bilməsi üçün özünəməxsus yaradıcılıq göstərə bilirsə, yaradıcılıq səviyyəsinə çatmış deməkdir. |

## 13. TƏFƏKKÜR VƏ ONUN NÖVLƏRİ. PLAN:

1. Hafizə (Yaddaş)
2. Məntiqi təfəkkür.
3. Tənqidi təfəkkür.
4. Yaradıcı təfəkkür.

Şagirdlərdə komprtensiyaların formalaşmasında təfəkkürün rolu danılmazdır. Çünki təfəkkür şagirdlərdə idrak fəallığı, problemi həll etmə qabiliyyəti, tətbiq-etmə, tənqidetmə kimi bacarıqlar formalaşdırır və təfəkkürün aşağıdakı növləri üzrə inkişaf etdirir. Təfəkkür, yəni, düşüncə,idrak insanın ən ali xüsusiyyətidir.

Göründüyü kimi insan beyni əsasən iki işi həyata keçirir: Yadda saxlamaq və Düşünmək.Yadda saxlamaq Hafizəyə xas funksiyadır, Düşünmək isə Təfəkkürə aiddir.

**Tənqidi Təfəkkür**

**İp ucu sözləri: mənfi müsbət, müxtəlif baxış, ən səmərəli yol, öz ideya, ən mühüm, meyar, sübut et.(Tənqid edən insan münasibət bildirir,məsləhət verir,ən yaxşı yolu göstərir, müsbət və mənfi tərəfləri bildirir).**

**Qiymətləndirmə, öz münasibətlərinin bildirilməsi, müxtəlif nöqteyi – nəzərdən məsələyə baxılması və s.** Tənqidi yanaşmaq yalnız mənfi xüsusiyyətlərin söylənilməsi deyildir.İnsanın fikir yürütməklə düzü səhvdən ayıra bilmək bacarığı, müsbət və mənfi cəhətlərin müəyyən olunması və s. buna aiddir.

- **Müxtəlif baxış nöqtələrindən qiymətləndirmək(kurikulumun həyatımızdakı əhəmiyyətiini, rolunu qiymətləndirir).**
- **Əhəmiyyətni qiymətləndirmək(yaşadıqlqrının əhəmiyyətini qiymətləndirir).**
- **Rolunu qiymətləndirmək(müəllimin şagird həyatında həyatında rolunu qiymətləndirir).**
- **Meyarı müəyyən etmək, meyar cədvəlini tərtib etmək etmək, səhvləri tapmaq, faktları uydurmadan seçib ayırmaq, mübahisəli məqamları aşkar etmək, tənqidi yanaşmaq, düzgün olanı seçmək, ən mühüm predmetləri müəyyən etmək, ən mühüm hadisələri müəyyən etmək,əhəmiyyətini sübut etmək, öz ideyanı əsaslandırmaq, ən səmərəli yolu tapmaq, məsləhət vermək.**

**YARADICI TƏFƏKKÜR.**

**İp ucu sözləri: analoq, təxəyyül,qurqşdırmaq, ixtira, fərziyyə, başqa obyektə döndər,yeni əsaslar, öz çıxış yolu, simvol şəklində təsvir.( şair, rəssam,bəstəkar yazıçı kimi yaradıcı insanlar hekayə uydururlar,yaradırlar, dəyişikliklər edirlər.**

**Təxəyyülün köməyi ilə yeni ideyaların, modellərin, sxemlərin, qaydaların və s. yaradılmasıdır Yeni bir fikir yaratmaq, ixtiralar etmək, inşa yazmaq, proqnoz verə bilmək bu təfəkkürə aiddir.Təxəyyül (məsələn: oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir) isə** insanın qavrayışı və hafizəsi ilə bağlı təsəvvürlərin yenidən işlənməsi, yeni qaydada birləşdirilməsi əsasında yeni surətlərin yaradılmasından ibarət olan psixi prosesə deyilir.Təxəyyülün köməyilə insan nəyisə yaradır, özünün fəaliyyətini planlaşdırır və onu idarə edir. Demək olar ki, bəşəriyyətin yaratdığı maddi və mənəvi dəyərlər insan təxəyyülünün məhsuludur.Təxəyyül insanı hal-hazırda olan vəziyyətdən kənara çıxarır, ona keçmişi daha əyani şəkildə görməyə kömək edir, onu gələcəyə aparır.Təxəyyülün təfəkkürlə əlaqəsi onda ifadə edilir ki, təxəyyül də varlığın özünəməxsus şəkildə inikasıdır. Lakin təfəkkür psixi bir proses kimi varlığı, alimi anlayış- larla əməliyyat aparmaq vasitəsilə əks etdirirsə, təxəyyül varlığı konkret obrazlı formada əks etdirir.Biz bu cəhəti alimin yazıçının fəaliyyətində aydın şəkildə görə bilərik. Alim də, yazıçı da varlığı əks etdirir, lakin biri məntiqi dəlillərə, sübutlarla(yəni məntiqi təfəkkürə əsaslanaraq), digər isə təxəyyülün köməyi ilə, yaratdığı obrazlarla(yəni təxəyyülə əsaslanaraq).

- **Uydurmaq(hekayə, situasiya, nağıl, müsuqi, üsul)**

- **Tərtib etmək( maket, model, sxem, qrafik,kitab)**
- **Proqnoz vermək(məsələylə bağlı proqnoz verir)**
- **Müqayisə etmək, analoqu tapmaq, ixtira etmək, yaratmaq, başqa obyektə döndərmək, yeni tərtib üsulunu tapmaq, dəyişiliklər etmək, quraşdırmaq, fərziyyələr,minimuma endirmək, simvol(rəmz).**
- **DİQQƏT: Şagirdə əsərdəki obrazları müqayisə etmək tapşırılıb – Məntiqi təfəkkürə əsaslanır. Əsərdəki obrazların oxşar və fərqli cəhətlərini tapmaq tapşırılıb – Məntiqi təfəkkürə əsaslanır**
- **Şagirdlərə əsərdəki müsbət və mənfi obrazları müqayisə etmək tapşırılıb.—Tənqidi təfəkkürə əsaslanır.**
- **Verilən vəziyyətdən çıxış yolu tapmaq – Məntiqi təfəkkürə əsasılanır.(düşdüyü vəziyyətin fərqinə vara bilirsənsə, deməli həmin vəziyyətdən də çıxış yolu tapa bilərsən, yəni, məntiqin var.**
- **Ən səmərəli yolu tapmaq.- Tənqidi təfəkkürə əsaslanır.("ən", "mühakimə","məsləhət" sözləri tənqidi yanaşmaya aiddir.)**
- **Verilən vəziyyətdən öz çıxış yolunu tapmaq –Yaradıcı təfəkkürə əsaslanır(özünəməxsus yol ilə işi həll edib yol tapa bilərsən)**
- **Tərifi verir.- hafizəyə əsaslanır.**
- **Öz tərifini verir.- məntiqi təfəkkürə əsaslanır.**

**Təlim vaxtı istifadə etdiyimiz tapşırıqlar hafizə və təfəkkürün inkişafına yönəlməli və təlim məqsədlərinə uyğun tərtib olunmalıdır.Ümumiyyətlə isə tapşırıq təfəkkürü inkişaf etdirən əsas amillərdəndir.**

## 14. TƏLİM STRATEGİYALARI.

PLAN:

1. Təlimin təşkilinə verilən.
2. Təlimin (iş) formaıları.
3. Kollektivlə (bütün siniflə) iş.

**1.** Təlim strategiyaları təlim prosesində istifadə olunan forma, üsul, vasitə və yanaşmaların məcmusudur. Strategiya(q.yun. otpatniya,"sərkərdə mədəniyyəti") --- subyektin məqsədinə çatması üçün düşünülmüş planlı fəaliyyət modelidir.Strategiyanın məzmununua fəaliyyət istiqamətinə uyğun olaraq məntiqi qərqrlar toplusu daxildir.Stategiya məqsəd və istiqamətin davamlı müəyyən edilməsi prosesi kimi müəyyən edilir.Onun əsas məqsədi təçkilatın bacarıq və resuslarını mütərəqqi yolla xarici mühitdə mövcud olan imkanlara uyğunlaşdırmaq və strategiyanın müxtəlif aspektlərinin bir-biri ilə qarşılıqlı əlaqədə uzlaşdığına əmin olmaqdır.Strategiya həyata keçiriləcək bir plandır, qarşıya qoyulmuş məqsədə

çatmaq üçün düzgün strategiya təyin olunmalıdır.Hər hansı sahədə planla götürülmüş işin və ya strategiyası müəyyən olunmuş məsələnin sonda nəticəsi də müsbət olur.Təhsil sahəsində isə müəllim dərsi nə qədər şagirdlərin marağına uyğun təşkil etsə, bir o qədərdə şagirdləri inkişafa yönəltmiş olacaq.Deməli, strategiyada nəticəyə çatmaq üçün mütləq məqsədimiz olmalıdır.Bir sözlə, planlı (strategiya ilə) götürülən işin nəticəsi plansız(strategiya qurmadan) görülən işin nəticəsindən yaxşı olacaq.Təlim strategiyaları bunlardan ibarətdir:

1. Təlimin təşkilinə verilən əsas tələblər.
2. Təlimin (iş) formaları.
3. Təlimin üsulları.
4. Təlim fəaliyyətinin planlaşdırılması.
5. (Məzmun standartlarının şərhi)

Pedaqji prinsiplər—Müəllimin dərsi qurmaq üçün hansı strategiyalardan istifadə etməli olduğunu göstərən prinsiplərdir.Təlimin təşkilinə verilən əsas 6 tələb var:

1. Pedaqoji prosesin tamlığı—pedaqoji prosesdə təlim məqsədləri kompleks şəkildə **(öyrədici, inkişafetdirici, tərbiyəedici)(ÖİT)** həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir; (pedaqoji proses o vaxt tam olar ki, orada həm müəllim, həm şagird və onların qarşılıqlı əlaqəsi olsun.Dərsdə müəllimin fəaliyyət xarakteri və məqsədi **öyrədici, inkişafetdirici, tərbiyəedici olmalıdır ki,** şagirdlərdə ümumi təlim bacarıq və vərdişləri formalaşsın(öyrədici); intellektual idraki, emosional- iradi və şəxsi keyfiyyətlərin inkişafı fəallaşsın(inkişafetdirici) şəxsiyyətin özünəhörmət, müstəqillik,yaradıcılıq,məsuliy- yət formalaşdırılsın(tərbiyəedici).

**Öyrədici:**Tədqiqat aparılması imkanı, müxtəlif iş formalarından istifadə imkanı, vaxta qənaət, təhliletmə və nəticəçıxarma bacarığı, qısa müddətdə daha çox materialın öyrənilməsi imkanı .

**İnkişafetdirici : fəallıq,adaptasiya qabiliyyəti**, yaradıcılıq, müstəqil tədqiqat aparmaq.

**Tərbiyəedici:** əməkdaşlıq, bir-birinin fikrinə hörmətlə yanaşmaq, bir-birini dinləmək bacarığı.

**2.Təlimdə bərabər imkanların yaradılması –**bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir; Bütün şagirdlərə eyni gözlə baxmaq və aralarında ayrıseçkilik qoymamaq lazımdır.

**3. Şagirdyönümlülük –**şagird pedaqoji prosesin mərkəzində dayanır.Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və

qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir; (Şagirdin maraq və tələbatı ön planda dayanır).

**4. İnkişafyönümlülük—**şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir,bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir.

**5. Fəaliyyətin stimullaşdırılması—pedaqoji prosesin səmərəli və effektiv qurulması**,şagirdlərin təlimə marağın artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibari ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur; (Hər bir insan dəyərləndirilməyi və ona stimul verilməsini sevir.Məsələn, şagirdin şəklini şərəf lövhəsində asmaq; siniflər üzrə olimpiadalar keçirmək; çalışqan şagirdə ulduz (smaliklər)qoymaq, dərsi onların maraqlarına uyğun qurmaq və s. Bunun kimi stimulverici addımlar şagirdlərdə dərsə marağı daha da artırır.

**6. Dəstəkləyici mühitin yaradılması—** pedaqoji prosesin münasib maddi –texniki baza əsasında və sağlam mənəvi – psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır. Məsələn, məktəbin maddi texniki bazası olub da, savadlı kadrları yoxdursa, orada dəstəkləyici mühit alınmaz. Və yaxud da əgər siniflər avadanlıq və vəsaitlərlə tam təchiz olunmayıbsa, orada əlverişli mühit çox çətinliklə yaranar.Deməli dəstəkləyici mühitin yaradılması üçün maddi və mənəvi psixoloji mühit düzgün qurulmalıdır.Çünki şagirdə nə qədər dəstək olsaq, bir o qədər nəticə götürə bilərik.

**2. Təlim formaları(iş formaları)—** Əvəllcə qeyd etmək lazımdır ki, "təlimin formaları" və " iş formaları" eyni mənanı bildirirlər.Yəni, təlim forması və ya iş forması ikisi də doğru anlayışdır və ikisi də işlənə bilər.Təlim **4 formada təşkil olunur. 1.** Dərsdə reallaşdırılacaq məzmun standartları; **2.** Dərsdə gözlənilən təlim nəticələri; **3. Dərsdə iştirak edən şagirdlərin sayı. 4.** İstifadə olunacaq təlim üsulu;

**5.**Təlimin əsas məqsədi (mövzu yox) mütləq şəkildə nəzərə alınmalıdır.

**Fərdi iş** – şagirdlərin sərbəst düşünməsinə real imkanlar yaradan iş formasıdır və şagirdin inkişaf səviyyəsini izləyir.Fərdi iş şagirdin zəif tərəflərini müəyyən edir, və özünə tam inam formalaşdırmağa kömək edir.Şagirdlərə fərdi bacarıq və qabiliyyətlərinə müvafiq tapşırıq verilir və bütün tapşırıqları fərdi olaraq yerinə yetirir. Ancaq mütəmadi olaraq bu iş formasından istifadə etmək olmaz, çünki fərdi iş şagirdlərlə fərdi(tək) məşğul olmağı daha ön planda tutur.Nəticədə də şagirdlərdə əməkdaşlıq, ünsiyyət qurma kimi qabiliyyətlərin formalaşmasında çətinlik yaranmış olar.

**Cütlərlə iş—** ən yaxşı iş formasıdır.Şagirdlərin təlim tapşırıqlarının birgə yerinə yetirilməsinə kömək edir.Şagirdlərə daha yaxından əməkdaşlıq etməyə imkan

verir.Şagirdlərin ünsiyyət qurmağına şərait yaradır və qarşılıqlı olaraq bir-birinin işini dəyərləndirməsinə, bir-birini daha yaxşı başa düşməyə kömək edir.

**Qruplarla iş—** Şagirdlərin sərbəst fəaliyyətinə imkan yaradır və idrak fəaliyyətlərini inkişaf etdirir.Qrup işinin müvəffəqiyyətinin hər kəsdən asılılığı şagirdlərin məsuliyyət hissini artırır.Şagirdlərdə özünü idarə qabiliyyətini formalaşdırır və bütün şagirdləri işə cəlb edir. Demokratik münasibətlərin aşılanmasına şərait yaradır, qarşılıqlı nəzarət, yardım, məlumat və fikir mübadiləsi aparılmasına imkan verir.və s.

**Kollektivlə (bütün siniflə) iş—** Bu təlim forması kollektivlə bərabər müzakirələr aparmağa kömək edir.Müzakirə zamanı bir-birini dinləməyinə, bir-birinin fikirlərinə hörmətlə yanaşmağa şərait yaradır.Bütün şagirdləri eyni problemin həllinə cəlb edir.Kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur. Şagirdlərdə ünsiyyət yaratma bacarığının təşəkkülü və inkişafını təmin edir.Hər dərs az da olsa, istifadə olunur.

## 15. TƏLİMİN USULLARI ( İŞ USULLARI)

**PLAN:**

1. **Təqdimat. B.İ.B.Ö.(Bilirəm, İstəyirəm Bilim, Öyrəndim).Beyin həmləsi.(əqli hücum)**
2. **Venn Diaqramı.Debat(çarpaz müzakirə); Söz Assosiasiyaları; Rollu oyunlar.**
3. **Diskusiya; Yazılı Debatlar; Situativ Praktikum ; Modelləşdirmə; İdeyalar xalısı.**
4. **Müzakirə xəritələri; Klaster(şaxələndirmə) ; Ziqzaq (mozaika) ; Esse ; Sorğu vərəqələri və müsahibə.**

Əvvəlki sistemdə(ənənəvi təlim) dərslərin bir cür gedişatı var idi : müəllim sinfə daxil olurdu, keçən dərs nəyi keçdiyini soruşurdu sonra ümumi sorğu – sual aparılırdı, uşaqların bəziləri dərsi çıxıb danışırdı, daha sonra isə yeni dərsin izahı olurdu.Hər gün eyni qaydada bu prosedur davam edirdi.Hal-hazırda isə dərsin gedişatı fərqlidir.Buna şərait yaradan isə təlim üsullarıdır yəni dərsləri bir-birindən fərqləndirəndirən təlim üsulları da mövcuddur.Adlarını çəkəcəyimiz bu təlim üsulları dünyanın digər ölkələrində də tətbiq olunmaqdadır.Hər dərs fərqli təlim üsullarından istifadə etməklə, dərslərinizi bir-birindən fərqləndirə və həmçinin şagirdlərdə də dərsə qarşı maraq yarada bilərsiniz.Təlim metodları müəllim və şagirdlərin təlim vəzifələrinin həllinə yönəlmiş birgə fəaliyyətinin üsullarıdır.Təlim strategiyalarının düzgün qurulmasında təlim üsulları böyük rol

oynayır.Çünki, şagirdlərin qabiliyyətlərini formalaşdırmağa kömək etməklə yanaşı, onların potensial imkanlarını üzə çıxarmağa da kömək edir.Müxtəlif təlim üsulları var : **TƏQDİMAT –** Fərqli və ya qrup şəklində həyata keçirilir.**Prezentasiya üsullarından biridir.**Taksanomiyanın **Bilmə** mərhələsində öz əksini tapır.Təlim zamanı mütamadi istifadə olunan, şagirdin tədqiqat qabiliyyətini formalaşdıran, fəal təlim metodları ilə aparılan dərslərin mühüm elementlərindən olan, şagirdlərə tədqiqatın nəticəsini müxtəlif yollarla təqdim etməsinə və fikirlərini ifadə etməsinə şərait yaradan bir təlim üsuludur.Həm şifahi həm də yazılı təqdim oluna bilər.Bu təlim üsulunun məqsədi: 1.ünsiyyət mədəniyyətini formalaşdırmaq; 2.Təqdimat qaydalarına yiyələnmək; 3. Şagirdlərə fikirlərini ifadə etmək qabiliyyətini və fikir bölüşmə bacarığını aşılamaq; 4. Şagirdlərin tədqiqat nəticəsini müxtəlif yollarla təqdim etməsinə və fikirlərini ifadə etməsinə şərait yaratmaq. Müəllim təqdimat növü və onun keçirilməsi qaydaları barədə şagirdləri təlimatlandırmalıdır.Təqdimat müzakirə olunur və meyar cədvəli əsasında qiymət-ləndirilir.

## BİBÖ( BİLİRƏM,İSTƏYİRƏM BİLİM, ÖYRƏNDİM)

**(cütlərlə, qruplarla, kollektivlə həyata keçirilir)**

**Əqli hücum üsullarından biridir.Strategiya** ilə oxuyan oxucu məqsədləri müəyyənləşdirərkən əsasən **BİBÖ** üsulundan istifadə edir.Bu üsul **motivasiya** mərhələsində istifadə olunur.Problem müəllim tərəfindən elan edilir.Lövhədə 3 hissəli bir cədvəl çəkilir, birinci hissəyə "Bilirəm"sozü, ikinci hissəyə "Bilmək istəyirəm",üçüncü hissəyə isə "Öyrəndim" sözü yazılır.Məsələn deyək ki, İngilis dili dərsində mövzu "Rənglər və mənalarıdır" Müəllim şagirdlərdən soruşur ki, "Hansı rənglərin adını və mənasını deyə bilərsiniz?"Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və lövhəyə gəlib birinci hissədə qeydlərini aparırlar."Bəs hansı rənglərin mənasını bilmək istərdiniz?" sualı ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.Dərsin sonunda isə bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.Başqa misala baxaq: Delfinlər haqqında nə bilirsiniz? Cütlər bu sual ətrafında işləyirlər.Bildiklərini kağıza qeyd edirlər.Həmin vaxt ərzində müəllim aşağıda verilmiş cədvəi yazı taxtasında çəkir. Cütlər verilən sualla əlaqədar müəllimlə öz fikirlərini bölüşürlər.Ümumi razılığa gələrək fikirlər yazı taxtasında cədvələ "Biz nəyi bilirik" sualı altında yazılır.Sonra müəllim yeni sualla şagidlərə müraciət edir.Delfinlər haqqında daha daha nələri bilmək istərdiniz? Şagirdlər yenə də öz aralarında fikir mübadiləsi edir və hər qrup öz fikrini söyləyərək yazı lövhəsindəki cədvəldə qeyd edirlər.

| **BİLDİKLƏRİMİZ** | **İSTƏYİRİK BİLƏK** | **ÖYRƏNDİKLƏRİMİZ** |
|---|---|---|
| **1.**Təlim olunmağa | **1.**Çoxalması haqqında | **1.**Nisbətən şüurludur. |

| | | |
|---|---|---|
| meyillidirlər.<br>2.Məməlilər sinfinə aiddir.<br>3.Xəzər dənizində yaşamır | 2.Daha hansı dənizlərdə yaşayırlar? | |

Deməli,son hissə isə dərsin əvvəlində deyil də, dərsin sonunda doldurulur.İLK iki bölmədə qydiyyat dərsin əvvəlində, sonuncu bölmə isə dərsin ümumiləşdirmə və nəticə mərhələsində aparılır.Üsulun tətbiqinə 10-15 dəqiqə vaxt ayrılır.Bu üsulun əsas məqsədi: 1. Şagirdlərin mövzu barəsindəki əvvəlki təcrübəsini nəzərdən keçirmək; 2. Şagirdin düşünməsini optimallaşdırmaq; 3. Əvvəlki bilik və təcrübə ilə yeni biliklər arasında əlaqə yaratmaq; 4. Bilikləri müqayisə etməyə imkan vermək;
5. Şagirdlərdə idrqk fəallığı yaratmaq; 6. Problemin həlli yollarını araşdırmaq;
7. Məntiqi və tənqidi təfəkkürü inkişaf inkişaf etdirmək; 8. Tədqiqat aparmaq üçün düzgün strategiya müəyyənləşdirmək; 9.Təhlil etmə bacarığı inkişaf etdirmək; 10.Şagirdlərin dərsdəki cavablarına əsasən sualları formalaşdırmağa imkan vermək.Bu üsulun tətbiqi zamanı bu problemlər yarana bilər: **məlumat azlığı, vaxtın uzanması, anlayışın çıtinliyi,.Üsulun tətbiqinə isə 10-15 dəqiqə vaxt ayrılır.**


## BEYİN HƏMLƏSİ (ƏQLİ HÜCUM)

**Əqli hücum üsullarından biridir.**Taksanomoyanın **BİLMƏ mərhələsində öz əksini tapır.**Təfəkkür baxımından Haifizə və yaradıcı təfəkkürə əsaslanır.Dərsin motivasi- ya, ümumiləşdirmə mərhələlərində tətbiq olunur.Motivasiyada ən yaxşı üsul - əqli hücum və ya beyin həmləsidir. "Əqli hücum"- şagirdlərin fəallığının həvəsləndiril- məsi və ideyaların sürətli generasiyası üsuludur.Bu üsuldan konkret problemin həlli, ya da yeni mövzunun öyrənilməsi zamanı suala cavab axtarmaq üçün istifadə oluna bilər.Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır.Şagirdlər suallara əsasən fikirlərini bildirirlər.İlk ağıl gələn və söylənilən bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır.Müəllim mümkün qədər çox fikir toplamağa çalışır. Aparıcı **ideyalar** müəllim tərəfindən yekunlaşdırılır, şagirdlər artıq söylənilmiş ideyaları tənqadi baxımdanmtəhlil edir, qiymətləndirir, mübahisə və əks – müsahibə aparır.Şagirdlər müzakirə olunan problemin mümkün həlli üçün orjinal və ən yaxın ideyaları seçirlər.Bu ideyalardan irəli gələn mümkün risk və ziddiyyətlər barəsində sərbəst müzakirə edirlər.Bu üsul demək olar ki,hər dərs istifadə olunur.Bu üsulu tətbiq edən zaman "Əqli hücumun" hansı problem üzrə aparılacağını qərarlaşdırın.Onu müxtəlif cavabları ola biləcək sual şəklində foprmalaşdırın.Şagirdlərdən öz ideyalarını bildirməyi xahiş edin.Şagirdlərə izah edin ki, onlar bir-birinin ideyalarını şərh edə, ya da artıq səslənmiş ideyaları təkrarlaya bilməzlər.Şagirdləri fəallığa həvəsləndirin, lakin onları ideyalarını bildirməyə məcbur etməyin.İdeyalalar tükənəndə "əqli

hücumu”dayandırın, bütün təklifləri nəzərdən keçirin və şagirdlərdən xahiş edin ki, onların şərhini versinlər.Bütün ideyaları şərh etdikdən sonra müəllim şagirdlərin iştirakı ilə bunları mühümlüyünə görə sıralayır ki, qoyulmuş sualın, yaxud problemin həllinə kömək edən ideyaları seçmək mümkün olsun.Bu üsulun əsas məqsədi:-.Problemin həlli yollarını araşdırmaq; -şagirdlərdə özünəinam hissini stimullaşdırmaq; -şagirdlərdə məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirmək; -şagirdlərdə yeni mövzuya maraq oyatmaq; - müstəqil düşüncəni inkişaf etdirmək; -şagirdlərin sərbəstliyini; fikir azadlığını inkişaf etdirmək; -daha səmərəli həll yolu tapılması ilə bağlı qərarlar qəbul etmək qabiliyyətini inkişaf etdirmək; -şagirdlərin nəyi yaxşı, nəyi pis bildiklərini aydınlaşdırmaq.Üslubun tətbiqinə 10-15 dəqiqə vaxt ayrılır.

**VENN DİAQRAMI**

**(**Cütlərlə, qrupla, bütün siniflə həyata keçirilir**).**Tədqiqat aparılması üsullarından biridir.Dərsin **motivasiya, tədqiqat, ümumiləşdirmə, tətbiqetmə mərhələlərində** tətbiq olunur.Müqayisə olunacaq əşya və ya hadisələr müəyyənləşdirilir.Kəsişən dairələr çəkilir( ortada yazmaq üçün yer saxlanılır). Birinci və üçüncü dairədə müqayisə olunacaq obyektlər qeyd olunur. Şagirdlər təlimatlandırılır(təlimatda) nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır.Müqayisə olunan obyektlər təsvir edilir: fərqli cəhətlər sağ və sol tərəfdə (kənarlarda )oxşar cəhətlər isə kəsişmə dairəsində (orta hissədə) qeyd olunur.Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.Bu üsulun əsas məqsədi: **-əşya və ya hadisələri müqayisə etmək, - onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, - təhlil prosesini inkişaf etdirmək, - problemin həlli yollarını araşdırmaq, - bilikləri aktuallaşdırmaq, - şagirdlərdə idrak fəallığı yaratmaq, - şagirdlərdə məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirmək, - təhlil etmə bacarığını inkişaf etdirmək, - qiymətləndirmə prosesini inkişaf etdirmək.**
**Məsələn, Nizami Gəncəvi ilə Məhsəti Gəncəvinin oxşar və fərqli cəhətlərini VENN diaqramında qeyd edə bilərik.Bu üsulun tətbiqi zamanı bu problemlər yarana bilər: məlumat azlığı, vaxtın uzanması, anlayışın çətinliyi.**Üsulun tətbiqinə 10-15 dəqiqə vaxt ayrılır.



Yaz və yay fəslinə məxsus olan xüsusiyyətlərin müqayisə edilməsini müəllim tapşırıq olaraq şagirdlərə verir.Nəticə aşağıdakı kimi olur.Şagird dairələri aşağıdakı qarşılıqla tamamlayır.

1. **Yazda ağaclar çiçəkləyir---------- Yayda havalar isti olur.**
2. **Yazda yağışlar yağır ---------- Meyvələr yetişir.**
3. **Havalar sərinləşir----------İnsanlar istirahətə gedirlər.**

Əslində isə diqqət edilməlidir ki, Yazda ağaclar çiçəkləyirin qarşılığına yayda isə meyvələr yetişir yazılmalı....Yazda havalar sərinləşirin qarşılığına yayda havalar isti olur və insanlar istirahətə gedir yazıla bilər. Bu zaman müqayisə baş tutacaq.

**DEBAT (çarpaz müzakirə)-** cütlərlə, qrupla həyata keçirilir.Müzakirə üsullarından biridir.Taksanomiyanın analiz mərhələsində öz əksini tapır.Təfəkkür baxımından isə Tənqidi təfəkkürə əsaslanır. Müzakirə, mübahisə, mübadilə kimi məlum formalardan fərqli olaraq debatlar opponenti( fikrə etiraz edən tərəf) deyil, inandırma prosesini nəzərdə tutur.Beləliklə debatlarda iştirak edən tərəflərin əsas məqsədi öz dəlil və sübutlarının köməyilə tərəfləri öz mövqeyinin düzgünlüyünə inandırmaqdır.Debatlarda mövzu ya təsdiq ya da təkzib( inkar) formasında olur.Deməli, bir tərəf təsdiqedici, digər tərəf isə təkzibedici mövqedə çıxış edir.**Ziddiyyətli** mövzu ifadə edilən zaman bu prinsiplərə riayət olunmalıdır: mövzu aktual"münaqişəli" və maraqlı olmalıdır, mövzu elə ifadə edilməlidir ki, heç bir mövzunun üstünlüyü hiss edilməsin, yəni elə bir problem qoyulmalıdır ki, sinifdə fərqli fikirlər yaransın.Mövzu nə çox məhdud nə də çox geniş olmamalıdır.Hər qrupa 7- 8 dəqiqə vaxt ayrılır.Bütün qruplar dinlənilir, bir- birinə suallar ünvanlayır. Bu üsulun əsas məqsədi :**dəlil və sübutların koməyi ilə üçüncü tərəfi öz mövqeyi nin düzgünlüyünə inandırmaq; müzakirə bacarıqlarını**
**formalaşdırmaq; problemin həlli yollarını araşdırmaq; şifahi nitqi inkişaf etdirmək; dinləmə mədəniyyətini formalaşdırmaq; mənbələrlə işləmək bacarıqlarını formalaşdırmaq.**

**ŞƏRTLƏR: Qrupda şagirdlərin sayı 20 nəfərdən çox olmamalıdır.Mövzu elə ifadə edilməlidir ki, heç kəs bir mövqeyin üstünlüyünü hiss etməsin.**

**Söz Assosiasiyaları( bütün siniflə həyata keçirilir).**Əqli hücum üsullarından biridir. Təfəkkür baxımından isə hafizəyə əsaslanır.Dərsin **mötivasiya, ümumiləşdirmə, mərhələlərində** tətbiq olunur.Bu esuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz(və ya söz birləşmələri) lövhəyə yazılır.Şagirdlər həmin söz ilə bağlı ilk
xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan **anlayış və ya ideya** çıxarılır.Bu anlayışlar əsasında yeni materialın öyrənilməsinə başlanılır.Bu üsul həm də **şifahi** formada tətbiq oluna bilər.Bu

üsuldan həm mövzunun əvvəlində həm də sonunda istifadə olunur.Nümunə: müəllim sözü qeyd edir, məsələn dairədə"Ailə" yazaraq şagirdlərdən soruşur"Uşaqlar, ailə haqqında nələri söyləyə bilərsiniz?"Şagirdlərdə gəlib lazımi əlamətləri yazırlar.Hər kəs öz fikrini bildirir.Nəticədə döğru fikirlər çıxarılır.Bu üsulun məqsədi: **-təhliletmə bacarıqlarını və təhlil proseslərini inkişaf etdirmək; - şagirdlərdə idrak fəallığı yaratmaq; - mövzunu öyrənməyə başlayarkən**
**mövzunun sonunda şagirdlərin yeni öyrəndiklərini aşkara çıxarmaq; -cisim vəya hadisənin xüsusiyyətini müəyyənləşdirmək.Üsulun tətbiqinə isə 5-7 dəqiqə vaxt ayrılır.**

**ROLLU OYUNLAR – (**kiçik və böyük qruplarla həyata keçirilir).Taksanomiyanın **Tətbiq** mərhələsində öz əksini tapır. Təfəkkür baxımından isə Tənqidi və yaradıcı təfəkkürə əsaslanır.Dərsin motivasiya və ümumiləşdirmə mərhələsində tətbiq olunur.Oyunlar daha maraqlı və səmərəli iş formasıdır.Bunun məqsədi təlim materialının qavranılmasını və dərk edilməsini asanlıaşdırmaq, şagirdləri real təhsildə və həyatda baş verən vəziyyətlərə hazırlamaqdır.Qeyri-müəyyənlik şəraitində, yaradıcılıq fəaliyyətində, real mühütin əsas cəhətlərinin təxəyyüldə
yaradıldığı vəziyyətdə qərar qəbul etməyi öyrətmək üçün oyundan istifadə olunur. Rollu oyunlar hər hansı problemə müxtəlif nöqteyi – nəzərdən yanaşmağı, müxtəlif rollara girməyi tələb edir.Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir.Müəllim əvvəlcə-dən situasiya fikirləşib tapır, sinif otağını hazırlayır.Oyunun iştirakçılarını ehtiyatla və ustalıqla seçmək lazımdır.Rolun ifası zamanı münaqişələrin yaranmasına yol verilməməlidir.Rollar qısa olmalı, sadə dildə yazılmalıdır.Müəllim sinfi öz rollarını ifa edən bir neçə qrupa bölə, ya da bir qrupa oynamağı, qalanlarına isə aktyorların oyununu müşahidə etməyi tapşıra bilər.Oyunun sonunda şagirdləri ustalıqla rollarından "çıxarmaq" vacibdir.Xeyli maraqlı və əyləncəli olan bu metodik üsul digər fəal üsullardan fərqli olan əlavə imkanlar yaradır.Şagirdin bu oyundan əldə etdiyi keyfiyyət – **emosional təəssüratdır.**Bu metod şagirdlərin yalnız birbaşa təcrübəsindən deyil, həm də simulyasiya edilmiş təcrübədən öyrənə bilməsinə əsaslanır.**Simulyasiya -** immitasiya, təqlid etmək, fəaliyyət və hadisələri yalandan yaratmaq deməkdir.Hətta oyun arzuedilməz istiqamətdə getdikdə də oyunu baş tytmuş hesab etmək olmaz.BU üsulun əsas məqsədi: **problemə digər adamın gözü ilə baxmağa imkan verir; -rola girmək bacarıqlarını formalaşdırır və həmin rolu ifadə etmək bacarığını inkişaf etdirir; - yeni davranış modellərinə yiyələnməyə imkan verir; - əməkdaşlığı, tolerantlığı inkişaf etdirir; -qarşılıqlı ünsiyyəti yaradır və formalaşdırır və s.** Bu üsulun tətbiqi zamanı bu problemlər yarana bilər: rola girmək problemi ( utancaqlıq), soz ehtiyatının azlığı, yaradıcı yanaşılmaması, zəif təşkilatçılıq.**Diskusiya. (bütün siniflə və qruplarla həyata keçirilir).**Müzakirə üsullarından biridir.Taksanomiyanın **ANLAMA** mərhələsində öz əksini tapır.Təfəkk

–ür baxımından isə Məntiqi və Tənqidi təfəkkürə əsaslanır.Dərsin müzakirə mərhələsində tətbiq olunsada problemin həlli yollarının axtarılması, təhlili, nəticələrin çıxarılması dərsin digər mərhələlərini də əhatə edir.Sülh mədəniyyəti və münaqişələrin həlli üzrə təlimin ən mühüm metodik üsullarından biridir.Bu üsul onların qoyulmuşproblemlərə və suallara münasibətini öyrənməyə imkan verir.Şagirdlər verilmiş mövzunu 10 – 20 dəqiqə ərzində müzakirə edirlər.Bu üsul həm də müəllimin tələbi olmadan fikir mübadiləsinə kömək edir, dinləmək,növbə ilə danışmaq, tolerantlıq nümayiş etdirmək bacarıqlarını inkişaf etdirir.Başlanğıcda şagirdlərə diskusiyanın aparılmasının əvvəlcədən tərtib edilən əsas qaydalarını xatırlatmaq yaxşı olar: **danışanı dinləmək; eyni vaxtda yalnız bir adam danışa bilər; Çıxış etmək istəyi varsa, əlini qaldırmalıdır; danışanın sözünü kəsməmək; tənqid edəndə danışanı deyil, fikri tənqid etmək; heç kəsi məsxərəyə**
**qoymamaq; sözü demək istədildə əl qaldırmaq v. s.**Müəllim keçiriləcək diskussiyanın mövzusunu əvvəlcədən elan edir. Şagirdləri yarımdairəvi və ya dairəvi otuzdurur.Müəllim diskusiyanın gedişinə qarışmır, sonda isə yekun vurur.Bu üsulun məqsədi: **problemin müzakirəsində irəliləmək; - düzgün diskusiya vərdişlərini inkişaf və nümayiş etdirmək; - sinifdə demokratik mühit yaratmaq; müzakirə bacarıqlarını formalaşdırmaq; şifahi nitqi inkişaf etdirmək; - razılığa gəlməyə nail olmaq; - dinləmə mədəniyyətini formalaşdırmaq və s.**
Üsulun tətbiqinə sərf olunan vaxtı müəllim müəyyənləşdirir.

**Yazılı debatlar.**(cütlərlə və qruplarla həyata keçirilir).Debatlar şagirdləri həyacan-landıran, xarakterli, mübahisəli mövzular üzrə planlaşdırılmış xüsusi dialoqdur. Debatların məqsədi **öz mövqeyini, nöqteyi- nəzərini dəlil-subutlu şəkildə, sakitcəsinə müdafiə etməyi şagirdlərə öyrətməkdir.**Debatların aparılmasının 2 forması mövcuddur: **ŞİFAHİ VƏ YAZILI.**Yazılı debatlar – tərəflər arasında yazılı dialoq formasıdır.Debatlar A-4(albom) və A- 1(vatman) vərəqlərində, xüsusi forma üzrə keçirilir.Debatlar zamanı şagirdlər yalnız öz dəlillərini təqdim etmir, həm də digər tərəfin dəlillərinə cavab verirlər.Tətbiq etmə qaydası : 1. Müəllim şagirdlərə debatların necə keçirildiyini izah edir.2. Şagirdlər debatın keçiriləcəyi mövzu ilə əvvəlcədən tanış olurlar.3. Sinif ya cütlüklərə, ya da cüt saylı qruplara, məsələn, hərəsində üç şagird olmaqla 8, yaxud 10 qrupa bölünür.4. Sinif otağının hər iki tərəfində əyləşmiş qruplar iki-iki yazılı dialoqa başlayırlar.Birinci qrupdan olan şagirdlərə dəlilinin formalaşdırılması üçün 5 dəqiqə vaxt verilirHəmin dəlil kağız vərəqinə yazılır.5. Sonra vərəqələr opponentlərə ötürülür və onlara öz tərəf müqabillərinin dəlillərinə cavablarını förmalaşdırmağa və yazmağa, eləcədə öz əks dəlillərini şərh etməyə 8 dəqiqə vaxt ayırır.6.Bu cür mübadilə 2-3 dəfə təkraralanır, özü də bu zaman hər şagird mütlıq tərəf – müqabilinin dəlilinə cavab verməli və öz dəlilini də buraya əlavə etməlidir.Adətən 3-4 raund kifayət edir.Sonuncu raundda şagirdlərə nəticəni yazmaq imkanı verilir.Bundan sonra işlər

yığılır.Yekunlaşdırmanın ən yaxşı forması hər iki tərəfə ünvanlanmış aşağıdakı sual ola bilərdi: “Rəqibin ən yaxşı dəlilləri hansılar idi?

**SİTUATİV PRAKTİKUM (qruplarla həyata keçirilir).**Konkret hadisənin tədqiqini əhatə edən üsuldur. Tədqiqat və nəticələrin çıxarılması mərhələsində tətbiq olunur.Təfəkkür baxımından isə Məntiqi təfəkkürə əsaslanır. Məqsəd: **konkret hadisənin tədqiqi, səbəblərinin araşdırılması, hadisənin təhlili, qavranılması, hadisədə baş verən problemlərin həlli yollaının axtarılması, səhvlərin müəyyənləşdirilməsi və həlli vasitəsilə tənqidi təfəkkürü stimullaşdıran tədqiqata əsaslanmış bir üsuldur.** Problemin həllində aktiv və səmərəli iştirak etmək ideyasını vurğulamaq üçün real situasiyalardan istifadə olunur.Müəllim şagirdlərə həyatda tez-tez baş verən maraqlı situasiyaları və ya sinifdə ciddi müzakirəyə ehtiyacı olan problemləri nəzərdən keçirməyi təklif edə bilər.Bu usulun vasitəsilə aşağıdakı bacarıqların formalaşdırılmasına nail olunur: Hadisənin səmərəli həlli yollarını araşdırmaq ; Məntiqi və tənqidi təfəkkürü inkişaf etdirmək;təhlil etmək , səhvləri müəyyənləşdirmək; Tədqiqatçı bacarıqlarını araşdırmaq; Məlumatı sistemləşdirmək; Nəticə çıxarmaq və əsaslandırmaq.

Müəllim tərəfindən hadisə seçilir və nəzərdən keçirilən problemə dair situativ praktikum hazırlanır.O hər hansı bir problemli vəziyyətə dair müzakirə üçün məqsədyönlü sualları öncədən düşünməli və hazırlamalıdır.Şagirdləri hər biri 4-5 nəfərdən ibarət qruplara bölürlər.Hər qrup təklif olunan vəziyyətlərdən birini müzakirə etməlidir.Şagirdlər hadisəni tədqiq edir və öz münasibətlərini bildirirlər. Şagirdlərə kömək etmək üçün aşağıdakı sualları verin: **Nə baş verdi? Mühüm elementlər hansılar idi? Faktların təqdimatında çatışmayan bir şey var idimi? Nə üçün maraqlı tərəflər bu cür hərəkət edirlər?.**Bu mərhələdə iştirakçılar öz şəxsi və subyektiv qavrayışlarına əsasən həll yollarını ifadə edirlər.Şagirdlərdən ilk təəssüratlarını söyləməyi xahiş edin.Müəllim konkret hadisəyə yenidən qayıdır, poblemlə bağlı bütün məlumatları nəzərdən keçirir , onu konsepləşdirir, qaydaya salır və sistemləşdirir.Hadisənin həlli yolunda meydana çıxan lehinə\ əleyhinə olan arqumentlərə münasibəti aydınlaşdırır.Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə başlanır.Sonda şagirdlər hadisənin həlli üzrə son qərar verirlər, başqa situasiyalar üçün də yararlı olan nəticələrə gəlirlər.**Şərtlər:** Auditoriyanın bilik səviyyəsi( hadisə haqqında məlumat); Vaxt 35 dəqiqə; **Vasitələr:** Lövhə, iş vərəqələri, kağız, flamaster, video, televizor(motivasiya mərhələsi üçün); **Yarana biləcək problemlər:** Hamının iştirak etməməsi; Arqumentlərin inandırıcı olmaması Arqumentlərin qanunlara əsaslanmaması; Düzgün nəticə çıxarılmaması.**MODELLƏŞDİRMƏ** – ciddi problem qoyan hər hansı bir mücərrəd vəya uydurma hadisənin canlandırılması və bunun vasitəsilə problemin həllidir.Bu hadisə çox zaman real həyatda baş verən hadisənin sadələşdirilmiş lakin canlı nümunəsi olur.Problemi həll etmək üçün iştirakçılar həyatda və bu hadisədə rast

gəldikləri müəyyən rolları ifa edirlər.Lakin rolların ifası tam sərbəstdir və onun nəticəsində alınan problemin həllini heç kəs əvvəlcədən proqnozlaşdıra bilmir. Nəticələr rolun ifasından asılıdır.Modelləşdirmə zamanı şagirdlərə bu rolun ifasında öz nöqteyi-nəzərindən çıxış etməyə icazə verilir.Taksanomioyanın Analiz mərhələsində öz əksini tapır.Təfəkkür baxımından isə hər üç növə -Məntiqi, Tənqidi və Yaradıcı təfəkkürə əsaslanır.**Məqsəd:**Yaradıcı qabiliyyətləri və təxəyyülü inkişaf etdirmək üçün şagirdləri zəruri əsaslarla təchiz etmək; Cütlük şəklində öz baxışlarını və dəyərlərini müzakirə etmək üçün şagirdlərə sərbəst diskusiya təklif etmək; Şagirdləri problemi tapmağa və onu real həyatı modelləşdirən şəraitdə həll etməyə həvəsləndirmək;Şagirdlərə təhlil aparmaq və alternativ hərəkətləri qiymətləndirmək bacarığını aşılamaq; Şagirdləri ictimai və ya qrup fəaliyyətinin tərkib hissəsi olan qərarların qəbul edilməsi prosesinə cəlb etmək; Modelləşdirməni əyləncəli və maraqlıə edən onun qeyri müəyyənliyi, məchulluğudur, çünki ən yaxşı haldada nəticələri qabaqcadan yalnız qismən müəyyən etmək olur.Məhz bu bilinməzlik əsl həyata daha çox oxşayır, onu daha çox xatırladır ki, bu da nəticələri qəti müəyyən edilmiş tamaşalar və ya oyunlarla müqayisədə modelləşdirmənin xeyrinə çox əsaslı dəlil ola bilərGöründüyü kimi bu üsul əksər xüsusiyyətlərinə görə rollu oyunlara bənzəyir.Fərq ondan ibarətdir ki, rollu oyunlarda oyunun məzmunu, gedişatı və nəticə əvvəlcədən hər kəsə aydın olur.Modelləşdirmə digər üsullardan daha sərbəstdir, belə ki, heç kəs əsl həqiqətdə son nəticəni görə bilmir, heç kəs deyə bilməz ki, əhvalat nə ilə bitəcək. Çünki son nəticə əsasən rolların necə oynanılacağından asılıdır.

**(Məsələn,yoldaşınızla birlikdə yolda gedərkən iki şəxsin yol kənarında ağacları qırdığını,ağaclara zərər verdiyini görürsünüz.Həmin situasiyanı şagirdlər canlandırır, yəni nə edəcəklərinə, necə davranacaqlarına özləri qərar verir.)**

**MÜZAKİRƏ XƏRİTƏLƏRİ (**cütlərlə və bütün siniflə həyata keçirilir).**MƏQSƏD:** Bu metoddan daha çox humanitar fənlərdə istifadə edilir.Müzakirə xəritəsi debat üçün hazırlıq rolunu oynaya bilər.Arqumentin təhlili şagirdlərə müzakirə olunan məsələ barəsindəki mövqeləri haqqında düşünmək imkanı verir.Alqoritm: Mövzunu müəyyənləşdirmək; Mövzu ziddiyyətli yanaşmalardan istifadə etməyə imkan verməlidir.Mövzuya dair problemin üzə çıxarılması, ziddiyyətli sualın qoyulması; mövqelərin müəyyənləşdirilməsi( fərsi);mövqelərin təsdiqi(mənbələrlə iş, arqumentlərin, nfakt və sübutların tapılması; Uyğun mövqelərin cütlükdə birləşdirilməsi, arqumentlərin təhlili, oxşar və fərqlərin üzə çıxarılması.Şagirdlər cüt-cüt işləyərək iki ən uzun lehinə və əlehinə siyahısı tərtib edir.Hər bir cüt başqa bir cütlə birləşərək siyahıdakıbəndləri bir-birinə əlavə edirlər; problemə dair mövqelərin dinləmilməsi(siniflər);Müzakirələrin aparılması; qərarın qəbul ediməsi; Ümumiləşdirmə; **ŞƏRTLƏR**: Auditoriyanın səviyyəsi: bilik dairəsi; Mənbələrlə işləmək bacarığı; Müzakirə, dinləmə bacarığı, Tədqiqat aparmaq bacarığı;

Problemin düzgün qoyulması;Problemin aktuallığı; Şagirdlərin cəlb olunması; Problemin həll oluna bilən olması; Şagirdlərin mövqeləri qısa,konkret, məntiqi çatdıra bilməsi.**Vasitələr:** kağız,marker, məlumat mənbəyi.**Yarana biləcək problemlər:** Ünsiyyət ilə bağlı problemlər( bir-birini dinləmək, şəxsi rəqabətin işə təsiri və s.)Müzakirənin uzanması,artıq səs –küy, aqressivlik, Tolerantlığın olmaması, Şagirdlərdə mövzu ilə bağlı məlumatın azlığı,Düzgün nəticənin çıxarılması çətininliyi.**KLASTER(şaxələndirmə) –**Fərdi, cütlərlə və qruplarla keçirilir. Bu üsul taksanomiyanın Bilmə mərhələsində öz əksini tapır.Təfəkkür baxımından isə Hafizəyə əsaslanır.**Klaster** hər hansı bir mövzu və ya fikrin mümkün qədər açılmasına, şagirdlərin bu ətrafda geniş, sərbəst düşünməsinə şərait yaradan
metoddur.Şaxələndirmə strategiyasından həm düşünməyə yönəltmə, həm də düşünmə mərhələsində istifadə etmək olar.Dərsin əvvəlində, mövzu ətraflı öyrənilməmişdən qabaq şagirdlərin fikrini cəmləşdirmək və əvvəlki biliklərini yada salmaq üçün istifadə oluna bilər.Bu metodun tətbiqi zamanı **fikirdən-fikir,** mövzusundan mövzu doğur, yeni assosiasiyaların yaranması imkanı genişlənir. Onun tətbiqi çox sadə və yadda qalandır.Şaxələndirməni həyata keçirmək üçün:

1.İri ağ kağız götürülür. 2.Kağızın mərkəzində söz, hər hansı fənnə aid termin, cümlə və s.yazılır. 3.Həmin sözdən şaxələr ayrılır və yeni fikirlər yazılır.Bu üsulun əsas məqsədi: **- şagirdləri mövzu ətrafında açıq və sərbəst düşünməyə sövq etmək; - verilmiş əsas anlayışa aid şagirdləri bacardıqları qədər söz assosiasiyaları tapmağa və ideyalar arasında əlaqələr barədə düşündürmək;- şagirdləri mövzu barəsindəki əvvəlki biliklərini nəzərdən keçirmək, yeni assosiasiyaları stimullaşdırmaq, bilikləri sistemləşdirmək və əhatə dairəsini genişləndirməyə istiqamətləndirmək; lüğət tərkibini zənginləşdkirmək.**
**ZİQZAQ (mozaika).**Kiçik qruplarla həyata keçirilir. Təşkilatı üsul növüdür.Dərsin tədqiqat mərhələsində tətbiq olunur.Bu üsulun əsas məqsədi: **- iri həcmli mətnlərin qısa müddət ərzində öyrənilməsinə imkan yaradır; - qısa vaxt ərzində interaktiv şəkildə mövzusunu əhatəli keçməyə imkan verir; - hər bir şagird bütün məsələlərin həllində iştirak edir; - məntiqi , tənqidi və müstəqil düşünməni**
**inkişaf etdirir; -fərdi və qrup məsuliyyətini inkişaf etdirir; -ünsiyyət və qrupdaxili qarşılıqlı əlaqə hisslərini inkişaf etdirir.**Əvvəlcə şagirdləri dörd nəfərlik qruplara bölün.Qruplar müəyyənləşdikdən sonra hər bir qrupdakı şagirdlərə təklif edin ki, hərəsi bir rəqəm söyləməklə 1-dən 4-ə qədər saysınlar.Beləliklə, hər bir kəsin söylədiyi rəqəm onun nömrəsi olacaqdır.Sonra şagirdlərə mətn verilir.İzah edilir ki,mətni araşdırmaq, məzmunu dərk etmək və məğzinə varmaq
lazımdır.Şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, mətn 4 hissəyə bölünmüşdür. Hər bir qrupdakı 1 nömrəli iştirakçı birinci hissə, 2 nömrəli iştirakçı ikinci hissə, 3nömrəli iştirakçı üçüncü, 4 nömrəli iştirakçı dördüncü hissə üçün cavabdeh olacaqlar.Bu qaydanı izah etdikdən sonra şagirdlərdən eyni nömrəli olan

iştirakçıların bir yerə toplanması təlimatı verilir.Eyni nömrəli iştirakçılardan təşkil olunmuş qruplar indi ekspert qrupları adlanır, onların vəzifəsi, mətnin öhdələrinə düşən hissəsinin materialını diqqətlə öyrənməkdən ibarətdir.Onlar həmin hissəni oxumalı, məzmununu müzakirə etməli və materialı lazımınca qavramalıdırlar. Ekspert qrupların hər bir üzvü öyrəndiyi hissənin materialını dərsin əvvəlində yaranmış qrupun üzvlərinə izah etməlidir.Şagirdlərə çatdırmaq lazımdır ki, sonradan onların bəzilərinə öyrəndikləri hissəni bütün sinfə izah etmək təklif olunacaq.Ekspert qruplarının işi başa çatdıqdan sonra, onlar öz əvvəlki qruplarına qayıdıb materialın məzmununu həmkarlarına izah edirlər.Şagirdlər bilməlidirlər ki, yekunda bütün qrup üzvlərinin materialın məzmununu tam mənimsəmələri zəruridir.Bu metoddan istifadə zamanı müəllim əvvəlcədən mövzunu 4 hissəyə (hissəyə ayırmaq qrupların sayından asılıdır).ayırır.Məsələn, mövzu: Azərbaycan. Bu zaman onun coğrafi mövqeyi və təbii şərait – **birinci; relyefi, ikinci; iqlimi və daxili sualları- üçüncü; - əhalisi və nəqliyyatı,- dordüncü ekspert qrupuna tapşırılır.**Hər ekspert qrupu ona düşən hissəni öyrənir, müzakirə edir, sonra əvvəlki qruplara qaqyıdır, orada öyrəndikləri hissəni qrup üzvılərinə izah edirlər. İlkin qrup üzvləri qeydlər etməli, meydana çıxan sualları yazmalı, sonra bu suallar hər bir hissə üçün məsul olan ekspertlərə ünvanmalıdır.Üsulun gedişatında hansı bu problemlər yarana bilər: vaxtın uzanması, məlumat azlığı, çətinliyi, zəif təşkilatçılıq və s.**SORĞU VƏRƏQƏLƏRİ VƏ MÜSAHİBƏ.**Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimayi rəyini öyrənmək məqsədilə aparılır.Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur.Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur.

Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır. Bu üsuldan istifadə edərkən aşağıdakı mərhələlərin gözlənilməsi məqsədə müvafiq hesab edilir: **-problemi müəyyən etmək; - İşi təşkil etmək(sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq); -məlumatları toplamaq(sualların cavablarını toplamaq); - əldə olunmuş məlumatları təhlil etmək və ümumuləşdirmək.**

**İDEYALAR XALISI –** Tədqiqat üsullarından biridir.Tədqiqat və nəticələrin çıxarılması mərhələlərində tətbiq olunur.Bu üsulun əsas məqsədi: **- müəyyən olunmuş problemi, onun səbəblərini, səmərəli həlli yollarını axtarmaq; - diskusiya vərdişlərini formalaşdırmaq; - problemin müzakirəsi zamanı başqalarının fikirlərindən yararlanaraq yeniliklər öyrənmək, problemin həllində irəliləmək və s.**Bu üsulu tətbiq edərkən müəllim şagirdləri 4-5 nəfərlik qruplara bölür.Dərsin əvvəlində və ya bir gün əvvəl müəllim araşdırılacaq mövzunu elan edir.Müəllim hər qrupa vatman kağızı, rəngli kağız zolaqlar, yapışqan və marker paylayır.Müəyyən olunmuş problemin səbəbləri həmin rəngli kağızlarda yazılır və vatman kağızına yapışdırılır.Daha sonra fikirlər qrup tərəfindən təqdim olunur.Növbəti mərhələdə isə müəllim şagirdlərə başqa rəngdə kağız zolaqlar

paylayır və əvvəl yazdıqları problemin həlli yollarını yazmağı tapşırır.Həmin kağızlar da vatman kağızına yapışdırılır.Daha sonra müəllim şagirdlərə yapışqan kağızlar paylayır.Bu dəfə isə şagirdlər problemin həlli üçün bu ana qədər özlərinin hansı hansı addım atdıqlarını və ya problemin həlli üçün nələri etməyə hazır olduqlarını yazılır.Sonra bu kağızlar lövhədən asılır və fikirlər təhlil olunur.Mövzu ilə bağlı ümumi müzakirə aparıldıqdan sonra nəticə çıxarılır.Bu üsulun tətbiqi zamanı qrup işlərinin tərtibatı önəmlidir.Tərtib olunmuş iş rəngarəng ideyalar
xalısına bənzəməlidir.**ESSE** –prezentasiya təlim üsullarına aiddir.Kiçik və orta həcmdə olan, bir çox elmi sahəyə müraciət olunan nəsr janrıdır.ESSE fransız sözu olub, mənası sınaq, təcrübə, oçerk deməkdir.Tənqid və ədəbiyyatşünaslığın müəyyən bir problemi sərbəst surətdə izah etməsi ilə fərqlənən janrıdır.Daha çox ədəbiyyatda istifadə olunur.ESSEDƏ məqsəddəki fikri bildirmək üçün fəlsəfi ifadə, yanaşma, təhlildən istifadə edilir.Ədəbiyyatşünaslıq, avtobioqrafik, bioqrafiq məqalələr, psixoloji, tarixi, politoloji, siyasi və başqa təhlillər əsasən **esse janrı** üzərində qurulmuşdur.**ESSE** problemin sərbəst şəkildə qoyuluşudur.Essenin müəllifi seçdiyi problemi (ədəbi, etik, fəlsəfi, və s.) təhlil və izah edərkən ifadə tərzinin sistemli, ardıcıl, gəldiyi nəticələrin əsası, hamı üçün eyni dərəcədə məqbul olması qayğısına qalmır.Essenin əsasını fransız yazıçısı və humanist filosofu M.Monten qoymuşdur.Esse hər hansı problem haqqında şagirdlərin müstəqil düşüncələrini əks etdirən yazılı işdir," etud"dur.Essenin həcmi bir səhifədən çox olmamçalıdır. Bir növ inşanın müasir versiyası da deyə bilərik. İnşadan fərqi isə həm həcmi, həm də məzmununun konkret bir suala şamil olunmasıdır.

| **ÜSULLAR(METODLAR)** | **TEXNİKA VƏ VASİTƏLƏR** |
|---|---|
| **1. BEYİN HƏMLƏSİ** | **1.** Beyin həmləsi və ya Əqli hücum.<br>**2.** BİBÖ.(KWL)<br>**3.** Auksion(auction)<br>**4.** Klaster(şaxələndirmə)(cluster)<br>**5.** Suallar (Questioning)<br>**6.** Anlayışların çıxarılması.<br>**7.** Söz assosiasiyaları<br>**8.** Sinektika. |
| **2. Müzakiələr** | **1.** Diskusiya<br>**2.** Debatlar.<br>**3.** Müzakirə xəritələri<br>**4.** Sokrat dialoqu<br>**5.** Akvarium<br>**6.** Açıq iclas<br>**7.** Dairəvi müzakirə |
| **3. ROLLU OYUNLAR.** | **1.** Rollu oyun. |

| | |
|---|---|
| | 2. Modelləşdirmə<br>3. Işgüzar oyunlar<br>4. Səhnələşdirmə |
| **4. TƏQDİMATLAR.** | 1. Təqdimatlar<br>2. Ekspert qrupu<br>3. Esse |
| **5. TƏDQİQATIN APARILMASI** | 1. Problemin həlli<br>2. Klublaşdırma<br>3. Konkret hadisənin araşdırılması<br>4. Venn diaqramı<br>5. Layihələrin hazırlanması<br>6. Sorğu vərəqləri<br>7. Müsahibə<br>8. Qərarlar ağacı<br>9. Ideyalar xalısı<br>10. Refleksiya |
| **6. MƏNTİQİ TƏFƏKKÜR PROSESLƏRİNİN İNKİŞAFINA YÖNƏLDİMİŞ METODLAR** | 1. Alqoritmin çıxarılması-analizdən sintezə<br>2. Tapşırıqlar qrupu üçün sujet əsasının yaradılması<br>3. Qaydalara əsasən oyunlar: oyun-tapmaca,oyun-yarış<br>4. Alqoritim üzrə təsvir(zəncirlər) |
| **7. TƏNQİDİ TƏFƏKKÜR PROSESLƏRİNİN İNKİŞAFINA YÖNƏLDİLMİŞ METODLAR** | 1. Meyar üzrə qiymərləndirmə<br>2. Ambivalent qiymətləndirmə<br>3. Cisim və ya hadisəyə müxtəlif nöqteyi nəzərdən baxılması |
| **8. YARADICILIĞA YÖNƏLDİLMİŞ METODLAR** | 1. Yaradıcı əsərlərin yaradılması<br>2. əşyaların qeyri-adi ifadəsi<br>3. proqnozlaşdırma<br>4. Atalar sozləri üzrə iş |

| | |
|---|---|
| | **5.** Fantaziyaların binomu<br>**6.** Sərbəst prefiks<br>**7.** Fantaziyaların polinomları<br>**8.** Fokal obyektlərin metodu<br>**9.** Morfoloji qutu(morfoloji analiz,təkmilləşdirmə)<br>**10.** Sinektika |
| **9. TƏŞKİLATİ METODLAR.** | **1.** Ziqzaq(mozaika)<br>**2.** Karusel |
| **10. QRUPLARA BÖLÜNMƏ** | **1.** Say<br>**2.** Püşkatma<br>**3.** Dərsə uyğun terminlərlə |
| **11. FƏALLAŞDIRMA** | **1.** Müsbət iş iqliminin yaranmasına imkan yaradan oyunlar<br>**2.** Buz əridən oyunlar<br>**3.** Fəallaşdırma oyunları |

## 16. TƏLİM PLANLAŞDIRILMASI

1. **Perspektiv (illik) planlaşdırması.**
2. **Gündəlik (cari).**
3. **Fəal dərsin mərhələləri.**

Təlim strategiyasının bir qolu da planlaşdırmadır.Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. Tədris fəaliyyətinin iki formada planlaşdırılması aparılır:

1. **Perspektiv (İllik)**
2. **Gündəlik (Cari).**

**İllik planlaşdırma nümunəsi:**

| Standart | Tədris vahidi | MÖVZU | İnteqrasiya | Resurs | Qiymətləndirmə | Saat | Tari |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

Göründüyü kimi, illik planlaşdırmada hər bir mövzunun metodik vəsaitdə qeyd olunan standartı(reallaşdıracaq alt standart 3.2.1.), tədris olunan fənn üzrə tədris vahidi (bölmənin adı), həmçinin bütün mövzular(mövzunun adı)**,** mövzunun nələrə inteqrasiya olunması(başqa mövzu ilə əlaqəsi və həmin mövzunun adı),dərsdə istifadə olunan resuslar(istifadə olunacaq mənbələr), qiymətləndirmə növü (diaqnostik, formativ, summativ), saat və tarix əks olunmuşdur.İllik planlaşdırmanın yaradılması müəllimlərin qarşısında duran ən mühüm vəzifədir.Çünki illik planlaşdırma tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyini göstərir.Eyni zamanda hər fəslə ayrılacaq vaxt da burda göstərir.Müəllim illik planlaşdırmada əlavələr və dəyişiklik edə bilər.Bu planlaşdırma dərsin bütün mərhələlərində qeyd olunmur.(Çünki illik ilin sonunda aparılır, mütəmadi olaraq yox).Perspektiv planlaşdırma aparmaq məqsədilə müəllim üçün **zəruri hesab edilən bacarıqlar** aşağıdakılardır:1. Məzmun standartlarına əsasən əsasən dərslikdəki(dərslik olmayan fənnlər üzrə müəllim vəsaitindəki) tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq. Müəllim əvvəlcədən bölmə və onun içindəki mövzuların uyğunluğunu yoxıamalıdır.2. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.(Mövzular ardıcıl olmalıdır ki, şagirdlər dərk etməkdə çətinlik çəkməsin.ilk dərsdə son mövzunu keçsək bir effekt götürə bilmərik).3. İnteqrasiya imkanlarını müəyyən etmək.( Həmin mövzunun digər hansı mövzularla əlaqəsini, hansı oxşarlıq olduğunu müəyyənləşdirmək). 4. Əlavə resuslar seçmək.(mövzunun yaxşı dərk edilməsi üçün əlavə resuslardan da istifadə edə bilərik).5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.(Mövzunun qısa və genişliyini əsas tutaraq vaxt böıgüsü aparmaq.Fənn üzrə illik dərs saatlarının ümumi sayı hesablanır və hər tədris vahidinin mürəkkəbliyi baxımından vaxt təyin olunur.) 6. Mövzuya görə nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirmək.(Qiymətləndirmə növlərini: diaqnostik, formativ, summativ müəyyən etməliyik).İllik planlaşdırmada motivasiya, tədqiqat sualının qoyulması, təlim məqsədləri,dərsin məqsədi,forma, üsullar, qiymətləndirmə vasitələri, qiymətləndirmə üsulları **yoxdur.(testdə çaşmamaq üçün bunlara diqqət edin)**.

**Planlaşdırma ilə əlaqədar tövsiyyələr: -**Dərslik və müəllim üçün vəsait müəlliflərinin müəyyənləşdirdiyi standartlar qrupuna **əlavə standartlar daxil edilə bilər; - İnteqrasiya üçün əlavə imkanlar** müəyyən edilə bilər.(məsələn müəllim Ahərfini keçeir,mövzunun daha yaxşı dərk olunması üçün şagirdlərə plastilindən də A hərfi hazrlamağı tapşırır və bununla da əlavə imkanlardan istifadə etmiş olur; **-Əlavə resuslar seçilə bilər.(**metodik vəsaitdən qeyd olunan resuslara əlavə olaraq,

istifadə olunacaq digər mənbələr də əlavə edilə bilər.**; - mövzular üzrə vzxt bölgüsündə dəyişiliklər edilə bilər**(məsələn, nəzərdə tutulub ki, bu mövzu iki 45 (yəni90 dəqiqə) dəqiqəyə keçiriləcək, ancaq müəllim görür ki, dərsin şagirdlər tərəfindən elə də yaxşı dərk olunmayıb **və o**na görə də vaxtda dəyişiklik edir. Və yaxudda əksinə). **Tədris vahidlərinin (yəni bölmələrin) və mövzuların ardıcıllığı**
**aşağıdakı prinsip əsasında sıralanır:-Xronoloji ardıcıllıq (**zaman ardıcılığına diqqət yetirilir, tədris ilinin təqviminə əsasən tarix yazılmalıdır.Həmçinin tarixi gün, keçirilən mövzu planda uyğun olmalıdır.– **Sadədən mürəkkəbə (mövzular** asandan çətinə doğru sıralanmalıdır ki, şagirdlərdə dərsi qavrama problemi yaranmasın);- **Məntiqi ardıcıllıq(**mövzular arasında mütləq şəkildə ardıcıllıq olmalıdır, yəni məntiqi baxımdan düzgün əlaqə qurulmalıdır.Məsələn, dərs ilinin əvvəlində şeirləri keçirəm, dərs ilinin sonunda isə A hərfini. Yəni əvvəlcə o anlayış öyrədilir ki, həmin anlayış öyrədilir ki, həmin anlayış növbəti anlayışların başa düşülməsində əsas rol oynasın.

**Gündəlik (cari) planlaşdırma.Dərsin səmərililiyini artırmaq və dərs vaxtını tələblərə uyğun sərf etmək üçün əvvəlcədən planlaşdırma aparılır.**Bu planlaşdırmada fəal dərsi təşkil etmək üçün gündəlik **dərs icmalı** hazırlanmalıdır. B**unun** üçündə düzgün və məqsədyönlü dərs planı hazırlamaq ilkin şərtlərdən biri sayılır.

**Gündəlik planlaşdırma nümunəsi**.

| | |
|---|---|
| **STANDART:** | **1.2.3.(**mütodik vəsaitdə bütün standartlar verilir, ordan baxılıb standartı konkretləşdirə bilirik. |
| **Məqsəd: (reallaşdırılacaq Standartlar göstərilməklə)** | Bilik, bacarıq, vərdiş və dəyərlər burda əks olunur.Məsələn,<br>-verilmiş mövzuya uyğun dialoji mətn qurub təqdim edir.<br>-Nəsr əsərini dram əsərinə çevirərək səhnələşdirilmiş şəkildə təqdim edir.<br>-Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək senari yazır və səhnələşdirir.<br>- Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək mətn qurur və təqdim edir.<br>(burada isə dərsin məqsədini (məqsədlərini) müəyyən etdik. |
| **MÖVZU:** | **Zəhmət və Zinət** |
| **İnteqrasiya:** | **İnteqrasiya olunduğu mövzunun standartları və adı qeyd olunur.** |
| **Təlim forması (iş forması)** | **Qruplarla iş**<br>Şagirdlər 3 qrupa bölünür və hər qrupa şeirdən çıxarılmış bir bənd verilir.1- ci qrup: Zəhmət və Zinət obrazlarını insan obrazları ilə əvəz edin və oxuğudunuz əsərin sujetinə əlavələr etməklə mətni qurub təqdim edin. |

| | |
|---|---|
| | 2 -ci qrup: Mətnin giriş hissəsini aşağıdakı kimi dəyişməklə davamını təxəyyülünüzə üyğun nəql edin:"Zəhmətə yazığı dələn Zinət təklif edir ki, yerlərini dəyişsinlər; Zinət işləsin, Zəhmət isə dəmir sandıqda kef çəksin..."<br>3- cü qrup: Mətnin giriş hissəsini aşağıdakı kimi dəyişməklə davamını təxəyyülünüzə uyğun nəql edin:" Zəhmətlə Zinət dalaşırlar".Onların yola getmədiyini görən Alış dayı çarıqlardan birini qovmaq qərarına gəlir..."Və sonda şagirdlərin təqdimatları dinlənilir.Ən orijinal və gözlənilməz sonluqlu mətnlər daha yüksək qiymətləndirilir. |
| **TƏLİM ÜSULU (İŞ ÜSULU)** | **PROQNOZLAŞDIRMA**<br>(Müəllim: " Sizcə Zəhmət çıxıb getdikdən sonra Alış kişi ilə Zinətin taleyi necə olacaq?"Şagirdlər bu suala cavab vermək üçün mətnin davamı ilə bağlı öz variantlarını təqdim edirlər yəni proqnoz verirlər). |
| **RESUSLAR** | **Slayd, video və ya şəkillər, internet resusları və s.** |
| **Dərsin tipi** | **İnduktiv(**mövzunu xüsusidən ümumiyə doğru izləyirik, yəni həmin dərsi indi keçirik.İNDuktiv=İNDi sözü ilə uyğunlaşdıraraq yadda saxlaya bilərsiniz)<br>**Deduktiv(**mövzunu Umumidən Xüsusiyə doğru izləyirik, yəni təkrar keçirik).**DUX sözü** ilə yadda saxlaya bilərsiniz. |

Göründüyü kimi, cari plandaşdırma bu ardıcıllıqla olur: **Standart, Məqsəd, Mövzu, İnteqrasiya, Təlim forması,Təlim üsulu, Resuslar,Dərsin tipi.(Qeyd: Testlərdə** əsasən ardıcıl formada soruşulur, ona görə ardıcıllığı yadda saxlamaq üçün başlıq hərflərə diqqət edin.)

## FƏAL DƏRSİN MƏRHƏLƏRİ (GEDİŞİ)

1. **Motivasiya: problemin qoyuluşu.**
2. **Təqdimatın aparılması.**
3. **İnformasiya mübadiləsi.**
4. **İnformasiyanın müzakirəsi və təşkili.**
5. **Nəticə və ümumiləşdirmə.**
6. **Yaradıcı tətbiqetmə və Ev tapşırığı.**
7. **Qiymətləndirmə və ya Refleksiya: :(məqsədə görə müəyyən mərhələdən sonrs aparıla bilər)**

**Qeyd:** Qiymətləndirmə və ya Refleksiya(məqsədə görə müəyyən mərhələdən sonra aparıla bilər.

**1.Motivasiya :problemin qoyuluşu.** Aparılma müddəti 5-7 dəqiqə (standart). Şərt deyil, dərsin gedişatından asılı olraq daha az və ya ya çox d ola bilər. **Motivasiya** Fəal dərsin birinci mərhələsidir.Hər hansı bir fəaliyyətin

mexanizmini işə salan sövqedici quvvədir, dərsin vacib komponentidir, təfəkkür prosesini hərəkətə gətirən və idrak fəallığına təkan verən prosesdir.Motivasiya nəticəsində problem və fərziyyələr yaranır. Motivasiya yığcam və qısa vaxtda həyata keçirilməlidir.(mərhələli şəkildə də aparıla bilər). Motivasiya zamanı ortaya gətirilmiş problem cəlbedici, düşündürücü, müəmmalı, şagirdin yaş səviyyəsinə uyğun, şagirdlər tərəfindən orta çətinlikdə başa düşülən olmalıdır.Motivasiyanı şagirdi həvəsləndirəcək formada qurmaq lazımdır.Motivasiyanı yaradan amillər: **problemli situasiya, müəyyən olunmuş problemin qeyri adiliyi,maraq yaratması, müstəqil düşünməyə imkan verməsi, motivasiyanın tədqiqat və yaradıcı imkanının olması.**Motivasiya qurmamışdan əvvəl **alt standartlar, sonra isə dərsin təlim nəticələri müəyyən olunmalıdır.Motivzsiya bu yollarla yaradılır: -Rəmzi simvolik materialdan istifadə etməklə(**problemin atalar sözü, şeir parşası, foto, video, rəsm, qrafik,tapmaca, musiqi, melodiya və s**.- Müxtəlif suallardan istifadə etməklə;**

**- Problemin müxtəlif yollarla həll edilməsi.**Motivasiya 2 prinsip əsasında qurulur.**1. Problemlik –** dərsin əvvəlində şagirdlərin qarşısına problem qoyulmalıdır. **2. Məqsədyönlülük –** Əgər bu prinsip gözlənilməsə, dərsi qurmaq şətin olacaq.Dərs zamanı aparılan tədqiqat məqsədlə sıx bağlı olmalıdır.Motivasiyanın mərhələsi aşağıdakı hissələrdən ibarətdir.(ardıcıllığa diqqət edin "problem"ilə başlayır "fərziyyə" ilə bitir).

**1.** Problemi qoymaq üçün sual və ya tapşırıq verilir.
**2.** Yönəldici suallar təklif olunur.
**3.** Tədqiqat sualı çıxarılır.
**4.** Fərziyyələr irəli sürülür.

**Motivasiya zamanı müəllim tərəfindən buraxılan səhvlər.**

1. Tədqiqat sualını şagirdin nəzərinə çatdırmadan birbaşa dərsin ikinci mərhələsinə -tədqiqat mərhələsinə keçid edir.
2. Tədqiqat sualını tərtib edərkən dərsin əvvəlində müəyyən olunmuş təlim məqsədlərini, dərsin sonunda şagirdin gələcəyi nəticəsini müəyyənləşdir-mir, nəticədə tədqiqat sualı ilə dərsin sonunda şagirdin gəldiyi yekun nəticə bir-biri ilə uzlaşmır.
3. Müəllim motivassiya qismində real problem əvəzinə həvəsləndirici informasiyadan (maraqlı, cəlbedici) və ya onun təqdimat üsullarından (oyun, rəngarəng şəkil) istifadə edir.
4. Açıq suallar əvəzinə qapalı suallardan istifadə edir.

**2. TƏDQİQATIN APARILMASI.** Aparılma müddəti 10 dəqiqə(standart). Şərt deyil, dərsin gedişatından asılı olaraq daha az və ya çox da ola bilər).Fəal dərsin 2-ci mərhələsidir.Bu mərhələnin

əsas məqsədi: **- tədqiqat sualından irəli gələn fərziyyələrin yoxlanılması üçün faktları tapmağa imkan yaratmaq; - biliklərin müstəqil şəkildə kəşf edilməsi üçün uyğun şərait yaratmaq; - şagirdləroin müstəqil şəkildə bilik əldə etmələrinə imkan yaratmaq; -tədqiqat aparılmasına şərait yaratmaq;** Bu mərhələni düzgün təşkil etmək və səmərəli istiqamətləndirmək üçün müəllimin qarşısında duran vəzifələr: - tədqiqatın düzgün aparılmasına imkan yaradacaq iş vərəqələrini, sual və tapşırıqları, istifadə olunacaq məlumat mənbələrini şagirdlərə təqdim etmək; - tədqiqata başlamazdan əvvəl tədqiqat üçün lazımi materialları təqdim etmək; - təqdimata başlamazdan əvvəl qiymətləndirmə meyarlarını şagirdlərin nəzərinə çatdırmaq; - təlimin formasına uyğun şagirdləri yerləşdirmək( əgər qrup işidirsə, qruplara bölmə). Bəs tədqiqat zamanı müəllim hansı səhvləri edə bilər?– müəllim tədqiqat və problemin həlli üçün zəruri şərait yarada blmir;

- müəllim şagirdləri qrup halında birləşdirir, lakin onun verdiyi tapşırıq şagirdləri həvəsləndirmir və onları kollektivlə işləməyə yönəldə bilmir, onları müzakirəyə sövq edə bilmir və nəticədə uşaq çalışmanı müstəqil həll edir; - müəllim problemi qoymadan dərhal qrup işini təşkil edir.və s.

## İŞ VƏRƏQİ

**İş vərəqi fəal təlim zamanı keçirilən, şagirdlərin tədqiqat işini təşkil edən və tədqiqatı düzgün istiqamətləndirmənin mühüm vasitələrdən biridir.**İş vərəqində kişik qruplara verilən problem və onun həllinin nəticələri əks olunur.İş vərəqinin xüsusiyyətləri: - iş vərəqində verilmiş tapşırıqlar mövzusuna uyğun olmalıdır; - dərsin məzmununa uyğun olmalıdır; - dərsin məqsədinə uyğun olmalıdır; - müxtəlif tipli tapşırıqlar olmalıdır; çoxlu sual olmamalıdır; geniş olmamalıdır və s.

## 3.İNFORMASİYA MÜBADİLƏSİ:

Aparılma müddəti 5 dəqiqə( standart).Şərt deyil, dərsin gedişatından asılı olaraq daha az və ya çox da ola bilər.Fəal dərsin 3- cü mərhələsidir.Bu mərhələdə artıq şagirdlər əldə etdikləri məlumatı təqdim etməyə başlayırlar, əldə etdikləri yeni informasiyanı digər qrup üzvləri ilə paylaşmış olurlar, nəticədə şagirdlər arasında fikir mübadiləsi yaranmış olur.Bu mərhələnin məqsədi: **- bütün şagirdləri araşdırma zamanı əldə olunmuş yeni faktlarla və tapıntılarla tanış etmək; - 0lunan təqdimatla şagirdlərə yeni informasiya vermək; - əldə olunmuş yeni fikri qaydaya salmaq və sistemləşdirmək; - müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq və bu zərurətin yaranmasına şərait yaratmaq; - təqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır.Təqdimat zamanı şagird özünü və təmsil etdiyi qrupu**

**təqdim edir, araşdırılan problemin adını göstərir, həmin problemin onlar**

**üçün maraqlı olub- olmadığı haqda qısa məlumat verir, üzünu yoldaşlarına tutaraq nitqinə giriş verir.Qeyd etmək lazımdır ki, şagird çıxışına başlayan zaman kənar danışıqlara son qoyulur, yəni şagidin nitqi kəsilmir.**Bu mərhələdə müəllimin əsas vəzifəsi aşağıdakılardır: - şagirdin fəal iştirakını təmin edir; - bütün sinfi fəal dinləməyə sövq edir; - bütün şagirdlərə təqdimata öz münasibətini razılıqlarını və ya narazılıqlarını bildirməyə zövq edir; - daha çox şagirdi fikir mübadiləsinə cəlb edir; şagirdləri liderlərə sual verməyə stimullaşdırır və s.

**4. İNFORMASİYANIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

Aparılma müddəti 7 dəqiqə (standart).Şərt deyil, dərsin gedişatından asılı olaraq daha az və ya çox da ola bilər.Fəal dərsin 4-cü mərhələsidir.Bu məhələnin məqsədi: **- yeni əldə edilmiş faktlar əsasında bilikləri sistemləşdirmək; - tədqiqat sualının cavabını aydınlaşdırmaq; - bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin səfəbərliyini təmin etmək; - şagirdlərin irəli sürdükləri ideyaların müzaakirə zamanı fərqləndirilməsini və qeyd edilməsini müşahidə etmək; - şagirdlərin ideyanı işləyib hazırlamasına şərit yaratmaq.**Bu mərhələdə müəllimin vəzifəsi: - bu zaman müqayisə, təhlil və sintezdən istifadə edilməsinə şərait yaratmaq; -şagirdləri diskusiyaya təhrik edir; - şagirdlərin ideyalarını dinləyir; - bununla yanaşı, müəllim öz nöqteyi-nəzərini şagirdlərə zorla qəbul etdirmir; - müəllim təklif və ideyaları diqqət mərkəzində saxlayır və s. Bu mərhələdə müəllim hansı səhvləri buraxır? - müəllim öz fikirlərini zorla qəbul etdirir; - yönəldici suallardan istifadə edir; - şagirdi hazır cavaba yönəldir; - düşünməyə və təhlil etməyə imkan verməyən suallardan istifadə edir və nəticədə də şagirdlərin özlərinin həlli yolunu tapmasına imkan vermir və s. Göründüyü kimi, bu mərhələdə tapşırıqlar pərakəndə haldan toplu hala keçeir və nəticədə məlumatlar cəmlənmiş olur.Bu mərhələdə müəllim qrupların işini bir- biri ilə əlaqələndirir.Müzakirələrin sonunda hansısa əsas üzrə qruplaşdırılmış informasiya lövhədə qeyd edilir.

**5. Nəticə və ümumiləşdirmə.**

Aparılma müddəti 4 dəqiqə(standart).Fəal dərsin 5- ci mərhələsidir.Bu mərhələnin təşkilində əsas məqsəd: **- əldə edilmiş fikirlərin ümumi ideya halında birləşdirilməsi və ümumiləşdirilməsinə nail olmaq; - şagirdlərin bu mərhələdə bilgiləri məhz özlərinin kəşf edə bilməsinə şərait yaratmaq;(çünki bu hal onlarda bənzərsiz sevinc və məmuniyyət hissi keçirmələrinə kömək etmiş olur).**Bu mərhələdə müəllimin fəzifəsi: - fikirlərin səmərəli şəkildə ümumiləşdirilməsi və əsas ideyanın müəyyən olunması üçün səmərəli şərait yaradır; - müəllim şagirdlərin əvvəlki mərhələdə qeyd edilmiş bütün fikirləri bir ümumi ideya halında

birləşdirməyi və ümumiləşdirməyi xahiş edir; - müəyyən olunmuş problemə şagirdlərin nəticə çıxarmasına imkan yaradır; - bu mərhələnin nəticələrinin şagirdlər tərəfindən çıxaılmasına nail olmaq üçün şərait yaradır və s. Müəllim bu mərhələdə hansı səhvləri buraxır? - müəllim problemi qoyur və özü də həll edir(şagirdi tədqiqatçı kimi iştirak etməsinə imkan vermir); - şagirdlərin əvəzinə özü nəticə çıxarır; - tədqiqat sualı arasında əlaqə yaratmağa çalışmır və s. Göründüyü kimi, bu mərhələdə şagirdlər yeni biliklərin aşkar edilməsində həlledici addımlar atırlar.Onlar məsələləri ümumiləşdirərək son nəticəyə gəlirlər, əldə etdikləri yeni bilikləri tədqiqata başlayarkən irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq qarşılaşdırırlar.Şagirdlər ilk mərhələdə irəli sürülən fikirlərlə son mərhələ arasındakı nəticələrin arasında körpü salmış olurlar.

**6. Yaradıcı tətbiqetmə və Ev tapşırığı:**

Aparılma müddəti 10 dəqiqədir. Fəal dərsin 6 –cı mərhələsidir.Bu mərhələnin təşkilində əsas məqsəd:- Biliklərin mənimsənilməsinin başlıca meyarı kimi çıxış edir; - biliyi möhkəmləndirir; - biliyin praktiki əhəmiyyətini artırır;(bu məqsədlə şagirdlərə müxtəlif praktiki tapşırıqlar verilir); - şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir; - bu mərhələ həm sinifdə, həm də evdə tətbiq oluna bilər.1 akademik dərs saatı ilə yekunlaşmaya bilər.

**7. Qiymətləndirmə və Refleksiya:**

Məqsədə görə müəyyən mərhələdən sonra da aparıla bilər.Aparılma müddəti 3 dəqiqə.Fəal dərsin 7 –ci mərhələsidir.Şagirdlərin təlimdəki mahiyyətinin dəyərlənləndirilməsi prosesidir.İstənilən prosesin təkmilləşməsinə xidmət edən mexanizimdir.Təkmilləşmək üçün vaxtında öz qüsurlarını, nailiyyətlərini aşkar etmək uğur qazanılmasına nələrin mane olduğu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir.Qiymətləndirmə və refleksiya mərhələsi məhz bu məqsədə xidmət etməlidir.Qiymətləndirmə və refleksiyanı dərsin bütün mərhələlə - rinə daxil etmək olar, yəni istənilən mərhələnin sonunda qiymətləndirmə aparmaq mümkündür.Qiymətləndirmə müəllimin deyil, şagirdlərin maraqlarına xidmət etməlidir.Qiymətləndirmə üçün forma, üsul, meyar(konkret bir bir meyar göstərib ona əsasən qiymətləndirmə) və vasitə seçərkən müəllim məzmunu, dərsin məqsədlərini, şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini nəzərə almalıdır, yəni şagirdlərin götürmə qabiliyyətinə, maraqlarına uyğun formada dərsi qurmaq və onun əsasında da qiymətləndirmə lazımdır, dərs müddətində forma üsul seçərkən dərsin məzmununa diqqət etməliyik, dərsin məqsədinə uyğun dərsi keçməliyik. Özünüqiymətləndirmə: Normal həddə özünü-qiymətləndirməyə sahib

insanlar adətən həyatda uğur qazanırlar.O özünə və ətrafdakılara pozitiv yanaşır. Bu insanla ünsiyyət qurmaq çox xoşdur.Çünki o həm özünə, həm də müsahibinə hörmət edir.Bu insan ünsiyyəti elə formada qurur ki, ətrafdakı insanlar özünü onunla bərabər səviyyədə hiss etsin.Bu üsuli təhsil sistemində də şagirdlər üzərində tətbiq edirlər.Bu üsul şagirdlərdə özünü tənqid etməyi bacarığı, özündə yalnış və doğruları görməyi, dərs zamanı nəyi daha dərindən başa düşdüyünü və tam əksinə hansı mövzularda çətinlik çəkdiyini görməyi formalaşdırmaq üçündür.Bu vərdişləri formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin qarşısında şagirdlərin **özlərinə qiymət verməsi təcrübəsindən, habelə qarşılıqlı qiymətləndirmədən istifadə etmək olar.**

**REFLEKSİYA**

**Reflection «отражение», “yansıma”, “inikas, refleksiya” –proqramın icrası zamanı öz strukturunu və** hərəkətlərini izləyə və dəyişdirə bildiyi prosesdir.yəni **artıq başa çatmış fikrin şüurda inikasıdır.**Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən dərk edərək başa düşməyə imkan verən başlıca mexanizimlərdən biridir.Refleksiya təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə inkan verir.Refleksoiyanın həyata keçirmək üçün şagirdlərə onları yeni bilginin kəşfinə gətirib çıxarmış təlim hərkətlərinin alqoritmini(addımlarını) izləməyə kömək edə biləcək bir neçə sual vermək kifayətdir.Dərsin məzmunundan və məqsədindən asılı olmayaraq hər bir müəllim bütün şagirdlərdə refleksiyaya nail olmalıdır.

**EV TAPŞIRIĞI**

Yaradıcı tətbiqetmə məqsədilə orta məktəbdə ən geniş istifadə edilən ev tapşırıqlarıdır.Ev tapşırığı dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi məqsədini güdən sərbəst iş formasıdır.Ev tapşırıqlarının xarakteri tədqiqat və yaradıcılıq elementləri ilə zənginləşdirməlidir.Ev tapşırıqları şagirdin müstəqil təlim, tədqiqatçılıq və yaradıcılıq bacarıqlarını inkişaf etdirir, sinifdə öyrədilmiş məsələlərin həyatla əlaqəliliyini təmin edir.

## 17. FƏAL TƏLİM PLAN:

1. **Fəal təlimin əsas xüsusiyyətləri**
2. **Fəal təlimin prinsipləri**
3. **Fəal təlimin mexanizimləri**
4. **Öyrədici mühitin təşkili**

**Fəal təlim** interaktiv təlim kimi başa düşülür.Bu təlim metodu elə təlim metodurki, müəllim-şagird əməkdaşlığı vardır.Şagirdlər sadəcə müəllimi dinləmirlər, onlar da dərsdə fəal iştirak edirlər, müəllimin yaxın köməkçisi olurlar.İdraki və kimmunikativ fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzunun mənimsənil -məsinə proses iştirakçılarının hər biri öz töhfəsini verir.Yəni, bu prosesdə yalnız müəllimlə şagirdlər deyil, həm də şagirdlər öz aralarında söhbət və dialoq rejimində fəaliyyət göstərirlər.Deməli, **fəal təlim dedikdə şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim nəzərdə tutulur.**Fəal təlim **subyekt-subyekt xarakteri daşıyır.**(yəni müəllimşagirdə obyekt kimi yanaşmır, subyekt kimi – fərd kimi yanaşır). **Yeni İnteraktiv təlimdə Fəal – interaktiv təlim** prosesinin elə təşkili formasıdır ki, burada müəllim bilikləri otürən rolunda imtina etməklə yeni bir vəzifəni – **bələdçi (fasilitator) vəzifəsini** öz üzərinə götürmüş olur.Yəni müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan,təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib onlarda yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb- araşdırmağı, nəyi harda öyrətməkdən ibarətdir.Bu təlim özü də fəal təlim prosesinə daxil olan metodlardandır.Burada biliyin **qrup-və cütlərlə iş** formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir.**Fəal təlimin əsas xüsusiyyətləri aşağıdakılardır.- şagirdlər bütün iş formalarından yerində və lazımi vaxtda istifadə edə bilir; - şagirdlər artıq yeni biliklər müstəqil kəşf edə bilirlər; - şagirdlər əldə etdikləri yeni bilikləri yaradıcı tətbiq edə bilirlər.;- dərsin əvvəlində yaradılmış problemli situasiya dərsin**
**gedişatında problemin həllinə yönəldilir; - hazır halda biik əldə edilmir, bilik üzərində əməliyyat aparıldıqdan sonra mənimsənilmiş olur; - tapşırıqlar təfəkkürün inkişafına yönəlir; - müxtəlif tipli tapşırıqlardan, məlumat mənbələrindən istifadə edilir; - qrup işindən geniş istifadə olunur" –dərs tədqiqat şəklində keçirilir və s.**Unutmayaq ki, fəal təlim zamanı ən zəif şagird belə problemi həll etməyə qadir olanda fəallaşır.Həmçini dərs zamanı şagirdin fəallığına və məlumatı yaxşı qavramasına təsir edən amillər də var: - şagirdin əhval ruhiyyəsi; müəllimin ustalığı; idrak prosesinin xüsusiyyətləri; - şagirdin bilik səviyyəsi.**Fəal təlimin prinsipləri aşağıdakılardır: 1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi.** Bu prinsipin əsas məqsədi: Təlim prosesinin mərkəzində şagird olmalı və **təlimin bütün məqsədləri şagirdin inkişafına yönəlçəlidir.2. Fəal idrak prinsipi: Bu prinsipin əsas məqsədi: İdrak fəallığı yaratmaq üçün şagirdin qrşısına problem qoymaq və onu problem həllinə yönəltməkdir.Nəticədə isə passiv idrak**

**aktivləşir və problemli situasiya yaranır.Tədris prosesi elə təkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə fəaliyyəti döğursun, şagirdə "ilk kəşf" sevinci**
keçirməyə imkan versin, onda yeni biliklərə yoiyələnmək həvəsi yaratsın. **3. İnkişaf –edici təlim prinsipi.** Bu prinsipin məqsədi: Şagirdi qarşıdakı inkişaf zonasına yönəltməkdir.Buna nail olmaq üçün şagirdlərə imkanlarına uyğun, lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək təklif edilməlidir.**4. "Qabaqlayıcı təlim".**Bu təlim prinsipi şagirdlərin dərs zamanı və ya başqa situasiyalarda qarşılaşacağı problemlərə onların əvvəlcədən hazırlanmasını nəzərdə tuturBunun üçün ilk növbədə təlim cəmiyyətin inkişaf meyillərini əks etdirəli və yeni nəsil
yaxın gələcəkdə həyat şəraitinə hazırlamalıdır. **5. Təlim –tərbiyə sisteminin çevikliyi prinsipi.**Bu prinsipin məqsədi: Təlim-tərbiyə sisteminin çevikliyi ilk növbədə onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir.İctimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, tədris planları və proqramlarının məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistematik olaraq təzələnməlidir.Çevik təlim-tərbiyə sistemində, daha çox təlimin diferensiallaşmasına, şagirdlər tərəfindən müxtəlif məlumatların işlənilməsi və mənimsənilməsinə üstünlük verilir. **6. Əməkdaşlıq prinsipi.** Bu prinsipin məqsədi: Müəllim- şagird qarşılıqlı münasibətini sistemləşdirməkdir.Tədris prosesi iştirakçıları arasında əməkdaşlığın formalaşdırılması fəal təlimin əsas prinsiplərindəndir."Müəllim-şagird" qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində **tərəf müqabili** kimi iştirak etməlidir. **7. Dialoji təlimin prinsipi.** Bu prinsipin məqsədi: Şagird+ şagird və ya müəllim+qrup+ şagird arasında fikir mübadiləsini reallaşdırmaqdır.Məsələnin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədilə ilə hər bir şagirdin müzakirələrində və qrupun işində iştirakı təmin edilməlidir.Deməli, bu tədris prosesi iştirakçılar arasında arasında fikir mübadiləsinin aparılması, müxtəlif müzakirələr zamanı şagirdlərdə ünsiyyət bacarıqlarının formalaşması və ya problemli situasiyaların qarşılıqlı ünsiyyət, məsləhətləşmə, təcrübələrin bölüşülmə -si yolu ilə həll olunması bu təlim prinsipinə əsaslanır.

Fəal təlimin mexanizmləri: Mexanizm№ 1.Problemli vəziyyətin yaradılması.2. Mexanizm № 2.Dialoqun və əməkdaşlığın zəruriliyi.Mexanizim № 3. Şagird – tədqiqatçı, müəllim – **fasilitator.(bələdçilik)** Mexanizm № 4.Psixoloji dəstək: hörmət və etibar.

**FASİLİTASİYA PROSESİ –** yönəldici, köməkçi sualların effektli tətbiqinin köməyi ilə diskusiyaların təşkili və şagirdlərin fəallaşdırılması prosesindən ibarətdir(şagirdlərə köməkçi suallar vasitəsilə istiqamət verərək diskussiya qurmaq).

**FASİLİTASİYANIN XÜSUSİYYƏTİ-** ondan ibarətdir ki, yeni bilgi müəllim tərəfindən şagirdlər də öz növbəsində problemi həll edir).

**FASİLİTATORUN MÖVQEYİ –** onun əsas funksiyası düşüncəni inkişaf etdirmək və onu **lazımı məcraya yönəltməkdən ibarətdir.**

**FASİLİTATORUN MƏQSƏDİ –**şagirdlərin öyrənmək və yaratmaq tələbatlarını tam ödəmək, onların öz patensialını həyata keçirə bilməsi üçün şərait yaratmaqdır.

**Fəal təlimin mexanizmlərinaxşıin tətbiqi nəticəsi bu cür olur: - idrak fəallığı yaranır və bu fəallıq dərs prosesində davam edir; - şagirdlərdə sərbəstlik, biliklərin müstəqil qavranmasına imkan yaradır; - standartların həyata keçirilməsini təmin edir; - müəllim problemin müstəqil tədqiq edilməsi üçün bütün imkanları yaratmalıdır; - şagirdlərin cavablarını yaxşı və ya pis qiymətləndirməkdən imtina etməlidir; -problemin həllində istənilən cəhdi yaradıcı fikir kimi qəbul etməlidir; - şagirdləri stimullaşdırıcı tədbirlərdən istifadə etməlidir.**

**Fasilitasiyanın qaydaları: -** Fikrin təhrik olunması qaydaları; (sözlə və ya stimullaşdırıcı vasitələrlə uşaqları həvəsləndirmə, açıq suallardan istifadə və s.). – Məlumatla təminetmə qaydaları;(şagirdlərin şüurunda dərsin dəqiq şəklini formalaşdırma, materialın qavranılması üçün müxtəlif üsulların tətbiqi və s.). -Təşkilati dəstəkləmə qaydaları;( şagirdlərdə öz fəaliyyətlərini planlaşdırmaq və təşkil etməkbacarığını formalaşdırma mərhələsini reallaşdırmaq və s.); -Psixoloji dəstəkləmə qaydaları; (müsbət dil ifadələrindən istifadə etmə, danışanlara diqqətlə qulaq asma, şagirdlərin fikirləri ilə səmimi maraqlanma və. s);- Fəal dərs və ənənəvi dərsin ortaq cəhəti: hər iki dərsdə tətbiqetmə mərhələsi axırda olur. Fəal dərsin ənənəvi dərsdən fərqi: fəal dərsin fərqli mərhələlərindən biri refleksiya mərhələsidir; təlim prosesinin mərkəzi tədqiqatdır; Ənənəvi təlim illustrativ xarakter daşıyır və təlim prosesinin mərkəzi mühazirədir.

## ÖYRƏDİCİ MÜHİTİN TƏŞKİLİ.

Fəal dərsin quruluşunun ümumi, sistemli şəkildə qavramaq üçün və dərsi apararar –kən məqsədimizə olub- olmamasının müəyyən etmək üçün bizə müəyyən meyarlar lazımdır.”Hər mərhələdə əsas hadisələr hansələrdir?” və “Hər mərhələnin nəticəsində nə alınmalıdır?” sualları məhz bu meyarlar kimi çıxış edə bilər.Təlimin qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi təlim tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz mühitdən əhəmiyyətli dərəcədə asılıdır.Öyrədici mühit şagirdi əhatə edən şəraitin aşağıdakı xassələrini əks etdirir: **əşyavi mühit; informasiya mühiti; sosial – psixoloji mühit.**Bu bölgü şərtidir, çünki ətrafdakı müəyyən obyektlər eyni zamanda ayrı-ayrı mühit

növlərinin elementləri ola bilər(məsələn, dərsliklər, didaktik və əyani vasaitlər, lövhələr həm əşyavi mühitin, həm də informasiya mühitinin hissəsi ola bilər.

**1.Əşyavi mühit aşağıdakılardan ibarətdir: - Məktəb əşyavi mühiti: dərsliklər, stendlər, vəsaitlər, məktəb avadınlığı, məktəb ləvazimatları və s.; -Təbii mühit: canlı və cansız təbiət; - Yaşayış mühiti: maddi mədəniyyət əşyaları, ictimai və mədəni müəssisələr, məişət mühiti.;**

**2. İnformasiya mühitinə təlim prosesində (həm məktəbdə, həm də ondan kənarda) istifadə və şagirdlər tərəfindən qavranıla bilən bütün məlumat mənbələri kompleksi – müəllim,dərslik, əyani və didaktik vəsaitlər, televiziya, mətbuat, başqa adamlarla ünsiyyət, bədii, ensiklopedik məlumat, elmi və elmi – kütləvi ədəbiyyat, bədii nəşrlər, kompyuter, müsahibə, müşahidə və eksperimentlər kino, teatr, muzey, sərgi, ekskursiya, səyahətlər və s. daxildir.**

**3. Sosial psixoloiji mühit təlimə həvəsin formalaşmasına təsir edən aşağıdakı tərkib hissələrindən ibarətdir: Şagirdin digər insanlar ilə əlaqəsi: müəllimlər, valideynlər, digər şagirdlər və s.Şagirdin öz daxili aləmi ilə qarşılıqlı əlaqələrinin bütün növləri.Öyrədici mühitin təşkilinə** əsas yanaşma aşağıdakılardan ibarətdir:
-bilik prosesinə müsbət münasibət, yeni biliklərin aşkar edilməsi, mənimsənilməsi və tətbiqi üçün münasib şəraitin yaradılması; - şagirdin bilik əldə etmək, ünsiyyət -də, qarşılıqlı əlaqədə olmaq və əməkdaşlıq etmək imkanlarını genişləndirmək; şəxsiyyətin inkişafı üçün imkanları artırmaq.Öyrədici mühit elə təşkil edilməlidir ki, tədrisin real həyatla əlaqəsi başa düşülsün, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunsun, müxtəlif informasiya mənbələrindən istifadə edə bilsin, sistematik olaraq bilik ehtiyatını artıra bilsin.Şagird üçün əlverişli öyrədici mühitin yaradılması o deməkdir ki, mühit ona açıq sual verməyi, problemləri araşdırmağı, tədqiqat aparmağı və müzakirə etməyi dəstəkləyir.

## 18. QİYMƏTLƏNDİRMƏ KONSEPSİYASI.

**PLAN:**

1. **Ənənəvi və müasir qiymətləndirmə.**
2. **Qiymətləndirmə prinsipləri.**
3. **Kurikulum üzrə məktəb daxili qiymətləndirmə.**
4. **Test, Kiçik(KSQ) və Böyük (BSQ) qiymətləndirmə.**

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur.Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri

olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzrə çıxaran ən etibarlı mənbə hesab olunur.Qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır.Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks -əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur.

| ƏNƏNƏVİ QİYMƏTLƏNDİRMƏ | MÜASİR QİYMƏTLƏNDİRMƏ |
|---|---|
| 1.Qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu. | 1.Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır. |
| 2.Cari qiymətləndirmə formalizmə gətirib çıxarırdı .Müəllimin subyektiv rəyinə əsaslanırdı. | 2.Cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir. |
| 3.Tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilirdi. | 3.Tədris prosesinin bütün mərhələlərində tətbiq edilir. |
| 4.Əsasən bilik səviyyəsi qiymətləndirilirdi. | 4.Şagirdin nailiyyəti(qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir. |
| 5.Qiymətləndirmə standartları mövcud deyildi. | 5. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. |
| 6.Formal, qeyri-dəqiq olur.Məhdud, qeyri-çevik (şifahi cavab, yoxlama işləri,testlər)və sistemsiz idi.Movzulara əsaslanırdı. | 6.Sistemlidir.Standart əsasında qurulur, daha obyektiv dəqiq, adekvat sistemdir. Daha müxləlif və çevikdir.(müsahibə, söhbət,tapşırıqlar, valideyinlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq, şagirdlərin yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri, şagirdlərin şifahi cavabları) |
| 7.Cari və Yekun qiymətləndirmə adlı növləri var idi. | 7.Diaqnostik, Formativ(Holistik və Analitik), Summativ(BSQ, KSQ) var. |

## QİYMƏTLƏNDİRMƏ PRİNSİPLƏRİ

**ETİBARLILIQ – yerinə yetirilən konkret tapşırığa görə qiymətləndirmə.**
Toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin edilməsi prinsipidir.Məlumatların keyfiyyəti qəbul edilmiş qərar və fəaliyyətlərin münasibliyinə təminat verir.Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir.Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində

müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir.

**RELEVANTLIQ- qiymətləndirmə məqsədilə uzlaşma.**Nəzərdə tutulmuş məqsədilə qiymətləndirmə arasında uzlaşma təmin olunur.Qiymətləndirmə əvvəlcədən planlaşdırılır, onun xidmət edəcəyi məqsədlər müəyyənləşdirilir, şagird haqqında toplanılan zəruri məlumatların mahiyyəti, xüsusiyyətləri göstərilir, məlumatların toplanılması və təhlili üsulları seçilir, veriləcək qərarın mahiyyəti təsvir edilir.

**PRAKTİKLİK – adından göründüyü kimi qiymətləndirmənin tətbiqi ilə bağlı məsələdir.Vaxt, şərait, variantların müxtəlifliyi və s.** Qiymətləndirmə prosesinin praktikliyi şəffaf şəkildə davamlı olaraq onun tətbiqi haqqında məlumat verilir. Buraya aiddir: qiymətləndirmənin düzgün təşkili, qiymətləndirmə üzrə vaxtın müəyyən edilməsi, qiymətləndirmə materiallarının hazırlanması, testlərin şagirdlərin nailiyyətləri ilə uyğunluğu, testlərdəki sualların şagirdlərə müsbət təsiri, testləşmənin metod və formaları, keyfiyyətin ölçü prosesi, ölçü metodları, cavabları, növləri.

**QİYMƏTLƏNDİRMƏNİ DƏYƏRLƏNDİRMƏ – mənfi və müsbət olur.Mənfi qusurları aradan qaldırmağa, müsbət şagirdi həvəsləndirməyə xidmət edir.** Qiymətləndirmədə dəyərləndirmə müsbət və ya mənfi ola bilər. Bu qiymətləndirmədə əsas məqsəd şagird nailiyyətlərinin müasir kurikuluma və bəzi təlimatlara uyğun qiymətləndirilməsidir.Müsbət rəy və dəyərləndirmə şagirdləri daha çox çalışmağa həvəsləndirir, mənfi rəy və və təkliflər isə şagirdin nələri düz və səhv etdiyini, bunları aradan qaldıracağı yolları təsvir edir.

**QRJİNALLIQ –(autentik qiymətləndirmə) tənqidi təfəkkürü inkişaf etdirir.** Autentik qiymətləndirmə şagirdlərin qazandığı nailiyyətlərin real həyatla əlaqəsini yaratmaqdır.Bu qiymətləndirmə növü tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirir, test tapşırıqlarının nəticələri şagirdləri real həyat hadisələri ilə tanış edir və problemlərin həllində onlara kömək edir.

Qiymətləndirmənin üsul və vasitələri qiymətləndirmənin növünə və məqsədinə görə müəyyən olunur. Bu proses onu gostərir ki, hər hansı üsuldan və ya vasitədən istifadə edərək qiymətləndirməni həyata keçirə bilərik.Rəğbətləndirmə, Təcrübə, inşa, Yoxlama yazı işləri, Yaradıcı tapşırıqlar, müşahidə, test, müsahibə , Layihə, yarış, Şifahi sorğu.

**Kurikulum üzrə məktəbdaxili qiymətləndirmə: Diaqnostik, Formativ, Summativ.** Məktəbdaxili qiymətləndirmə milli kurikulumun məzmun standartlarına əsaslanır, şagird nailiyyətlərinin və irəliləyişlərinin manitorinqinə, şagirdin fəaliyyətinin təhsil standartlarına uyğunluğunun müəyyənləşdirilməsinə və ümumtəhsil pillələri üzrə

buraxılış imtahanlarının aparılmasına xidmət edir.Məktəbdaxili qiymətləndirmənin üç növü var: 1. **Diaqnostik, 2. Formativ, 3. Summativ.**

**Diaqnostik Qiymətləndirmə: -**"Diaqnoz" sözü ilə yadda saxlayın.İlkin baxış, ilkin qiymətləndirmədir.Açar sözü **təlimi istiqamətləndirir və təlim strategiyalarını müəyyənləşdirir.**Yəni, müəllim ilkin qiymətləndirmədən sonra sinfi hansı istiqa - mətdə yönəldəcəyini, sinfə necə yanaşacağını bildirir.Fənn üzrə təlimin hər hansı bir mərhələsində **şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsi –dir.**Yəni ki, şagirdlər əsas bilik və bacaqrıqlara müəyyən dərəcədə malikdirlərmi? Şagirdlər tədris edilmiş materialın hansı hissəsini bilirlər?

-Diaqnostik qiymətləndirmənin **üstün cəhəti** odur ki, - şəraitə görə tılim məqsədləri və strategiyalarında şevik dəyişikliklər aparılmasını təmin edir; -fərdi yanaşmaya və differensial təlimə imkan yaradılmasına imkan verir; şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumatlar almağa imkan yaradır.

Diaqnostik qiymətləndirmənin **məqsədi** odur ki, -Hər bir şagirdin bilik və bacarığının ilkin səviyyəsini müəyyən edir; -Təlim prosesinin planlaşdırılmasında şagirdin fərdi inkişaf xüsusiyyətlərini nəzərə alır; -Təlim strategiyalarını müəyyənləçdirir; - Şagirdlərin sinifdəki fəaliyyətini müqayisə edir; - Sonrakı inkişafını qiymətləndirmək üçün ilkin məlumat bazası yaradır.

| **DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏNİN USULLARI** | **DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏNİN VASİTƏLƏRİ** |
|---|---|
| **MÜSAHİBƏ** | **MÜƏLLİMİN QEYDİYYAT VƏRƏQİ** |
| **MÜŞAHİDƏ(davamlı diaqnostik qiymətləndirmədə öz əksini tapır)** | **MÜŞAHİDƏ VƏRƏQİ** |
| **TAPŞIRIQLAR(tapşırıqvermə)** | **Çalışmalar, praktiki tapşırıqlar, imlalar, inşalar, rəsm və s.** |
| **SÖHBƏT** | |
| **VALİDEYİNLƏRLƏ VƏ DİGƏR FƏNN MÜƏLLİMLƏRİLƏ ƏMƏKDAŞLIQ** | **Söhbət və sorğu vərəqləri(valideyn iclasında sorğu vərəqələrinin doldurulmas)** |
| | |

Diaqnostik qiymətləndirmə dərs ilinin, tədris vahidinin, bəhs və bölmələrin əvvəlində, sinfi dəyişdikdə, zəruri vəziyyət yrandıqda, şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə və s. bilik və bacarıqları haqqında ümumi məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

**TEST – (**İngiliscə - nümunə, sınaq, yoxlama) əsasən psixoloqların diaqnostik məsləhətləri həll etmək üçün istifadə etdiyi bir vasitə olub məhdud vaxt əzində cavablandırılan və nəticələrindən şəxsiyyətin özünəməxsus psixoloji

xüsusiyyətlərini, bilik, bacarıq və vərdişlərini, həmçinin fəallıq dərəcəsini kəmiyyət və keyfiyyət baxımından qiymətləndirmək üçün tətbiq olunan standartlaşdırılmış tapşırıqlardır.

**Testin etibarlılığı –**testin eyni şəraitdə **dəfələrlə** keçirilməsindən alınan balların təxminən eyni olması, aparılan ölçmələrin nəticələrinin bir-birindən çox az fərqlənməsi ilə təyin olunub.Test özünəməxsus xüsusiyyətlərə malikdir:

1. Test standartlar baxımından müəyyən məzmunu (tədris materialını) yoxlamaq üçün bir vasitədir.Tüstlə öyrənilən bütün məzmunu əhatə etmək və qiymətləndirmək mümkündür.
2. Test mühüm anlayışların, tədris materialının(məzmununun) mənimsənilmə səviyyəsini (dəqiq ölçüsünü) təyin edir.
3. Test aparılma məqsədlərindən asılı olaraq standartlaşdırılmış bir vasitə olub müəyyən standart üzrə şagirdin nailiyyətlərinin ölçülməsini həyata keçirir. Testlər bir- birindən səviyyəcə fərqlənməklə 4(dörd) səviyyə üzrə - asan,orta, çətin və (istedadlı şagirdlər üçün) nisbətən çətin səviyyədə tərtib edilir.

**SUMMATİV QİYMƏTLƏNDİRMƏ** – təhsilin hər hansı mərhələsində( tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir.Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlıgöstəricisidir.Summativ qiymətləndirmənin üç növü var: **şifahi təqdimatlar, testlər və nailiyyətlərin nümayişi.**Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmə şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə **yekun(summativ) qiymətləndirmələr aparmağa xidmət edir**.Summativ qiymətləndirmə dəqiqdir, geriyə dönmə xüsusiyyətinə malik deyil.Yəni şagirdin uğur qazana bilməməsinin səbəblərini araşdırmır.Bu səbəbləri araşdıran diaqnostik və formativ qiymətləndirmədir.

**Qiymətləndirmə standartları** şagirdin **nailiyyət** səviyyəsinə qoyulmuş dövlət tələbidir, məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir.Təhsilin hər hansı bir mərhələsində müəyyən olunmuş səviyyələr üzrə şagirdin yiyələnməli olduğu bilik və bacarıqların **kəmiyyət və keyfiyyət göstəricisidir.Yekun (summativ) qiymətləndirmə-** Şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edirlər.Kiçik və böyük summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə(bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla, müvafiq məzmun

standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır.

Summativ qiymətləndirmənin üsulları müxtəlifdir: -**yoxlama yazı işləri,layihə, şifahi sorğu, test, tapşırıqvermə, yaradıcılıq və əl işləri.**

Summativ qiymətləndirmənin vasitələri: -**yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi;- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli; -Şifahi sorğu üzrə qeydiyyat vərəqi; -Test tapşırıqları; - Tapşırıq, çalışma və labaratoriya işləri; -Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məlumatlar və digər əl işləri.**

Qiymətləndirmənin keyfiyyət üsulları: -**Yazı və yoxlama yazı işlərində konstruktiv qeydlər; - portfolio sistemi; - reytinqin çıxarılması; - qarşılıqlı qiymətləndirmə; - özünüqiymətləndirmə; - rənglərlə qiymətləndirmə; - şəkillərlə qiymətləndirmə; - verbal sözlı; - emosional münasibət yolu ilə qiymətləndirmə; - meyar cədvəli; - refleksiya.**

Qiymətləndirmənin kəmiyyət üsulları: -**Təlim prosesində daha çox kəmiyyətcə qiymətləndirmədən istifadə olunur, yəni rəqəmlər vasitəsilə şagirdin əldə etdiyi nəticələr ümumiləşdirilir.**

| | |
|---|---|
| **Qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarına uyğun hazırlanır.**<br>**1-ci səviyyəli suallar- 20% 2 –ci səviyyə suallar- 30% 3-cü səviyyə suallar- 30%**<br>**4 –cü səviyyə suallar- 20 %** | **Şagidin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı**<br>**0-40% --2(qiymət)**<br>**40-60%--3(qiymət**<br>**60-80%--4(qiymət)**<br>**80-100%--5(qiymət)** |

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ(KSQ)

-Kiçik summativ qiymətləndirmə **bəhs və ya bölmənin sonunda** şagirdlərin standartlar üzrə əldə etdikləri nailiyyətləri qiymətləndirir.

-Kiçik summativ qiymətləndirmə fənni tədris edən **müəllim tərəfindən keçirilir.**

- Kiçik summativ qiymətləndirmə **vasitələri**(test və ya digər nəzəri suallar) də həmçinin **müəllim tərəfindən hazırlanır.**

-Kiçik summativ qiymətləndirmə fənn kurukulumları tətbiq olunan siniflərdə **bəhs və ya bölmələrin sonunda – hər tədris vahidinin sonunda 4 həftədən tez, 6 həftədən gec olmayaraq keçirilir.**

-Kiçik summativ qiymətləndirmənin nəticələri **sinif jurnalında və şagirdin məktəb kitabçasında** qeyd olunur.

-Kiçik summativ qiymətləndirmənin nəticələri **yarımillik qiymətləndirmənin hesablanmasında nəzərə alınır.**

- Kiçik summativ qiymətləndirmənin aparılması prosesi **bir dərs saatı vəya dərs saatının bir hissəsindəaparıla bilər.**Bu müddəti isə fənni tədris edən müəllim müəyyənləşdirir.

-Kiçik summativ qiymətləndirmə keçirildiyi gün **şagird dərsdə iştirak etməzsə,** sinif jurnalında şagirdin adının qarşısındakı xana diaqonalla iki yerə ayrılır, onun surətində"q"(qaib) yazılır, məxrəci isə boş qalır.Növbəti 2 həftə ərzində müəllim şagirdə kiçik summativ qiymətləndirməni apardıqdan sonra nəticəni məxrəcə yazır. (Qeyd: Müəllim həmin şagirdə növbəti kiçik summativ qiymətləndirmənin keçiriləcəyi tarixədək mütləq KSQ aparılmalıdır.

## BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ(BSQ)

-Böyük summativ qiymətləndirmə təlim prosesinə yekun vurmaqla şagirdin bilik və bacarıqlarının **səviyyəsi haqqında** qərar verir.

-Böyük summativ qiymətləndirmə şagirdlərin yarımil ərzində əldə etdikləri nailiyyətləri qiymətləndirir.

-Böyük summativ qiymətləndirmə **vasitələri** (test və yaxud digər nəzəri suallar) **Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tövsiyələri əsasında yerli təhsili idarə edən orqanlar və ümumi təhsil müəssisəsi rəhbərliyinin (məktəb rəhbərliyinin) təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır və onarın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. BSQ**-nin keçirilmə vaxtı nəzarərçi və yoxlayıçılar cəlb edilməklə, 1-ci və 2 –ci yarımilin sonuncu həftəsində xüsusi cədvəl əsasında müəyyənləşdirilir.Yarımil ərzində keçiriləcək yeni mövzuların tədrisi BSQ ilə yekunlaşır.

**-Böyük summativ qiymətləndirmə fənni** tədris edən müəllim tərəfindən hazırlanmır.

-Böyük summativ qiymətləndirmənin keçirilmə vaxtı **illik planlaşdırmada** qeyd olunur.

-Böyük summativ qiymətləndirmə fənnin**məzmunundakı əsas zəruri bilikləri** əhatə etməklə daha çox **tətbiqi bacarıqları yoxlamağa** xidmət edir.(asan, orta və çətin olmaqla hazırlanır).

-Böyük summativ qiymətləndirmənin nəticələri **illik qiymətlərin hesablanmasında nəzərə alınır.Yəni** şagirdin həm KSQ, həm də BSQ-nin nəticələri illik qiymətlərin hesablanmasında nəzərə alınır.

-Böyük summativ qiymətləndirmə yarımillərin sonunda (tədris ili ərzində cəmi 2 dəfə (qışda və yayda ) bir dərs saatı ərzində keçirilir.

- 1-ci yarımildə Böyük summativ qiymətləndirmədə üzürlü səbəbdən iştirak etməyən şagird dərsə qayıtdıqdan sonrakı bir ay ərzində böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir.

- Şgird 2-ci yarımildə üzürlü səbəbdən Böyük summativ qiymətləndirmədə iştirak etmədikdə ümumtəhsil müəssisəsinin pedaqoji şuranın qərarı ilə həmin şagirdin 2-ci yarımil üzrə qiyməti onun bu yarımildə iştirak etdiyi kiçik summativ qiymətləndirmələrin nəticələrinin ədədi ortası kimi müəyyənləşdirilir.( Məsələn, şagird KSQ 1(3 ALIB)+ KSQ 2 (4 alıb)+ KSQ 3(5 alıb)qiymətləri alıb.Toplayırıq,
3+4+5=12.Sonra isə ksq- lərin sayına bölürük 12:3=4. Beləliklə, şagirdin 2-ci yarımil üzrə BSQ qiyməti 4 olmuş olur.)

Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

-Yox əgər, şagird üzürsüz səbəbdən 2-ci böyük summativ qiymətləndirmədə iştirak etməyibsə, şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti “0” qəbul edilir. Böyük summativ qiymətləndirmə yalnız V-XI siniflərdə aparılacaqdır. BSQ-lər V-IX siniflərdə ümumi orta təhsil pilləsi üzrə buraxılış imtahanlarında nəzərdə tutulmuş fənlərdən, X-XI siniflərdə isə tam orta təhsil pilləsi üzrə buraxılış imtahanlarında nəzəerə tutulan fənlərdən həyata keçiriləcəkdir.Yarımil qiymətləri böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə KSQ ballarının ədədi ortası və ona uyğun qiymətə (“5” ballıq) əsasən yazılır.

BSQ aparılan fənlər üzrə isə yarımil balı

$$\mathbf{Y=}\ \frac{ksq1+ksq2+\cdots+ksq\ n}{n} \times \frac{40}{100} \mathbf{+BSQ} \bullet \frac{60}{100}$$

Düsturuna əsasən çıxarılır və həmçinin “5” ballıq şkala ilə də qiymətləndirilir.Göründüyü kimi, şagirdin yarımil ərzində keçirilən kiçik summativqiymətləndirmələrin yekun nəticələrinin 40%-i ilə, yarımillik sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsinin 60%-nin cəmi əsasında bu düsturla çıxarılır.Burada **“Y” şagirdin 1-ci və 2-ci yarımil üzrə qiymətini**

**göstərir.; "KSQ1, KSQ2, KSQ"-** kiçik summativ qiymətləndirmələrin nəticələrini göstərir. **"BSQ"-** yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini göstərir."**n"** –yarımildə keçirilmiş kiçik summativlərin sayını göstərir; **40/ 100–ın** açıqlaması: "**40"-**qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1-ci və 4-cü səviyyələrin toplanmasından(1-cisəviyyə 20%-i və 4-cü səviyyə 20%- i toplanmasından alınır – 20%+20%=40%) hazırlanır.

**-60/100 –ın** açıqlanması: "60"-qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 2-ci və 3-cü səviyyələrin toplanmasından (2-ci səviyyə 30%-i və 3-cü səviyyə 40%-i toplanmasından alınır- 30%+30%=60% hazırlanır. Gördüyümüz kimi,**İllik qiymətləndirmə** 1-ci və 2-ci yarımil qiymətləndirməyə əsasən müəyyən olunur.Qeydedək ki, şagirdinyarımillik və illik qiymətləri çıxarılarkən yuvarlaqlaşdırma qaydası tətbiq edilir.Məsələn şagird 1-ci yarımildə (Y1) aparılmış kiçik summativ qiymətləndirmələrdə **3,4,5 və** böyük summativ qiymətləndirmədə **4** qiymət aldıqda, onun yarımil üzrə qiyməti aşağıdakı kimi

**12:3(ksq-lərin sayı)=4. Və (3+4+5):3×40/100+4(bsq)×60/100=1,6+2,4=4 Deməli,**şagird 1-ci yarımildə **4** almış olur. Şagird 2-ci yarımildə (Y2)aparılmış kiçik summativ qiymətləndirmələrdə **3,3,4 və** böyük summativ qiymətləndirmədə **3** qimət aldıqda, onun yarımil üzrə qiyməti aşağıdakı kimi hesablanır. **3+3+4= 10(ksq-lərin cəmi); 10:3(ksq-lərin sayı)** ≈3, 333 **Və,(3+3+4):3×40/100+3(bsq)×60/100= 1,3+1,8=3,1≈3. Deməli,şagird 1-ci yarımildə 3 alməş olur.**

## PEDAQOGİKANIN OBYEKTİ, PREDMETİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ PLAN:

1. **Pedaqogikanın məqsəd və vəzifələri**
2. **Pedaqogikaların nəzəri funksiyaları**
3. **Pedaqogikanın texnoloji funksiyaları**

**"PEDAQOGİKA – tərbiyə,təlim və tədrisin(təhsilin) forma və metodlarını öyrənən insanları bilik, bacarıq, vərdişlərə yiyələndirərək, onlarda cəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydalarına uyğun münasibət formalaşdırar- aq, həyata hazırlanması haqqında elmdir"**

**Pedaqogika nəzəri və tətbiqi elmdir.**Məlum olduğu kimi, vahid olan elmin hər bir sahəsi başqa sahələrindən üç mühüm əlamətinə görə fərqlənir:1) Hər bir sahənin özünün xüsusi tədqiqat obyekti obyekti və buna uyğun predmeti vardır; 2) Hər bir sahə özünün obyektini öyrənmək üçün tədqiqat istifadə edir; 3) Hər bir sahənin tədqiqat obyektinə uyğun olan anlayışlar sistemi fəaliyyət göstərir.Pedaqogikanı

başqa elm sahələrindən fərqləndirən birinci əlamət onun özünəməxsus tədqiqat obyektinə malik olmasıdır.Bu obyekt bəşəriyyətin əldə etmiş olduğu təcrübəni yeni nəsillərə verməyin spesifik xüsusiyyətləri ilə xarakterizə olunur.Bu obyekt bəşəriyyətin əldə etmiş olduğu təcrübəni yeni nəsillərə verməyin spesifik xüsusiyyətləri ilə xarakterizə olunur.Təcrübənin verilməsinin qanunauyğunluqlarını, prinsiplərini, yollarını pedaqogika elmindən başqa, heç bir elm özü üçün spesifik obyekt hesab edə bilməz.Həmin obyektdə(yəni təcrübənin verilməsi prosesində) fəaliyyət göstərən qanunauyğunluqlar, prinsiplər, metodlar və s.məhz pedaqogikanın anlayışlar sistemini təşkil edir.Pedaqogika öz obyektini öyrənmək üçün pedaqoji müşahidə, pedaqoji müsahibə, pedaqoji eksperiment kimi tədqiqat metodlarından istifadə edir ki, başqa elmlərdə həmin metodlar özünü pedaqogikada olduğu kimi biruzə vermir.Pedaqogika özünün tətbiqi hissəsi üçün baza elmidir.Nəzəri pedaqogika pedaqoji elmlər sisteminə daxil olan bütün elm sahələri üçün baza elmidir.Onların hamısının elmi- nəzəri əsasını müasir nəzəri pedaqogika təşkil edir.Pedaqogika hər şeydən əvvəl umumi psixologiya, uşaq psixologiyası, pedaqoji psixologiya və sosial psixologiya ilə əlaqədardır.Bioloji elmlər, fiziologiya, gigiyena ilə pedaqogikanın əlaqəsi qaçılmazdır.İnsanın təlim və tərbiyə prosesi pedaqogikanın obyektini təşkil edir.Bu proseslə bağlı nəticəyə yönələn müxtəlif pedaqoji əməliyyatlar isə ümumilikdə təhsil pedaqogikasının predmetidir.Obyekt və predmet anlayışı bir-biri ilə sıx bağlıdır və bunların arasında oxşar cəhətlər olsa da, bir-birlərindən fərqlidirlər.Yadda saxlamaq lazımdır ki, **obyekt anlayışı predmet anlayışından geniş mənaya malikdir.(obyekt >predmet).** Yəni obyektləri bir məfhumu əhatə etsə də, predmetləri fərqlidir.Bir növ, humanitar elmlər obyektdir, onun tərkibində olan sahələr isə onun predmetləridir.**Məsələn:- Ədəbiyyat və Rəsm xəttin obyekti həyatı təsvir etməkdir: ədəbiyyat həyatı sözlə təsvir edir, rəsm isə şəkillərlə təsvir edir. - Botanika və Zoologiyanın obyekti canlıdır , lakin predmetləri fərqlidir: biri bitkiləri öyrənir, digəri isə heyvanları tədqiq edir.- Pedaqogika və Psixologiyanın obyekti insandır: pedaqogika insanın `təlim-tərbiyəsini, onları nə vaxt necə istifadə edəcəyimizi öyrədir, psixologiya isə insanın qavrayış, təxəyyül,təfəkkür, diqqət formalaşdırır.-Fizikanın da kimyanın da obyekti təbiətdir,lakin həmin elmlər təbiəti müxtəlif aspektdə öyrənir: biri maddələr və onların çevrilməsini öyrənir, digər isə fiziki hadisələri tədqiq edir**.Gördüyümüz kimi ikinci obyekt orjinalla, predmet isə həmin orjinalın modeli ilə, hissəsi ilə əlaqədardır.Eyni
orjinalın müxtəlif ola bilər, lakin bu modellər əsla bir-birini təkrar etmir.Məsələn, həm mühəndisin çəkdiyi çertyoj, həm də evin fotoqraf tərəfindən çəkilmiş şəkli ”ev” orjinalı üçün model yerində çıxış edir.Çertjoj və fotoqrafiya müxtəlif elmlərin mövzularına daxil olan modellərdir: çertyoj həndəsə, fotoqrafiya isə fizika elmi ilə əlaqədardır.Pedaqogika da, psixologiya da insan haqqında elmdir, lakin

psixoloqun əldə etdiyi modellə pedaqoqun əldə etdiyi model bir-birini əsla təkrar etmir.**Pedaqogikanın obyekti pedaqoji gerçıklikdən ibarətdir.**Pedaqoji gerçəklik dedikdə insanın həyata hazırlanmasını, onun hərtərəfli və ahəngdar inkişafına rəhbərlik prosesini, həyata hazırlayanla həyata hazırlanan arasındakı qarşılıqlı əlaqə nəzərdə tutulur.**Pedaqogikanın predmeti pedaqoji gerçəkliyin pedaqoji modelindən ibarətdir.**Harda ki, təcrübənin verilməsi vardır, orada pedaqoji
gerçəklik mövcuddur; pedaqoji proses isə pedaqoji gerçəklikdən dar anlayışdır.Yəni, o, ümumiyyətlə təcrübənin verilməsi deyil, yalnız müəyyən tip müəssisələrdə, yəni təlim-tərbiyə müəssisələrində özünü göstərən pedaqoji gerçəkliyi əhatə edir.Təcrübənin verilməsində məqsəd yeni nəsilləri həyata hazırlamaqdan ibarətdir.Bu mənada pedaqogikanı insanın həyata hazırlanması haqqında elm adlandırmaq olar.”**Təcrübə”anlayışına aşağıdakılar daxildir: biliklər sistemi; münasibətlər sistemi: bacarıq və vərdişlər sistemi; yaradıcılıq təcrübəsi.Biliklərin yeni nəsillərə verilməsi sayəsində təbiət, cəmiyyət və təfəkkürün ümumi sirləri öyrədilir; münasibətlərin öyrədilməsi geniş mənada davranış qaydaları sistemini, normalarınımənimsəməyə gətirib çıxarır; bacarıq və vərdişlər yeni nəsilləri maddi və mənəvi mədəniyyətin mühafizəsinə,**
**bərpasına yönəldir; yaradıcılıq təcrübəsi isə mədəniyyəti daha da inkişaf etdirməyə, zənginləşdirməyə şərait yaradır.**Bir elm kimi pedaqogikanın funksiyaları(vəzifələri) onun prtedmeti ilə şərtlənir, hansı ki, bu funksiyalar nəzəri və texnoloji olmaqla iki yerə bölünür.**Pedaqogika özünün nəzəri və texnoloji funksiyalarını vəhdətdə həyata keçirir.**

| **NƏZƏRİ FUNKSİYALAR(TİDP)** **(**müəllim olmamışdan əvvəl) | **TEXNOLOJİ FUNKSİYALAR(LDRK)** (müəllim olduqdan sonra) |
|---|---|
| **1.Təsviredici və izahedici səviyyə.(**bu qabaqcıl pedaqoji təcrübəni öyrənməkdir) | **1.Layihə səviyyəsi(**buraya tədris planları, proqramları,dərslik və dərs vəsaitlərinin, pedaqoji tövsiyələrin işlənib hazırlanması və s. daxildir) |
| **2.Diaqnostik səviyyə (**bu, pedaqoj hadisələrin vəziyyətini, pedaqoqun və şagirdlərin səmərəli fəaliyyətini, onları təmin edən şəraiti və səbəbləri üzə çıxarmağı nəzərdə tutur) | **2.Dəyişdirici səviyyə (**bu səviyyədə pedaqoji elmin nailiyyətləri təhsil praktikasını təkmilləşdirmək və yenidən qurmaq məqsədilə tətbiq olunur);(Dərs keçdiyin sinfi səviyyəsini qaldırmaq və təhsil praktikasını yenidən qurmaq üşün təkmilləşdirici işlər görürsən) |
| **3.Proqnostik səviyyə(**bu, pedaqoji gerçəkliyi eksperimental yolla tədqiq etmək və onun əsasında varlığı dəyişdirməyin **modelini** qurmağı nəzərdə tutur).Şagird haqqında artıq | **3.Refleksiv və korrektiv səviyyə (**bu səviyyə elmi-tədqiqatların təhsil-tərbiyə praktikasına təsirinin yekunlarını qiymətləndirməyi və sonradan elmi-nəzəriyyə ilə praktik fəaliyyətin qarşılıqlı |

| | |
|---|---|
| proqnoz verə bilirsən. | təsirini korreksiya etməyi nəzərdə tutur); (Şagirdlərə təkcə bilik verməklə kifayətlənmir, həmçinin onların tərbiyəsinə diqqət yetirərək korreksiyalar edirik). |

**Pedaqogikanın müxtəlif bölmələri fərqləndirilir.**Ənənəvi olaraq fərqləndirilən bölmələr bunlardır: **1. Pedaqogikanın ümumi əsasları; 2. Didaktika; 3.Tərbiyəşünaslıq; 4.Məktəbçünaslıq.**

## 20. ƏSAS PEDAQOJİ ANLAYIŞLAR

## SİSTEMİ PLAN:

1. **Təlim anlayışı. Differensial təlim**
2. **Tərbiyə, yenidəntərbiyə və özünütərbiyə**
3. **Təhsil anlayışı**
4. **İnkişaf və pedaqoji proses**

Çoxəsirlik tarixə malik olan pedaqoji terminalogiya bir sıra elmlərin qarşılıqlı təsiri və üzvi əlaqəsi nəticəsində təşəkkül tapmış, inkişaf edərək zənginləşmişdir.Pedaqo –gika varlığı anlayışlar formasında mənimsəyən elmlərdən biri olduğu üçün özünün anlayış sisteminin təkmilləşməsinə həmişə ehtiyac duymuşdur.Şərti olaraq **təlim, tərbiyə, təhsil, inkişaf, pedaqoji proses pedaqogikanın əsas anlayışları hesab oluna bilər.Təlim anlayışı.Müəllimin rəhbərliyi altında bilik, bacarıq və vərdişlər qazanmağa yönəlmiş pedaqoji prosesdir.**Təlim ərəb sözüdür"aləmə" kökündən olan "təlim,öyrətmə,elmi nəzəriyyə" mənalarında işlədilir.Təlim- öyrədənlə öyrənənlər arasında qarşılıqlı fəaliyyətə əsaslanan pedaqoji proses olaraq, öyrədən şəxsin öyrənənlərdə şüurun,intellektual səviyyənin, mənəvi, əxlaqi və psixoloji keyfiyyərlərin inkişafına , bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə istiqamət verir, əlverişli şərait və imkan yaradır. Təlim ikitərəfli pedaqoji prosesdir: öyrədənlə öyrənənlər arasında qarşılıqlı, məqsədyönlü,planlı pedaqoji fəaliyyətdir.Öyrədən şəxs təlim zamanı üç istiqamətdə fəaliyyət göstərir.

1. Bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təşkil edir, bu məqsədlə məsləhətli istiqamət verir.
2. Həmin bilik və bacarıqlar vasitəsilə öyrənən şəxslərdə şüurun,psixikanın, intellektual səviyyənin inkişafına diqqət yetirir.
3. Zəruri olan mənəvi, əxlaqi, psixoloji keyfiyyətlərin aşılanması qayğısına qalır.

**Təlim həm təhsilləndirici, həm tərbiyəedici, həm də inkişafetdirici vəzifələri kompleks həyata keçirir.**

**DİFFERNSİAL TƏLİM–**Təhsialanın **şəxsiyyətinə yönəlmiş** təlimdir.Diferensial təlim – təlimi**fərdiləşdirməyə** imkan verir. Təlimdə diferensiya bir neçə istiqamətdə aparıla bilər:- Təhsilalanların qabiliyyətlərinə görə(ümumu qabiliyyətlər xüsusi qabiliyyətlər və s.); - Təhsilalanların maraqlarına görə; - Təhsilalanların ixtisasına görə. Diferensial təlim müxtəlif səviyyəli təlim – təhsil-tərbiyə prosesinin elə elə təşkilini nəzərdə tutur ki, hər bir təhsialanın tədris materialını öz qabiliyyətinə və öz imkanlarına uyğun şəkildə mənimsəmək imkanı əldə etsin.

**TƏRBİYƏ anlayışı .TƏRBİYƏ – davranışla əlaqədar olan mənəvi keyfiyyətlərin məqsədyönlü, planlı və mütəşəkkil şəkildə formalaşdırılması prosesidir.Yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və təcrübənin yetişən nəslə məqsədyönlü,planlı, mütəşəkkil şəkildə verilməsi, öyrənilməsidir.** Demək, tərbiyə etmək həm də öyrətmək deməkdir.Tərbiyə prosesində həm təlim prosesi, təlim prosesində də tərbiyə prosesi mövcuddur.Tərbiyə- təlim, məlumat verməklə hər hansı bir adət, ədəb və davranış qaydalarını aşılamaqla yetişdirib böyütmə,ərsəyə çatdırma deməkdir.İnsanın ümumi mədəni inkişafı, sistematik təsir və təlim nəticəsində biliyə, əxlaqi vərdişlərə yiyələnməsi həm də gözəl əxlaqa sahib olması deməkdir. Dilimizdə tərbiyə anlayışı ədəb, əxlaq sözü ilə də yaxın mənalarda işlənir. Ədəb sözü ərəb dilində "nəzakətli ,tərbiyəli, ədəbli olmaq" mənalarını verən " ədəbə" kökündən əmələ gəlmişdir. Əxlaq sözü isə ərəbcə "xəlq"(mənası "yaratma,səciyyə,xarakter") sözünün cəmi olub, insanın təbiətində olanxasiyyətlə- ri və davranışları, eləcə də həyatı boyu qazandığı keyfiyyətləri və xasiyyətləri yaratmaq,səciyyələndirmək tərbiyə etmək deməkdir.

**YENİDƏNTƏRBİYƏ .**Yenidəntərbiyə tərbiyəyə nisbətən çətin və mürəkkəb pedaqoji prosesdir.Yenidəntərbiyə zamanı tərbiyəçi iki əsas istiqamətdə iş aparmalı olur.O, bir tərəfdən uşağın şüurunda həkk olunmuş arzuolunmaz, zərərli əxlaqi və ya digər mənəvi keyfiyyətlərin yanlışlığını isbat etməli, onu inandırmalıvə aradan qaldırmalıdır.Digər tərəfdən də tərbiyəçi cəmiyyət üçün faydalı olan yeni keyfiyyətləriuşağa aşılamalıdır.Yalnış və yz zərərli mənvi keyfiyyətləruşağın şüurundan davranışına süzüldükdə tərbiyəçinin işi daha da çətinləşir. O nəinki uşağın mənəvi aləminə, həm də əməlinə davranış tərzinə təsir göstərməli olur.
Odur ki, uşağın tərbiyəsini lap balacalıqdan düzgün qurmaq zəruridir.**Uşağın şüurunda və ya davranışında kök salmış zərərli əlamətlərin ləğvi, onarın əvəzində ict**imai**əhəmiyyət kəsb edən keyfiyyətlərin uşaqlara aşılanması yenidəntərbiyədir.**

**ÖZÜNÜTƏRBİYƏ.**Tərbiyə də yenidəntərbiyə də özünütərbiyə ilə nəticələnməlidir. Özünütərbiyə yaxşı tərbiyənin nəticəsidir.Tərbiyə və yenidəntərbiyə zamanı uşağa özünütərbiyə bacarığı verilməlidir.Bəzi uşaqlar və yeniyetmələr valideyinlərin,müəllimlərin və digər tərbiyəçilərin bilavasitə nəzarəti olmayan

şəraitdə düzgün düşünə və düzgün hərəkət edə bilmirlər.Valideyinlərin, müəllimlərin, digər tərbiyəçilərin nəzarəti olmadığı şəraitdə onların verdiyi istiqamətə uyğun düşünməyə və davranmağa uşaqların alışması prosesi özünütərbiyədir.

**TƏHSİL ANLAYIŞI.**Pedaqogika elminin başlıca anlayışlarından olan "təhsil" sözü ərəb dilində "hasil", "məhsul" mənalarını verən "həsələ" kökündən əmələ gəlmişdir.Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda yazılmışdır: "**Təhsil – sistemləşdirilmiş bilik, bacarıq, təcrübə və vərdişlərin mənimsənilməsi prosesi və onun** nəticəsidir**".**Təlim və tərbiyənin nəticəsində təhsil meydana gəlir. Elm və məlumat əldə etmə, müntəzəm surətdə oxuyub – öyrənmək sayəsində əldə edilmiş bilik, bacarıq və təcrübənin məcmusudur. Hər bir dövlətin və millətin inkişafında onun təhsilinin müstəsna rolu var. **Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək,onun həyata hazırlanması məqsədi ilə sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi və onun nəticəsidir.**

**-İNKİŞAF –**insanın orqanizmində kəmiyyət (bioloji inkişaf) və keyfiyyət( cəmiyyət üçün yararlı insan) dəyişiklikləri prosesi və onun nəticəsidir.Şəxsiyyətin inkişafı obyektiv aləmin mürəkkəb prosesidir.Müasir elm bu prosesi dərindən öyrənmək üçün şəxsiyyətin inkişafının fiziki, psixi, mənəvi, sosial və digər komponentlərini (tərəflərini) göstərmişdir.Ona görədə elmdə insanın bioloji, psixoloji və sosial inkişafı anlayışları işlədilir.Pedaqogika şəxsiyyətin inkişafının həmin komponentləri ilə qarşılıqlı əlaqədə onun mənəvi inkişaf problemlərini də öyrənir. Pedaqogika elmində şəxsiyyətin inkişafı dedikdə onun daha çox psixi, mənəvi inkişafı başa düşülür.Yəni, iradi keyfiyyətlər, yaddaş, hafizə, təsəvvür, təxəyyül, təfəkkür, diqqət, məsuliyyət və s. psixoloji keyfiyyətlər təlim və tərbiyə prosesində inkişaf edir.Şəxsin malik olduğu psixoloji xüsusiyyətlər pedaqoji prosesdə istər-istəməz, obyektiv şəkildə müəyyən dərəcədə inkişaf edir.Pedaqoji prosesin bu imkanını bilən və onu öz işində nəzərə alan müəllimlər və digər tərbiyəçilər həmin inkişafın səviyyəsini xeyli yüksəldə bilirlər.Bu mənada inkişaf pedaqoji prosesin həm zəmini olur, həm də nəticəsinə çevrilir.

**PEDAQOJİ PROSES: -**Pedaqoji proses deyərkən təlim,tərbiyə, və təhsilin habelə bunlarla əlaqədar olan inkişafın vəhdəti nəzərdə tutulur.Pedaqoji proses – **Təlim-tərbiyə prosesində öyrədənlərin müxtəlif pedaqoji üsul və vasitələrdən istifadə etməklə öyrənənlərin təlim və tərbiyəsinin pedaqoji əsaslar üzərində təşkilidir.**Pedaqoji proses cəmiyyətin yaranması və inkişafı ilə birlikdə yaranmış və inkişaf etmişdir.Cəmiyyətin ehtiyaclarına uyğun olaraq pedaqoji prosesin məzmunu, təşkili formaları, metod və prinsipləri dəyişmiş və təkmilləşdirilmişdir.Elmin termininin dəqiqliyi, birmənalılığı onun əsas

keyfiyyətlərindədir.Qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllimlərlə şagirdlərin qarşılıqlı təsirinə **pedaqoji proses deyilir. Pedaqoji proses dedikdə, şəxsiyyətin tərbiyəsi,təhsili, və inkişafı ilə bağlı aparılan bütün məqsədyönlü, planlı və mütəşəkkil işlər nəzərdə tutulur.Pedaqoji proses tam və mürəkkəb sistemdir.Pedaqoji proses dinamik sistemdir.**Onun öz strukturu(quruluşu) strutur elementləri(komponentləri) vardır.Pedaqoji proses öz məqsədi, vəzifələri, məzmunu, metodları, müəllim və şagirdlərin qarşılıqlı təsir formaları sayəsində əldə olunmuş nəticələri ilə xarakterizə olunur.Məqsəd, məzmun, fəaliyyət və nəticə komponenti – sistem yaradan komponentlərdir. (MMFN komponentlər).**1. Məqsəd komponenti** pedaqoji fəaliyyətin bütün müxtəlif məqsəd və vəzifələrini birləşdirir.**2. Məzmun komponenti** konkret vəzifəyə qoyulan mənanı əks etdirir.**3. Fəaliyyət komponenti** pedaqoq və şagirdlərin qarşılıqlı təsirini,onların əməkdaşlığını, prosesin təşkili və idarə olunmasını əks etdirir.Pedaqoji ədəbiyyatda bu komponentə təşkilati və ya təşkilati-idarəetmə komponenti də deyilir.**4. Nəticə komponenti** isə prosesin baş verməsinin səmərəliliyi, qarşıya qoyulmuş məqsədə uyğun olaraq əldə olunmuş nailiyyətlərlə xarakterizə olunur.Pedaqoji prosesin komponentləri arasında əlaqələr vardır.Qarşılıqlı pedaqoji təsir prosesində informasiya, təşkilati – fəaliyyət və kommunikativ, idarəetmə və özünüidarə əlaqələri özünü göstərir.Vaxt pedaqoji prosesin nə qədər tez və keyfiyyətli keçməsi barədə fikir söyləməyə imkan verən unversal meyardır.Qarşılıqlı pedaqoji təsirin təzahür formaları müxtəlifdir: **məlumat əlaqəsi, təşkilati fəaliyyət əlaqəsi, ünsiyyət əlaqəsi, idarə əlaqəsi, meyli üzə çşxaran əlaqə.**

## 21.PEDAQOJİ TƏDQİQAT METODLARI VƏ ONLARIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**PLAN:**

1. **Müşahidə, müsahibə, anketləşdirmə**
2. **Pedaqoji eksperiment, pedaqoji tədqiqatda riyazi üsullar**
3. **Pedaqoji test, İnduktiv və Deduktiv metodlar.**

**Pedaqoji metodologiya elmi pedaqoji tədqiqatların əsas qaydaları, quruluşu, funksiyaları və metodları haqqında təlimdir.**

**Pedaqoji tədqiqatların komponentləri ardıcıllığı :** Predmeti, vəzifələri, metodları, texnologiyası. Tədqiqat üsulları çoxdur.Onları mənbələrinə görə şərti olaraq şərti olaraq **beş qrupa** bölmək olar: **1. Nəzəri tədqiqat üsulları; 2. Praktik tədqiqat üsulları; 3. Eksperimental tədqiqat üsulları; 4. Tarixi müqayisəli tədqiqat üsulları; 5. Riyazi üsullar.**

**Nəzəri tədqiqat metodlarına** ideallaşdırma, formalaşdırma və ekstrapolyasiya, abstraktdan konkretə yüksəlmə, aksiomatik metodlar daxildir.

**EMPİRİK –NƏZƏRİ METODLARA –**(empirizmə əsaslanmaq yəni "yalnız təcrübəyə əsaslanmaq" deməkdir.Yunan dilində "emperia" təcrübə, praktik işlə məşğul olmaq deməkdir.Empirik metod: nəzəri yox, təcrübə əsasında alınan üsul, mmetoddur).Təhlil və tərkib, induksiya, deduksiya, mücərrədləşdirmə və konkretləşdirmə, model və modelləşdirmə daxildir.

**Empirik metodlara** isətədqiqatla bağlı ədəbiyyatın təhlili, təhlillə bağlı məktəb sənədlərinin öyrənilməsi, məktəbəqədər yaşlı uşaqların, şagirdlərin, müəllimlərin fəaliyyətinin öyrənilməsi, müşahidə, müsahibə, pedaqoji təcrübənin öyrənilməsi, ekspert xidməti, monitorinq, təcrübi iş, pedaqoji eksperiment aiddir.Elmi ədəbiyyatda pedaqoji axtarışlar prosesində daha çox aşağıdakı metodlardan istifadə olunduğu qeyd edilir: **1. Pedaqoji hadisələrin nəzəri təhlili; 2. Müşahidə; 3. Müsahibə; 4. Təcrübənin öyrənilməsi; 5. Eksperiment; 6. Tədqiqatın nəticələrinin riyazi və statistik işlədilməsi; 7. Dar pedaqoji problemlərin tədqiqində istifadə olunan xüsusi metodlar.**

**MÜŞAHİDƏ pedaqoji tədqiqat metodu kimi.** Pedaqoji – psixoloji tədqiqatların təşkilində ən çox istifadə olunan və geniş yayılmış metod **müşahidə** metodudur.Müşahidə bizi əhatə edən varlığın uzun müddət ərzində məqsədə yönəlmiş, **planlı şəkildə qavranılmasıdır.** Müşahidə bizi əhatə edən varlığı dərketmə mənbəyi olmaqla fikrimizə təkan verir.Adi seyretmədən fərqli olaraq müşahidə məqsədli, planlaşdırılmış bir proses olduğundan dərketmə prosesinin təminatçı rolunu oynayır.Müşahidə zamzını şagird əşya və hadisə üzərində fikri fəaliyyət göstərir, hadisənin müəyyən cəhətini fərqləndirir, onları bir-biri ilə əlaqələndirir.Müşahidə ətraf aləm haqqında əldə olunmuş nəticə ümumiləşdirmələrin həqiqiliyini praktikada yoxlamağa imkan verir.

1. **Məqsədyonlülük. 2. Təhlil xarakterikliyi. 3. Komplekslilik. 4. Sistematiklik.**

Pedaqoji tədqiqatlarda müşahidə metodunun müxtəlif növlərindən istifadə olunur.Bəzi halda tədqiqatçı müşahidə aparan qrupun üzvü olur, bəzilərində isə kənardan müşahidə aparır.Müşahidə **açıq və gizli, geniş və məhdud, sistematik və epizodik** ola bilir.Geniş(və ya bütöv) müşahidə adətən obyekti tam əhatə edir.Bu zaman müşahidəçi müvafiq qanunauyğunluğu çıxarmaq üçün daha çox məktəbi, sinfi, şagirdi əhatə edir.Məhdud müşahidə bir növ seçmə xarakter daşıyır.Məsələn, şagirdin idrak fəaliyyətinin müşahidəsi. Sistematik müşahidə uzunmüddətli müşahidədir.O, xeyli müddət davam edir. Epizodik müşahidə dövrü xarakter daşıyır və ona nisbətən az vaxt sərf olunur. Bəzi hallarda müşahidə metodu baş vermiş müəyyən bir hadisənin, öyrəniləcək

təlim-tərbiyə məsələsinin səbəbini aşkar etmək üçün(şagirdin dərsə hazır gəlməməməsinin, ev tapşırığını həll etməməsinin, sinifdə nizam-intizamın pozulması və s. səbəbini öyrənmək üçün) əlverişli olmur.Ona görə də müşahidə metodundan istifadə olunur.

**MÜSAHİBƏ.**Bu metodun köməyi ilə hər hansı pedaqoji fakt və hadisəyə müəllimlərin, şagirdlərin və valideynlərin münasibəti müəyyən olunur, müəyyən təlim-tərbiyə hadisəsi başqaları ilə söhbət etmək vasitəsilə öyrənilir. Pedaqoji müsahibəni planlaşdırmaq tələb olunur.Müsahibənin kimlərlə və nə məqsədlə aparılacağı, hansı sualların və nə üçün məhz həmin sualların veriləcəyi əvvəlcədən ətraflı ölçülüb biçilir.Bu metod əsasən informasiya əldə etmək və ya müşahidə zamanı aydın olmayan məsələləri aydınlaşdırmaq məqsədilə aparılır.Tədqiqat metodu kumi müsahibə daha canlı və təbii səciyyə daşıyır. Müsahibənin dörd növü vardır: 1. **Ümumi müsahibə (**qabaqcadan mövzusu müəyyən olunmuş mesahibə; **2. Müəyyən problem üzrə aparılan müsahibə;** ( Məsələn, hər hansı mövzuda ziddəyitli fikirlər üzrə aparılan müsahibə); **3. Qabaqcadan müəyyən olunmuş suallar üzrə aparılan müsahibə; (**Diaqnostik qiymətləndirmə). **4. İntervü** (əvvəlcədən planlaşdırılmış suallar əsasında aparılırvə alınan cavablar yazılmaqla aparılır). Müsahibə zamanı xöşa gəlməyən həyacan yarada biəcək hallardan qaçmaq lazımdır.**Müsahibə** təbii mühitdə (ailə şəraitində, sinifdə şən əhval ruhiyyə yarandıqda, ekskursiya, gəzinti, əyləncə, istirahət zamanı) aparılmalıdır.

**-ANKETLƏŞDİRMƏ.**Əsasən sorğu vərəqələri ilə reallaşdırılır. Anketləşmə metodu mahiyyət etibari ilə müsahibə metodunun **yazılı şəklidir.** Bu metodun tətbiqində başlıca məsələ anketin məzmunlu, dəqiq t**ətbiq edilməsidir.** Anket üçün suallar əvvəlcədən seçilir və mümkün olan yazılı cavablar da müəyyənləşdirilir. Anketləşdirmə ehtimallara əsaslanır.Hazırda pedaqoji tədqiqatlarda **açıq və gizli, adlı və adsız, və s. anket sorğularından** (Məsələn, məktəbdə hansı yenilikləri görmək istərdiniz, nələrdən razı, nələrdən narazısınız kimi anket sorğuları açıq və ya gizli, adlı və ya adsız formada aparıla bilr) istifadə olunur.Aqnketdə mahiyyət yaxşı açılmalı, o, cavab verənin işini asanlaşdırmalıdır.Anketdə qapalı və açıq suallar verilir.

**Pedaqoji eksperiment - müəyyən pedaqoji fərziyyəni yoxlamaq metodudur.** Pedaqoji eksperiment tədqiqatın məqsədinə uyğun olraq yeni şərait yaratmaq yolu ilə pedaqoji hadisəyə fəal təsir göstərir.Eksperiment təlim tərbiyə prosesinin gedişində planlaşdırılmış şəkildə məqsədyönlü dəyişikliklər aparmağa, pedaqoji faktorların təsiri ilə xüsusi yaradılmış ictimai tərbiyəvi mühitdə şəxsiyyətin tərbiyəsinin bu və ya digər cəhətini öyrənməyə imkan verir.Ekperimentin gedişində hadisələri daha əlverişli şəkildə öyrənmək üçün

süni yolla məqsədyönlü dəyişmək, yaxud yenidən yaratmaq mümkün olur. Beləliklə, hadisə prosesə nəzarət edilən və idarəə olunan şəraitdə öyrənilıir.Pedaqoji eksperiment planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır: 1. Eksperimentin məqsədi. 2. Eksperimentin həcmi. 3. Eksperimentdə iştirak edən şəxslərin xarakteristikası. 4. Eksperiment üçün istifadə olunan materialın təsviri. 5. Eksperimentin keçirilmə metodikası. 6. Eksperimentin keçirilmə yeri və vaxtı və s.. Nəzəri cəhətdən qısamüddətli eksperiment labarator şəraitdə bir- iki saat ərzində reallaşdırıldığı halda, didaktik eksperiment üzunmüddətli olur.Pedaqoji eksperiment yerinə yetirdiyi vəzifələrə görə üç növə ayrılır: **müəyyənləşdirici (diaqnostik), öyrədici, yoxlayıcı.**

**Pedaqoji tədqiqatda riyazi üsullar.**Pedaqoji tədqiqatda riyazi üsullar, adətən, digər üsulların tərkibində tətbiq edilir və bu zaman iki əsas məqsəd güdür: a)**toplanmış pedaqoji faktlarda** faktlarda baş verən keyfiyyət dəyişikliklərini dəqiqləşdirmək; b) həmin faktlar arasındakı kəmiyyət asılılığını təyin etmək. Nəticə etibarilə riyazi üsullar pedaqoji qanunauyğunluqların elmi cəhətdən dəqiq ifadə olunmasına şərait yaradır və tədqiqatın elmiliyini yüksəldir.Pedaqoji tədqiqatda istifadəsi faydalı olan riyazi üsullar çoxdur.Orta riyazi göstəricilərin hesablanması, dispersiya əməliyyatı, variantlıq əmsalının tapılması və s.Təlim və tərbiyə problemlərinin öyrənilməsi zamanı daha geniş istifadə edilən sadə riyazi üsullar bunlardır: **qeydəalma, nizamlama və qiymətləndirmə.**

**Qeydəalma – toplanan pedaqoji faktların və ya hadisələrin hər birində müvafiq əlamətin olduğunu** müəyyənləşdirmək, habelə bu cür əlamətin xas olmadığı faktların ümumi moiqdarını təyin etmək prosesidir.

**Nizamlama-** toplanmış pedaqoji faktların müəyyən ardıcıllıqla düzülməsi prosesidir.Bu üsuluntətbiqində iki cəhət nəzərə alınır.a) faktların eyni əlamət üzrə düzülməsi; b) faktların düzülməsində həmin əlamətingetdikcə gücləndiyinin və ya zəiflədiyinin müəyyənləşdirilməsi.

**Qiymətləndirmə-** pedaqoji faktların ayrı-ayrı əlamətlərini rəqəm göstəriciləri ilə əvəz etməyə imkan verir. Pedaqoji faktların müvafiq əlamətləri rəqəm göstəriciləri ilə ifadə olunduqda diqqətdən yayına biləcəkqaninauyğunluğu tapmaq asandır.

**Pedaqoji test** pedaqoji prosesin öyrənilən tərəfini ciddi nəzarət olunan şəraitdə obyektiv öyrənməyə imkan verən məqsədyönlü **hamı üçün eyni zamanda keçirilən yoxlamadır.**Başqa yoxlama metodlarından fərqli olaraq test dəqiqliyi, sadəliyi, avtomatlaşdırma imkanları ilə seçilir.Pedaqogikada test, hər

şeydən əvvəl, şagirdlərin təlim müvəffəqiyyətini yoxlamaq üçün tətbiq olunur.Bu məqsədlə “müvəffəqiyyət”, “ yekun”,” surət”, və şagirdlərin “əqli inkişaf səviyyəsini” müəyyənləşdirən testlərdən geniş istifadə edilir.

**İnduktiv və Deduktiv metodlar.** Bunlar empirik yolla alınan məlumatları məntiqi ümumiləşdirmə metodlarıdır.**İnduktiv** (indi keçirilən dərs)metod fikrin inkişafının xüsusi mühakimələrdən **ümumi nəticələrə** doğru getməsini nəzərdə tutur.**Deduktiv (təkrar keçirilən dərs)** metodda əksinə olur, fikir ümumi mühakimədən xüsusi nəticəyə doğru inkişaf edir.

Gördüyümüz kimi, tədqiqatın məntiqi və dinamikası bir sıra məsələlərin həyata keçirilməsini nəzərdə tutur: **empirik, hipotetik(fərziyyə), eksperimental – nəzəri(və ya nəzəri), proqnostik.**Empirik mərhələdə tədqiqatın mövzusu barədə təsəvvür alınır, real təhsil praktikası, elmi biliklərin səviyyəsi ilə hadisələrin mahiyyətini anlamaq tələbatı arasında ziddiyyət aşkara çıxarılır, elmi problem ifadə olunur.Empirik analizin əsas nəticəsi tədqiqatın fərziyyəsi hesab olunur.Hipotetik mərhələ tədqiqatın mövzusu haqqında faktiki təsəvvürlər ilə onun mahiyyətini başa düşmək zərurəti arasında ziddiyyəti həll etməyə yönəldilir.Nəzəri mərhələdə tədqiqatın mövzusu haqqında təsəvvürlər ilə həmin mövzu barədə sistemli təsəvvürlər almağa olan tələbat arasında ziddiyyətin aradan qaldırılması ilə bağlıdır.Tədqiqat nəticəsində yaranan nəzəriyyə proqnostik mərhələyə keçməyə imkan verir.Bu mərhələdə tədqiqatın mövzusu haqqında alınan təsəvvür ilə onun (mövzunun) yeni şəraitdə inkişafını görmək zərurəti arasında ziddiyyəti həll etmək tələb olunur.

## 22 ŞƏXSİYYƏTİN İNKİŞAFI HAQQINDA

**PLAN:**

1. **Şəxsiyyətin pedaqoji və psixoloji xüsusiyyətləri.**
2. **Şəxsiyyətin strukturu**
3. **Şəxsiyyətin inkişafına təsir edən amillər**
4. **Şəxsiyyətin inkişafında müxtəlif fəaliyyət növlərinin rolu.**

Şəxsiyyət probleminin tədqiqi ilə bağlı keçən əsrdən başlayaraq istər Azərbaycanda, istərsədə xarici ölkələrdə alimlər, xüsuilə pedaqoq və psixoloqlar daha ciddi və sistemli tədqiqat işləri aparmış, çoxsaylı məqalələr, elimi əsərlər yazıb yaratmışlar.Şəxsiyyət dedikdə, şüurlu fəaliyyət göstərən, sosial münasibətlərdə iştirak edən, yaxşı əməllər sahibi olan, ətraf aləmi yaxşılaşdıran və ya bu barədə düşünən xeyirxah, humanist insan nəzərdə tutulur.Şəxsiyyət sözü latən dilində "persona" deməkdir. Bu söz ilkin mənasında qədim yunan teatrlarında aktyorların üzünə taxdığı maskanı ifadə edirdi.Mahiyyətcə bu termin ilkin mənasında teatr fəaliyyətində komik və ya faciəvi obrazları göstərmişdir. Beləliklə "şəxsiyyət"ilkin mənasında müəyyən rol oynayan sosial obraz olmuşdur. Şəxsiyyət ictimai – tarixi kateqoriyadır. Şəxsiyyətin inkişafı daxili və xarici amillərlə şərtlənir: **Daxili amillərə** daxildir : genetik, bioloji, fiziki, fizioloji, amillər.Bu cəhətdən daxili amillər insanın şəxsi fəallığını, şəxsin marağını, insanlarla ünsiyyət və münasibətini də özündə birləşdirir. **Xarici amillərə daxildir:** fərdin müəyyən mədəniyyətə, sosial iqtisadi sinfə və ailə mühitinə məxsusluğu. Bu baxımdan xarici amillər ictimai mühiti, kollektivi, ictimai qrupları, tərbiyəvi təsirləri də özündə birləşdirir.**Beləliklə , şəxsiyyət müasir pedaqogika və psixologiya elmində biogenetik, sosiogenetik və psixigenetik elementlərin məcmusu hesab edilir.Şəxsiyyətin aşağıdakı əlamətləri vardır**:1) Şəxsiyyət şüura malıik olmalıdır;
2) Şəxsiyyət nitqə malik olmalıdır; 3) Şəxsiyyət ictima- tarixi təcrübəni mənimsəyə bilməlidir; 4) Şəxsiyyət əmək alətlərindən istifadə etməyi bacarmalıdır;
5) Şəxsiyyət əməyi və əmək alətlərini qoruya bilməlidir; 6) Şəxsiyyət ictimai-tarixi təcrübəni başqalarına ötürə bilməlidir; 7) Şəxsiyyət ətrafb aləmi yaxşılaşdırmaq haqqında düşünməli və fəaliyyət göstərməlidir.

**Şəxsiyyətin pedaqoji- psixoloji xüsusiyyətləri.Şəxsiyyət –** biogenetik, sosiogenetik və psixogenetik elementlərin inteqral vəhdətidir.

**Şəxsiyyət –** içərisində yaşadığı dövrün, ictimai-siyasi quruluşun, sosial mühitin məhsuludur.**Şəxsiyyət –**fiziki cəhətdən normal olub, fərdi psixoloji xassələri (temperament,xarakter, qabiliyyət) olan və ictimai vəzivələri(real varlığa,adamlara əictimai- tarixi dövrdə ( zaman kəsiyində)yaşayan konkret insandır.Şəxsiyyət ətraf mühitin obyektivqanunları əsasında formalaşır.Bunun da nəticəsində onun sosial davranışı müəyyən məzmun kəsb edir.İnsanın onu əhatə edən fiziki və sosial mühiti öyrənməsiuzun çəkən bir prosesdir.Bu öyrənmə prosesi onun həyatının sonunadək davam edir.Uşaq bir yaş yarımdan sonra "mən" anlayışını başa düşür. Uşaq daim özünü başqaları ilə müqayisə edir.Nəticədə o, ətraf mühitin sisial təcrübəsini qəbul edir, özü də sosiallaşır və formalaşır.Şəxsiyyəti başqa şəxsiyyətlərlə əlaqəsi olmasa, o, özünü dərk edə bilməz.Belə ilkin əlaqələr sosial qrup daxilində yaranır.Şosial mühit insanın formalaşmasında güzgü rolunu oynayır.

Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yoldaşlar, bilikli müəllimlər, onu əhatə insanların ona qayğısı və s. müsbət rol oynayır.

## ŞƏXSİYYƏTİN STRUKTURU:

**Pedaqoji və psixoloji tədqiqatlar göstərir ki, şəxsiyyətin strukturuna daxil olan elementlər həm koordinativ(ayrı-ayrılıqda mövcud olma), həm də subordinativ ( biri digərindən asılı olma) prinsiplərə tabedir.**

**Şəxsiyyətin strukturunda aşağıdakı üç vacib pedaqoji və psixoloji xarakteristika ayırd edilir:**

1. **Şəxsiyyətin sabitliyi.** Bu zaman şəxsiyyətin psixi təzhürlərin dəyişkənliyi və sabitliyi bu və ya digər məqamlarda onun davranışının qabaqcadan müəyyənləşməsini açıq şəkildə ortaya çıxarır.Davamlı motivlər sistemi şəxsiyyətin istiqamətini müəyyən edir.
2. **Şəxsiyyətin tamlığı.** Bu zaman onun bütün cəhətləri digər cəhətləri ilə sıx əlaqədə olur və buna görə də şəxsiyyətin bütün cəhətləri onun digər cəhətləri üçün vacib əhəmiyyət kəsb edir.Məsələn, insanın qarşıya qoyduğu məqsədinə çatması bacarığı, çətinlikləri dəf etməsi yalnız yüksək mənəvi keyfiyyətlərlə vəhdətdə olduqda müsbət əhəmiyyət kəsb edir.
3. Şəxsiyyətin fəallığı.Şəxsiyyətin çoxtərəfli fəaliyyətində ortaya çıxır və bu da öz növbəsində nəyi isə dərk etmək, dəyişmək, ətraf aləmi yeniləşdirmək, öz təbiətini, öz psixi xarakterini dəyişdirməklə özünütərbiyədə aşkarlanır. Beləliklə, deyə bilərik ki, insan doğulandan ölənə qədər bioloji və sosial inkişafdadır. **Bioloji inkişaf üç istiqamətdə gedir: a)** Morfoloji inkişaf istiqaməti(boy,çəki, həcm); **b)** biokimyəvi inkişaf istiqaməti(qan,sümük, əzələ); **c)**fizioloji inkişaf istiqaməti(qandövranı, həzm sistemi, cinsi inkişaf). İnsan cəmiyyətdə özünü bir şəxsiyyət kimi hiss etdikdə **şəxsiyyətin sosial statusu** meydana gəlir.Sosial sistemdə məqsədyönlü və düşünülmüş təhsil- tərbiyə yolu ilə insan şəxsiyyət kimi formalaşır və inkişaf edir.
   **İnsanın inkişafı və onun şəxsiyyət kimi formalaşması üç başlıca amilin – irsiyyət, mühit və tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir.İRSİYYƏT**dedikdə, valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin irsən keçməsi başa düşülür.Pedaqogika elmində şəxsiyyətin formalaşması, inkişafı və tərbiyəsi məsələsində irsiyyətin mövcudluğu nəzərə alınmaqdadır. Təlim, tərbiyə,təhsil və inkişaf üçün əhəmiyyət kəsb edən fiziki əlamətlər deyil, fizioloji əlamətlərdir.Məlumdur ki, həm fiziki əlamətlər, həm də fizioloji əlamətlər irsən nəsildən nəslə keçir.(məsələn saçın, gözün rəngi) şəxsiyyətin necəliyinə, yəni onun mənəvi, əxlaqi, estetik

inkişafına təsir göstərmir.Nəsildən- nəslə keçən fizioloji əlamətlərin(baş beyin qabığındakı hüceyrələrin sayı, temperament, ali sinir sisteminə məxsus digər xüsusiyyətlər)şüura, davranışa, təlim-tərbiyə işinə, şəxsiyyətin inkişafına təsiri vardır.İnsan şəxsiyyət kimi döğulmur.İnsanın fərdi inkişafı, onun şəxsiyyətinin formalaşması ictimai həyat şəraitindən, ictimai münasibətlərin sistemindən, istehsal münasibətlərindən asılı olur.İnsan ancaq sosiallaşma prosesində, yəni ünsiyyət prosesində, başqa insanlarla qarşılıqlı əlaqədə şəxsiyyət olur.**MÜHİT** dedikdə, başlıca olaraq, ictimai, qismən isə təbii – coğrafi mühit nəzərdə tutulur.Şəxsiyyətin inkişafında ictimai mühit, içtimai münasibətlər əsas yer tutur.İctimai mühit özü də iki yerə bölünür.

1. **Makromühit(kollektiv, küçə, ictimai yerlər);**
2. **Mikromühit(ailə mühiti,şagirdin kiminlə oturub – durması və s.)**Aparılmış tədqiqatlardan belə bir nəticə çıxır ki, sosial mühit şəxsiyyətin inkişafına birbaşa deyil, həyat tərzi vasitəsilə təsir göstərir.İnsan şəxsiyyətinin **inkişafına sosial mühit və təbii mühit** quvvətli təsir göstərir.**Sosial mühit** dedikdə, insanın həyat fəaliyyətini, inkişafını əhatə edən xarici şəraiti nəzərdə tutulur.Sosial mühit anlayışı ictimai quru**luşu, istehsal münasibətləri sistemini,** maddi həyat şəraitini, istehsal və sosial proseslərin baş vermə xarakterini əhatə edir.Sosial mühit daim dəyişir və yeniləşir.Bu mühitdə insan passiv deyil, fəaliyyətdədir və fəaliyyət prosesində o, öz mühitini dəyişdirir.Sosial mühit əlverişli olduqda, tənzim edildikdə şəxsiyyətin təbii imkanlarının açılmasına, inkişaf etməsinə şərait yaranır. – Şəxsiyyətin inkişafına, xüsusilə kiçik və məktəb yaşlı uşaqlara **təbii mühit –** ailə mühiti güclu təsir göstərir.Ailə onların maraq və tələbatlarının həyata keçməsi üçün əlverişli şərait yaradır. Şəxsiyyətin əxlaqi və sosial keyfiyyətlərinin də əsası ailədə qoyulur.

   Şəxsiyyətin inkişafında **tərbiyə** amili mühüm əhəmiyyət kəsb etməkdədir.(Övlad öz həyatının birinci 7 ilində şah, ikinci 7 ilində (7-14) , nökər, üçüncü 7 ilində məsləhətçi və məsuı şəxs hesab olunur).**Beləliklə, insanın həyat yolu 21 yaşına qədər ardıcıl olaraq üç nərhələyə bölünür və buda uşaqlıq, yeniyetməlik və ilk gənclik dövrləridir.**Peyğəmbərimiz bu üç dövr əsasında üşaqların, yeniyetmə və cavanların tərbiyəsinin əsas qanunlarını, tərbiyəçilərin bu sahədəki vəzifələrini müəyyənləşdirmişdir: “Qoy sənin övladın yeddi il oynasın, sonrakı yeddi il elm, ədəb öyrənsin və sonra onu özünün müşavirin və yoldaşın hesab et!”İlk dəfə fitri qabiliyyətlər nəzəriyyəsinə zərbəni ingilis filosofu Con Lokk vurmuşdur.

   O,”**Ağ lövhə” nəzəriyyəsini** irəli sürərək demişdir ki, insan döğularkən

“Ağ lövhə” kimi doğulur.Bu lövhəyə nə yazılarsa, insan da elə inkişaf edəcəkdir.O, belə hesab edirdi ki, uşaq dünyaya nə şair, nə həkim, nə də ağa kimi gəlir, irsən uşağa heç nə verilmir.Con Lokk insan xarakterini axar çaya, tərbiyəni isə bəndlərə bənzədirdi. Axar çayın qarşısına bəndlər vurub onun istiqamətini dəyişmək mümkün olduğu kimi, tərbiyənin gücü ilə insan xarakterini istənilən səmtə yönəltmək olar.Con Lokk iddia edirdi ki, təsadüf etdiyimiz adamların onda doqquzu mövcud olduqları vəziyyətdə -rəhimdil və ya zalım, faydalı və ya faydasız olmalarında tərbiyəyə minnətdardırlar.İnsanlar arasındakı fərqləri məhz tərbiyə yaradır.Tərbiyə insanın inkişafına təsir göstərsə də, müəyyən mənada inkişafdan asılıdır və insanın inkişaf səviyyəsinə əsaslanır.İnkişaf ilə tərbiyə arasında qarşılıqlı münasibətlərin dialektikası da özünü məhz bunda göstərir. Şəxsiyyət ikinci dəfə yeniyetməlik yaşı dövründə doğulur. Bu dövrdə şagirdin bir şəxsiyyət kimi formalaşması prosesində mənlik şüuru əxlaqi şüurla qarşılıqlı əlaqədə inkişaf edir.İctimai mühitin uşağa təsiri ilə tərbiyənin təsiri arasındakı fərq, hər şeydən əvvəl, tərbiyənin mütəşəkkil, məqsədyönlü və planlı olmasıdır.Halbuki mühitin təsiri ilə həyata keçən inkişaf prosesi məqsədyönlü olmaya da bilər.Ümumiyyətlə isə, şəxsiyyətin formalaşmasında mühit və tərbiyə amilləri həmişə dinamik, hərəkətdə və inkişafda olan amillərdir.

**Şəxsiyyətin inkişafında və formalaşmasında müxtəlif fəaliyyət növlərinin rolu** böyükdür.Şəxsiyyət fəaliyyət prosesində formalaşır, inkişaf edir və tərbiyələnir.İnkişaf, tərbiyə və formalaşma – hər üç məfhum bir-biri ilə ayrılmaz sürətdə üzvü əlaqədə və vəhdətdədir. Şəxsiyyət – xüsusilə inkişafda olan uşaq və yeniyetmələr hər gün, hər saat fəaliyyətdədir.İnsanın normal fəaliyyət vəziyyəti, yalnız yuxu istisna olmaqla qalan hallarda fəal hərəkət vəziyyətində olur.İnsan nə qədər ki, yaşayır daim hərəkətdə, fəaliyyətdəmolur, işləyir,oxuyur, oynayır, başqa insanlarla ünsiyyət və münasibətdə olur.Bir sözlə, şəxsiyyət daim işdə, əməldə və fəaliyyətdədər.Fəaliyyətsiz insan inkişaf edə bilməz, yaşaya bilməz, mənəviyyatca yüksələ bilməz. Bəs fəaliyyət nədir? **Fəaliyyət insanın cəmiyyət və insanlar tərəfindən yerinə yetirilməsi tələb olunan, öz maraq və tələbatlarının ödənilməsinə yönələn, qarşıya qoyduğu məqsədə çatmaq üçün göstərdiyi akt və fəallıqdır.**Fəaliyyətin müxtəlif növləri şəxsiyyətin formalaşmasına, inkişafına və tərbiyəsinə müxtəlif şəkildə təsir göstərir.**Fəaliyyətin aşağıdakı növlərini ayırd edilmişdir:**

**1. Vasitəsiz emosional ünsiyyət və münasibətə. 2. Əşyavi- manipulyativ fəaliyyət. 3.Oyun fəaliyyəti. 4. Təlim fəaliyyəti. 5. Əmək fəaliyyəti. 6. Ünsiyyət fəaliyyəti.**

-Vasitəsiz emosional ünsiyyət çağanın anası ilə özünəməxsus dialoqudur. Uşaq anasının ağuşunda özünü sakit aparır, onun nəvazişini duyur, ətrini hiss edir və bundan xoşhallanır.Bu hiss əsas əsas etibarilə bioloji cəhətdən qarşılıqlıdır və inkişafa quvvətli təsir göstərən amildir. –Əşyavi manipulyativ fəaliyyət fəaliyyət prosesində əşyaları sökə-sökə, bu yandan o yana sürüyə -sürüyə, bir- birinə calaya- calaya onların xassələrini dərk edir və inkişafa üz qoyur.- Məktəbə daxil olana qədər üşağın əsas fəaliyyət növü isə oyundur.Oyun uşaqları hərtərəfli inkişaf etdirir və tərbiyələndirir.Uşağın məktəbə daxil olması ilə onun üçün yeni fəaliyyət növü – təlim fəaliyyəti başlayır.Təlim müəllimin rəhbərliyi altında ikitərəfli proses olub (öyrədən və öyrənənlər), müəyyən vaxt çərçivəsində, sabit cədvəl üzrə, möhkəm şagird kollektivi ilə, sinif şəraitində həyata keçirilir.Nəticədə əmək fəaliyyəti və ünsiyyət fəaliyyəti də formalaşmış olur.

## 23. MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİ PLAN:

1. **Pedaqoji peşənin prinsipləri**
2. **Müəllimlik peşəsinə verilən tələblər**
3. **Müəllim- şagird münasibətinin formaları**
4. **Müəllim – şagird münasibətlərində əməkdaşlıq növləri**

**Pedaqoji fəaliyyət dedikdə gənc nəslin tərbiyə olunmasına yönələn fəaliyyət başa düşülür.** Başqa sözlə desək, təlim-tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən şagird şəxsiyyətinin formalaşmasına yönəldilən peşə fəallığı başa düşülür.Pedaqoji fəaliyyətin strukturunu aşağıdakı cəhətlər təşkil edir.

1. Pedaqoji fəaliyyətin məqsədi bu cəmiyyət üçün yararlı, hərtərəfli, ahəngdar inkişaf etmiş vətəndaşlar tərbiyə etməkdən ibarətdir.
2. Pedaqoji fəaliyyətin subyekti bilik verən, tərbiyə edən, istiqamət verən hesab olunur.
3. Pedaqoji fəaliyyətin obyekti və subyekti isə bilik, bacarıqlara yiyələnən, araşdıran, tədqiqat aparan, tərbiyə olunan hesab edilir.
4. Pedaqoji fəaliyyətin vasitələri dedikdə, təlim-tərbiyənin formaları, istifadə olunan metodları, qaydaları və s. nəzərdə tutulur.
5. Pedaqoji fəaliyyətin şərtləri sırasına böyüyən nəslin tərbiyəsinə cəmiyyətin qayğısı, təlim-tərbiyənin səmərəliliyini şərtləndirən amillərin olması(məktəblərin vaxlı- vaxtında təmir olunması, avadanlıqların

səliqəliliyi), kollektivin həmrəyliyi, məktəb müəllimlərinin bilik və bacarıqlarının yüksək olması və s . daxildir.

6. Pedaqoji fəaliyyətin nəticələri nisbətən gec görünən prosesdir.Tədris ilinin sonunda müxtəlif yoxlamalar, müqayiələr aparmaqla bunu ayırd etmək olar.Şagirdlərdə yüksək keyfiyyətlərin formalaşdırılması buna aiddir.Qeyd edək ki, **pedaqoji fəaliyyətin subyekti müəllimdir, yəni öyrədən, bilik verən, istiqamət verən, məsləhət verən, yol göstərən, tərbiyə edəndir. Məhdud mənada müəllim dedikdə,** kimməsə nəyisə öyrədən, məsləhət və istiqamət verən şəxs başa düşülür.**Geniş mənada müəllim dedikdə ,** xüsusi təhsil görmüş, tədris müəssisələrinin birində insanları bilik, bacarıq və vərdişlərlə silahlandıran, onlara yol göstərən, istiqamət verən savadlı, bilikli, mədəni, geniş və hərtərəfli dünyagörüşə malik şəxs başa düşülür.
**Müəllimlik peşəsinin səciyyəvi xüsusiyyətləri aşağıdakı kimi şərh edilir. –** Müəllimlik peşəsi demək olar ki, cəmiyyətimizdə **kütləv peşədir.**Çünki nəsilləri öyrətmək, tərbiyə etmək çox gərəkdir.Buna görədə müəllimlik
peşəsinə həmişə ehtiyac duyulmaqdadır. – Müəllimlik peşəsi **nadir peşədir.** Çünki müəllim çox olsa da,yadda qalan bir-iki nəfər olur. Onlarda Çünki müəllim insan üzərində işləyir və burada səhvə yol vermək olmaz.Bu işdə buraxılmış səhv, nöqsan öz nəticəsini dərhal olmasa da, bir müddətdən sonra hökman göstərəcəkdir. –Müəllimlik **mürəkkəb bir peşədir.**Bu mürəkkəblik onun yaradıcı olması ilə bağlıdır.Müəllim bir anda müxtəlif rollarda çıxış etməli olur.O, müxtəlif intonasiyalarla, müxtəlif jest və hərəkətlərlə işləyir.Hər bir uşağın "oz dili ilə ilə" danışır. – Müəllim əməyi yeganə səciyyəvi sənətdir ki, **özü öz əməyini qiymətləndirir.Yəni uşaqlara verdiyi biliyin nəticəsini özü yoxlayır.**
**Pedaqoji peşənin prinsipləri:** 1. **Vətənpərvərlik prinsipi.**Müəllim öz yetişdirmələrində vətənə böyük məhəbbəti və dərin vətən sevgisi aşılandalıdır. Müəllim peşəsinin mühüm bir prinsipi **peşə fədakarlığıdır.** Yəni müəllim öz peşəsi yolunda canını, qanını qoymalı, yetişdirmələrinin səadəti naminə fədakar olmağı bacarmalıdır.**Həmrəylik prinsipi** tələb edirki, müəllim pedaqoji kollektivdə səmimi və xoşrəftar olsun.O, kollektivdə yaranan qruppabazlığa, intriqaya, fərdçiliyə qarşı barışmaz olmalıdır.
**Humanizimprinsipi** müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsidir.Müəllim insanları, o cümlədən oz yetişdirmələrini dərin məhəbbətlə sevib hörmət etməlidir.Yalnız sevgi ilə ən çətin, ən acı şeylər uşaqlara öyrədilə və çatdırıla bilər.Humanizim müəllimin uşaqlara hədsiz diqqət və qayğısı, həssaslığıdır.Humanizim prinsipi tələb edir ki, müəllimlər məktəbdə uşaqların rahatlığı qayğısına qalsın, onları döymədən, söymədən, təhqir etmədən təlim və tərbiyə etsinlər.

**Müəllimlik peşəsinə verilən pedaqoji tələblər :**

1. **Müəllimin peşəsinə sevgisi.**
2. **Müəllimin ixtisasına uyğun biliklər sisteminə yiyələnməsi**
3. **Müəllimin öyrətmə metodikası**

## Müəllim- Şagird münasibətlərinin formaları

Müəllim- şagird münasibətlərinin müvəffəqiyyətlə qurulması üçün müəllimin rəhbərlik mövqeyi çox əhəmiyyətlidir.Müəllimin rəhbərlik mövqeyi aşağıdakı formalarda özünü göstərə bilir:

1. **Lokator mövqeyi.** Belə müəllimlər şagirdlərə seçici münasibət bəsləyir.Yəni müəllim ya şagirdin imkanları, ya təlimə münasibəti, ya ailə imkanları və ya sinifdə tutduğu möve baxımdan şagirdlə ünsiyyət yaradır.Demək, müəllim bütün şagirdlərə eyni formada ünsiyyət yaratmır.
2. **Çin səddi mövqeyi.**Bu mövqeyə malik olan müəllim,şagirdlə və ya tələbə ilə öz arasında böyük və keçilməz bir sədd yaradır.O sədd şagirdin müəllimlə ünsiyyətinə mane olur və onu çətinləşdirir.Belə mövqedə müəllimlər, şagirdlərə müəllimə yaxın olmağa, ona sual verməyə, ondan məsləhət almağa imkan vermir.Belə mövqeyə malik olan müəllim yalnız dərsi deməklə öz vəzifəsini hesab etmiş olur.Halbuki müəllimin işinə verilən tələblərdən biri onun qayğıkeş olması və şagirdlərlə düzgün ünsiyyət yaratması təmin edilməlidir.
3. **Robot mövqeyi.** Bu o deməkdir ki, şəraitin, vəziyyətin dəyişməsinə baxmayaraq müəllim ünsiyyət və münasibətini də dəyişmir.Əvvəlki qaydada, yəni əvvəllər planlaşdırdığı formada aparır.
4. **Dostluq mövqeyi.** Belə müəllimlər ürəyini uşaqlara verməyi bacarır.Təlimin gedişi prosesində, heç bir əsəb gərginliyinə yol vermədən, ünsiyyəti elə qururlar ki, şagirdlər müəlliminə hörmət edir, onun pütün planlarını ürəklə yerinə yetirirlər.Müəllimin dostluq mövqeyi o demək deyil ki, müəllim öz ürək sözünü, sirrini şagirdlərə deyir.Müəllim yalnız səmimi münasibətlə, onların qayğısına qalmaqla bu mövqedə dayanır.
   Müəllimin şagirdlərlə ünsiyyət və münasibətində **əsas iki yanaşma üsulu vardır: 1. Neqativ yanaşma üsulu; 2. Pozitiv yanaşma üsulu.**
   **Neqativ** yanaşma üsulu deyəndə, müəllimin şagirdi öz münasibətləri baxımından quruplaşdırmasıdır.Yəni müəllimlər özünə nəzərən bir qisim şagirdə yaxşı, bir qisminə isə pis münasibət bəsləməsidir.Onda belə bir əqidə vardır ki, pis şagird onsuzda dərsini bilmir.Belə şagirdlər dərsi öyrənsələr də, müəllim onların cavablarından heç vaxt razı qalmayacaq.Əgər belə şagirdlər bir yerdə, yəni izahda çətinlik çəksə də

müəllim onlara köməklik etmir.Ona görə də belə şagirdlərdən əl götürərək yaxşı oxuyan şagirdi ayağa qaldırır.Pis cavab verən şagirdi danlayır, lakin belə şagirdlər yaxşı cavab verəndə də onlara heç nə demir.

**Pozitiv** yanaşma.

**Pedaqoji vəzifə** müəllimlərin müəyyən şəraitdə həyata keçirdiyi məqsəddən ibarətdir.Bu vəzifələr belə şərh edilir.

1. **Bütün müəllimlər üçün eyni olan vəzifələr**
2. **Cəmiyyətin tələbindən irəli gələn vəzifələr**
3. **Hər hansı bir sinfin, hər hansı tədris fənni ilə və ya şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqədar yerinə yetirilən vəzifələr.**

**Bütün müəllimlər üçün eyni olan vəzifələr dedikdə, şagirdlərin sağlamlığı qayğısına qalması, onların dərslərini oxumasına cavabdeh olması, ailə ilə əlaqə saxlaması, pedaqoji tələblərin vahidliyini gözləməsi və s. başa düşülür.**

**Müəllim – şagird münasibətlərində əməkdaşlıq növləri.**

Müəllim – şagird münasibətlərində tədqiqatçılıar əsasən bunun üç növünü ayırırlar.a) **dəyişməz - müsbət ünsiyyət; b) passiv – müsbət ünsiyyət; c) dəyişən ünsiyyət.**

1. **Avtokratik əməkdaşlıq.** “Avto” latın sözü olub “Mən”,”Özüm” deməkdir.”Kratos” isə hakimiyyət deməkdir.Bu əməkdaşlıq növündə müəllim şagirdlərlə münasibətində həmişə hakim mövqedə dayanır.O uşaqlarla əmr və sərəncamlarla, göstərişlərlə danışır.Heç kimin rəyi, fikri ilə hesablaşmır. Özü bildiyi kimi hərəkət edir, təkbaşına qərarlar çıxarır, üşaqların və bütövlükdə kollektivin fəallıq və təşəbbüskarlığını boğur. Müəllim fiziki cəzaya, təhqirlərə əl atmaqdan çəkinmir.O, uşaqlara rişğəndlə yanaşır, onların şəxsiyyətlərinə hörmətlə yanaşmır, uşaqları kollektiv içindədə pərt edir.Avtokratik yanaşmada uşaqların yaradıcılığı, müstəqilliyi, fəallıq və təşəbbüskarlığı boğulur.Avtokratik müəllim yalnız öz hakimiyyətinə arxalanır.O şagird kollektivinə etibar etmir.
2. **Avtoritar əməkdaşlıq.** Belə yanaşma və belə əməkdaşlıqda müəllim yenə də hakim mövqeyə malikdir.Fərq yalnız ondan ibarətdir ki, o uşaqların çıxış etməsinə, fikir yürütməsinə imkan verir, lakin son məqamda yenə öz bildiyini edir.Təlimat və göstərişlər əsasında işləyir.Belə müəllim nadir hallarda uşaqlara xoş, tərifli sözlər deyir.
3. **Liberal əməkdaşlığı da** düzgün yanaşma saymaq olmaz.Belə yanaşmada müəllim verdiyi tapşırıqların yerinə yetirilməsinə nəzarət etmir, tez -tez uşaqlara güzəştə gedir, bəzəndə dediyi sözün əlehinə gedir, verdiyi tələblərin əksinə hərəkət edir, sözlərində və fikirlərində səmimiyyət yoxdur,

öz iradəsindən çıxış etmir.Özünün şəxsi fikri, düşüncəsi də yoxdur, bir növ " Külək hansı tərəfə qüvvətli əsirsə, o tərəfədə meyil göstərir".Əlbəttə, uşaqlarda əqidə formalaşdırmaq üçün müəllimin özünün əqidəsi olmalıdır. Liberal müəllimin sözlərində qeyri- səmimilik, yalan hiss olunur.

4. **Etinasız əməkdaşlıq.** Belə əməkdaşlıq növündə müəllim şagirdlərin fəaliyyəti, problemləri ilə maraqlanmır, kollektivin ətrafdakı həyatına laqeyid münasibət bəsləyir.Belələri bəzən cəmiyyətdə baş verən hadisələrə, biganədir.Belə müəllimləri uşaqlar sevmir, onların dərslərinə də laqeyid münasibət göstərirlər.
5. **Qeyri müəyyən əməkdaşlıq.** Belə əməkdaşlıq növündə müəllim şagirdlərlə həmişə eyni cür münasibətdə olmur.Bir müddət həlim, xöş ünsiyyət münasibətində olur, sonra isə dəyişilərək sərt, inzibatçı bir müəllimə
çevrilir.Yaxud müəllim əhval- ruhiyyəsindən asılı olaraq uşaqlarla ünsiyyət və münasibəti dəyişir.Belə ki, əhvalı yaxşı olanda yaxşı münasibətdə olur, əhvalı pis olanda isə uşaqlarla pis münasibətdə olur.Belə əməkdaşlıqda hər cür yeni fikirdən uzaqdır.
6. **Demokratik əməkdaşlıq.** Belə əməkdaşlıq yeni pedaqoji təfəkkürün məhsuludur.Bu ən düzgün, ən humanist əməkdaşlıq hesab edilir. Belə əməkdaşlıqda müəllim şagirdlərlə işgüzar münasibətdədir.Müəllim uşaqların arzu və maraqlarını, fərdi psixoloji xüsusiyyətlərini ciddi nəzərə alır. O, uşaq- ların səviyyəsinə enməyi bacarır, "onların dilində" danışa bilir.Belə müəllim, öz fəaliyyətində kollektivə arxalanır, onlarla məsləhətləşərək, uşaqların tənqidi qeydlərinə qulaq asır, onların fəallıq və təşəbbüskarlığını inkişaf etdirir.Belə əməkdaşlığa malik olan müəllimin hörmət və nüfuzu yüksəkdir. O uşaqların təlim və tərbiyəsini daha yaxşı təşkil edə bilir.

## 24. MÜƏLLİMİN PEDAQOJİ QABİLİYYƏTİ, PEDAQOJİ USTALIĞI VƏ DAVRANIŞ PRİNSİPLƏRİ.

**PLAN:**

1. **Xüsusi pedaqoji qabiliyyətlər**
2. **Müəllimin pedaqoji taktı**

3. **Ekspressiv -mənalı hərəkətlər, Prosodika və ekstralinqvistika, Takesik ünsiyyət vasitələri, Proksemik vasitələr.**
4. **Etik davranış prinsipləri**

**Müəllimin pedaqoji fəaliyyətində yaradıcılığı onun xüsusi pedaqoji qabiliyyətlərə malik olmasını tələb edir.**Pedaqoji qabiliyyətlər müəllim – şagird münasibətlərində müəllimin əqli, emosional – iradi cəhətlərini xarakterizə edir. Pedaqoji qabiliyyətləri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar.

1. **Şəxsi qabiliyyətlər** dedikdə, adətən**, şəxsiyyətin xarakterik əlamət və keyfiyyətləri ilə bağlı olan qabiliyyətlər nəzərdə tutulur.** Burada uşaqlara rəğbət bəsləmək, hörmət və ehtiyatla yanaşmaq, təmkinlilik, ozünə sahob olmaq(özünü ələ ala bilmək) və həmişə dərs zamanı şagirdlərlə iş aparmaq üçün optimal psixi vəziyyət yarada bilmək qabiliyyətini aid etmək olar.
2. **Didaktik (öyrətmək) qabiliyyətlər isə** müəllimin zəruri məlumatlarını şagirdlərə çatdıra bilmək, materialı uşaqların səviyyələrinə uyğunlaşdır-maqla onlara çatdırmaq, material və problemi aydın və anlayışlı şəkildə şagirdlərə təqdim etmək, fənnə qarşı maraq oyatmaq, şagirdlərdə fəal müstəqil fikir yarada bilmək qabiliyyətlərindən ibarətdir.Buraya konkret olaraq **müəllimin izah edə bilmək qabiliyyətini və ekspressiv- nitq qabiliyyətini (müəllimin natiqlik qabiliyyətidir yəni münasibətdə olduğu şəxsə ifadəli, anlaşıqlı təsir edə bilməsi deməkdir) aid etmək olar**
3. **Təşkilatçılıq qabiliyyəti.**Müəllim – şagird münasibətləri üçün çox əhəmiyyətlidir.Bu cür qabiliyyətlərə malik olan müəllim – şagird kollektivini təşkil etməyi, onu möhkəmləndirməyi, istiqamətləndirməyi bacarır.Belə müəllim icra edəcəyi bi işdə öz təşkilatçılığını göstərir, öz işlərini planlaşdırmağı, ona nəzarət etməyi bacarır, vaxtı düzgün hiss edir, düzgün bölür, artıq vaxt itirmir.Ona görə də bu cür qabiliyyətə malik olan müəllimlər gözəl təşkilatçılıq nümunəsi göstərməklə vaxtdan səmərəli istifadə edə bilirlər.
4. **Kommunukativ qabiliyyətlər müəllimin şagirdlərə düzgün ünsiyyət və münasibətini** rəftarını nəzərdə tutur.Pedaqoji cəhətdən əsaslı kommunuka-tiv qabiliyyətlər uşaqlarla düzgün əlaqə və münasibət yaranmasına imkan verir.Kommunikativ qabiliyyətlərə şagirdlərlə ünsiyyətə qabillik, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaq bacarığı, şagirdlərə pedaqoji nöqteyi-nəzərdən məqsədə müvafiq qarşılıqlı əlaqə yarada bilmək bacarığı aiddir.Lakin burada iki cür qüsurun qarşısını almaq lazımdır.Birincisi, şagirdlərə qarşı yad münasibət bəsləmək, daima vəziyyətlər arasında fərqi nəzərə çatdırmaq, şagirdlərlə özü arasında “məsafə” yaratmaq; İkincisi, yalançı dostluğa, formal münasibətlərə yol vermək, özü ilə şagirdlər

arasında hər cür sərhəddi silmək.Bu cür yanaşma tərzlərinin hər ikisi eyni dərəcədə zərərlidir.

5. **Perseptiv qabiliyyətlər** isə şagirdin **daxili aləminə** nüfuz edə bilmək, şagird şəxsiyyətini və onun müvəqqəti psixi vəziyyətinin incəliklərinə qədər başa düşməklə bağlı olan qabiliyyətlərdir.Bu cür qabiliyyətə malik olan müəllim hazırki anda şagirdin psixologiyasını, onun psixi vəziyyətini qavrayır və eləcədə anlayır.
6. **Suqqestiv qabiliyyət; (**latınca"təlqin"deməkdir).Müəllimin **şagirdlərə iradi- emosional təsir göstərmək** qabiliyyətidir.Belə qabiliyyət nəticəsində müəllim şagirdə verdiyi hər hansı bir tələbin yerinə yetirilməsinə nail olur. Suqqestiv qabiliyyətlər müəllimdə iradənin inkişafından, özünə qarşı dərin inamından asılıdır.Burada söhbət müəllimin, sakit, şagirdləri kobudcasına sıxışdırmadan, məcbur etmədən və hədələmədən öz tələb və tapşırığını irəli sürməsi və ona nail olmasından gedir.
7. **Pedaqoji təxəyyül** qabiliyyətində olan müəllim şagirdlərlə daim ünsiyyət və münasibətdə olarkən öz təlim və tərbiyə **işinin nəticəsini əvvəlcədən görməyi,** təsəvvür etməyi bacarır.Burada pedaqoji təxəyyül mühüm rol oynayır.Pedaqoji təxəyyülə malik olan müəllim öz əməllərinin nəticəsini qabaqcadan görə bilir, şagirdin gələcəyini düzgün görüb, onu istiqamətləndirməyi bacarır, onda, hansı keyfiyyətləri inkişaf etdirməyin mümkün olduğunu görür.
8. **Diqqəti paylaya bilmək qabiliyyətinə** malik olan müəllim öz diqqətini iki və daha artıq fəaliiyət obyekti üzərində paylaya bilir.
9. **Pedaqoji refleksiya qabiliyyətinə** malik olan müəllim öz vəziyyətini dərk etməyi bacarır, müəyyən pedaqoji şəraitdə nəzarət, qiymətləndirmə, tənzim və təkmilləşdirmə məqsədilə özünün pedaqoji fəaliyyət və pedaqoji ünsiyyətin məqsəd və vəzifələri ilə əldə olunmuş nəticəni qarşılaşdıra, müqayisə edə bilir.
10. **Müəllimin aktyorluq fəaliyyəti.** Aktyor və müəllimin fəaliyyətində oxşar cəhətlər çoxdur.Hər ikisinə tərbiyəçi demək olar.Müəllim məktəbdə, aktyor isə teatrda tərbiyə işi ilə məşğul olur.Aktyor səhnədən dinləyicilərə, damaşaçılara, onların hisslərinə və şüuruna təsir göstərir.Müəllim isə bu vəzifəni sinif otaqlarından yerinə yetirir.Həm aktyor, həm də müəllim insanlar qarşısında çıxış edir.Hər ikisinin özünəməxsus auditoriyası vardır. Aktyor da, müəllim də başlıca olaraq söz vasitəsilə öz dinləyicilərinin şüuruna, qəlbinə yol tapmağa çalışır. Müəllim də bir aktyor məharəti ilə onu dinləyənləri müəyyən haldan-hala sala bilir, onlara müəyyən emosional təsir göstərir. Beləliklə, deyə bilərik ki, müəllim aktyorluq qabiliyyətinə malik olmalıdır.Aktyorluq qabiliyyətinə malik olmadan uğurlu müəllimlik

fəaliyyətini yerinə yetirmək olmaz.(Məsələn, 20 Yanvar şeiri emosiya ilə söyləyərək uşaqlara həmin anı təsəvvür etməyi yaşada bilər)

11. **Müəllimin tədqiqatçılıq qabiliyyəti** pedaqoji situasiyaları və prosesləri dərk etmək və obyektiv qiymətləndirmək bacarığında özünü göstərir.
12. **Müəllimin elmi-idraki qabiliyyətləri(akademik qabiliyyət).**Seçdiyi sahə üzrə elmi bilikləri mənimsəmə qabiliyyətidir.
13. **Təlim qabiliyyəti.** Tədris materialının əyani vasitələri, avadanlığı seçmək və hazırlamaq, tədris materialını başa düşülən şəkildə, aydın, ifadəli, inandırıcı nəql etmək, tədris –idrak maraqlarını və onların mənəvi tələbatlarını stimullaşdırmaq bacarığıdır.

**Müəllimin pedaqoji taktı:** Şagird şəxsiyyətinə hörmət etmək, onlarla ünsiyyətdə müəyyən hədlərə riayət etmək.

## Müəllimin pedaqoji ustalığı

1. **Ekspressiv –mənalı hərəkətlər müəllimin** davranışının özünün görmə orqanı vasitəsilə özünü müşaiyət etməsidir.Burada duruş, mimika, əl-qol hərəkəti, baxış, yeriş xüsusi rol oynayır.Tədqiqatçılar göstərirlər ki, məsələn, müəllimin **hərəkətsiz duruşu, yaxud müəllimin üzü görünməzsə, ya az görünərsə,**
**şagirdlərə verilən informasiyanın 10 -15 faizə qədəri itir.**Şagirdlər müəllimin gözünə, baxışına çox həssasdırlar.

2. **Prosodika və ekstralinqvistika(intonasiya, səsin ucalığı, tembri, nəfəslma, gülüş, öskürək).**Səsin xarakteristikaları prosodik(nitqdə vurğulu və vurğusuz, uzun və qısa hecaların tələffüzü sistemi) və ekstralinqvistik(linqvistikadan kənar) hadisələrə daxildir.Şövq, ruh yüksəkliyi, sevinc hissləri adətən yüksək səslə deyilir.Narazılıq adətən yumşaq və batıq səslə deyilir.Nitqin surəti də müəllimin hisslərini əks etdirir.Həyacanlılıq və ya rahatlıq surəti nitqdə özünü əks etdirir.Aramla, yavaş-yavaş danışmaq yorğunluq və ya təkəbbürlülük əlamətidir.

3. **Takesik ünsiyyət vasitələri.** Başı sığallama, toxunma, əl -ələ verib görüşmə, tərifləmə takesik ünsiyyət vasitələrinə aiddir.Sübut olunmuşdur ki, onlar xüsilə tam olmayan ailələrdən olan uşaqlar üçün bioloji cəhətdən zəruri stimulyator formalarıdır. Şıltaq və inciyən uşağın başını sığallamaqla çox şeyə nail olmaq olur.Hər pedaqoqun buna ixtiyari yoxdur.Bunu ancaq uşaqların etibarını qazanmış müəllimlər edə bilərlər.

4. **Proksemik vasitələr.**Bunlara təlim zamanı müəllim və şagirdlərin oriyentasiyası və onlar arasında distansiyar aiddir.Pedaqoji distansiyanın şagirdlərlə fərdi ünsiyyəi -50 sm-dən 120 sm-dək; 2) sinifdə şagirdlərlə rəsmi

ünsiyyət – 120 – 400 sm; 3)Auditoriya qarşısında çıxış edən zaman açıq ünsiyyət 400- 750 sm.Ünsiyyət distansiyasının müntəzəm dəyişməsi pedaqoji əməyin xüsusiyətidir.Bu, müəllimdən dəyişən şəraitdə dəfələrlə uyğunlaşmağı tələb edir.

**Müəllimin etik davranış prinsipləri.**

Müəllim peşə fəaliyyətində aşağıdakı etik davranış prinsiplərini gözləməli və müvafiq tələblərə ciddi şəkildə əməl edilməlidir.

1. **Qanunun aliliyi –** müəllim vəzifə funksiyalarının icrası zamanı Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, **insan hüquqları və demokratik prinsiplərə** əməl etməyə borcludur.
2. **Vicdanlılıq –** müəllim cəmiyyət və dövlətin maraqları naminə öz peşə fəaliyyətini keyfiyyətlə və səmərəli yerinə yetirməyə borcludur.Müəllim bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.
3. **Peşəkarlıq və fərdi məsuliyyət–** müəllim öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində peşəkar səviyyədə yerinə yetirməyə borcludur və vəzifə funksiyalarının keyfiyyətlə yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.
4. **Loyallıq –**müəllim onun peşə vəzifəsinə aid olmadığı hallarda işlədiyi və digər təhsil müəssisələrinin, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar(qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir.Müəllim peşə fəaliyyəti zamanı müəllim adına və nüfuzuna, habelə təhsil təhsil müəssisəsinin işgüzar nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verilməməlidir.
5. **Mədəni davranış –**müəllim təhsilalanlarla, rəhbərlik və həmkarları ilə davranışında nəzakətli, xeyirxah, diqqətli və təmkinli olmalıdır.Müəllim peşə fəaliyyəti ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirmə -li və onlardan düzgün nəticə çıxarılmalıdır.
6. **Qərəzsizlik –** müəllim peşə vəzifəsini yerinə yetirərkən qərəzsiz olmalı, **irqinə, milliyyətinə, dilinə,** cinsinə,sosial mənşəyinə, dinə münasibətinə, digər iştirakçılarına fərq qoymamalıdır.
7. **Gender bərabərliyi –**müəllim təhsil və tərbiyə prosesində **kişi və qadın** cinsindən olan təhsilalanların bərabərliyi prinsipinin gözlənilməsinə davamlı olaraq əməl etməlidir.
8. **İctimai etimad –** müəllim peşə nüfuzunu möhkəmləndirməyə, müəllim adını, şərəf və ləyaqətini uca tutmağa borcludur.Müəllim etik davranış

qaydalarını pozduğu halda pozuntu tez bir zamanda aradan qaldırmalı, ictimai etimadın bərpasına çalışmalıdır.

9. **Konfidensiallıq –** qanunvericiklə nəzərdə tutulmuş hallar istisna olmaqla, müəllim peşə vəzifələrinin icrası ilə bağlı təhsilalanların, onların valideynlərinin, habelə həmkarlarının şəxsi həyatı barədə ona məlum olan məlumat olan məlumatların konfidensiallığını təmin etməlidir.

## 25. PEDAQOJİ PROSESİN MƏRHƏLƏLƏRİ PLAN :

1. **Pedaqoji prosesin texnoloji əsaslar**
2. **Pedaqoji innovasiyalar**
3. **Pedaqoji sistemin optimallaşdırılması**
4. **Didaktika.**

Pedaqoji prosesin mərhələləri aşağıdakılardır: **Hazırlıq, Əsas, Yekun.**
**Pedaqoji prosesin HAZIRLIQ mərhələsində prosesin nəzərdə tutulmuş istiqamətdə** və surətlə baş verməsi üçün zəruri şərait yaradılır.Bu mərhələdə aşağıdakı mühüm vəzifələr həll olunur: qarşıya məqsədin qoyulması, şəraitin diaqnostikası, nailiyyətlərin proqnozlaşdırılması, prosesin inkişafının planlaşdırılması və s. Məsədin müəyyənləşdirilməsi və əsaslandırılması təhsil sisteminin qarşısında duran ümumi pedaqoji məsədi konkret vəzifələrə çevirmək deməkdir.Məqsəd pedaqoji prosesin konkret sistemi ilə bağlıdır.
**Pedaqoji prosesin ƏSAS mərhələləri** qarşılıqlı əlaqəli, mühüm elementləri özündə birləşdirir.Bu mərhələ özlüyündə digər sistemlərdən nisbi təcrid
olunmuş bir sistemdir.Onun aşağıdakı elementləri vardır: qarşıdakı fəaliyyətin məqsəd və vəzifələrinin müəyyən olunması və izah edilməsi; pedaqoqlarla şagirdlərin qarşılıqlı təsiri; pedaqoji prosesin nəzərdə tutulmuş metodları; vəzifələri və formaları; əlverişli şəraitin yaradılması; məktəblilərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif tədbirləri həyata keçeirmək; pedaqoji prosesin digər proseslərlə əlaqəsini təmin etmək.
**Pedaqoji prosesin YEKUN mərhələsi alınan nəticələrin təhlili ilə başa çatır.** həm Təhlil edən zaman pedaqoq buraxılan səhvlərdən həm nəticə çıxarır, öyrənir və həm də inkişaf edir.Ona görə də ciddi təhlil və özünütəhlil pedaqoji ustalığın yüksəldilməsinin ən mühüm şərtidir.Pedaqoji prosesin gedişi və nəticələri proqnozlara uyğun gəlmirsə, onda səhvin harada, necə və nə üçün buraxıldığını müəyyən etmək lazımdır.

**Pedaqoji prosesin texnoloji əsasları**

Pedaqoji prosesin təşkili texnologiyası prosesin müvəffəqiyyətlə keçməsinin həlledici şərtlərindən biridir.Buraya fəaliyyətin təhlili, diaqnostikası, proqnozun müəyyənləşdirilməsi və layihənin işlənib hazırlanması daxildir.Pedaqoji prosesin təşkili texnologiyası özü bir- biri ilə vəhdətdə olan üç texnologiyadan ibarətdir:

1. **Məzmun yaradılması texnologiyası**
2. **Maddi vasitələr texnologiyas**
3. **Fəaliyyətin texnologiyası**

Bu üç texnologiya bir-birindən öz predmetlərinə görə fərqlənir.Hər üç texnologiya-da müəllim ardıcıl olaraq analitik, proqnozlaşdırma və lahiyələşdirmə fəaliyyətini həyata keçirir.Pedaqoji prosesin texnologiyası yalnız müəllim deyil, həm də şagird-ləri nəzərə almaqla yaradılmalı və həyata keçirilməlidir.Pedaqoji prosesin bilavasitə həyata keçirilməsi texnologiyasını aşağıdakı kimi etmək olar:

1. **İnformasiyanı vermək texnologiyası**
2. **Tədris- idrak fəaliyyətinin və digər inkişafetdirici fəaliyyət növlərinin təşkili texnologiyası**
3. **Şagirdlərin fəallığının stimullaşdırılması texnologiyası**
4. **Pedaqoji prosesin gedişinin tənzimlənməsi texnologiyası**
5. **Pedaqoji prosesə cari nəzarətin həyata keçirilməsi texnologiyası**

Təhsil və tərbiyə texnologiyalarında iştirak edən bütün komponentlər – **məqsəd, vəzifə, məzmun, metod, vasitə, forma** –öz funksiyalarını daim müasirləşdirməyə möhtacdır.

## PEDAQOJİ İNNOVASİYALAR

**İNNOVASİYA**( ingiliscə " innovation"- sözündən götürülüb, mənası "yenilik" deməkdir) dedikdə geniş mənada təlim, təhsil –tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür.Bu sistemin komponentlərindən hər biri ən kiçik elementlərlə parçalana bilər.Başqa sözlə, pedaqoji sistem qarşıya qoyulmuş məqsədə çatmağı təmin edən sabit təşkilati –texnoloji kompleksdir.Müasir pedaqoji sistem texnologiyasız ola bilməz.Texnologiya olan yerdə keyfiyyətdə olur.Keyfiyyət pedaqoji sistemin imkanlarını müəyyən edir və o, müəyyən mənada idarəetmədən asılıdır. **İnnovasiyaların obyekti aşağıda göstərdiyimiz problemlərdir: - təlim və tərbiyə fəaliyyətinin motivasiyasını (öyrənməyə, oxumağa olan marağı) necə yüksəltmək; - dərsdə öyrənilən materialın həcmini necə artırmaq; - təlimin sürətini necə artırmaq; vaxt itkisini aradan qaldırmaq.**Təlim və tərbiyə prosesinin məhsuldarlığı həmişə pedaqoji sistemin

təkmilləşdirilməsi ilə bağlıdır. **Pedaqoji (prosesin) sistemin təkmilləşdirilməsi yolları bunlardır.**:

1. **İntensiv yol** (fransız sözü "intensiv" sözündən götürülmüşdür, mənası "gücləndirmək", "məhsuldarlığı artırmaq" deməkdir)**. İntensiv yol** pedaqoji sistemin inkişafını daxili ehtiyatlar hesabına həyata keçirməyi nəzərdə tutur.
2. **Ekstensiv yol(**latın sözü"extensivus" sözündən götürülmüşdür, mənası "genişləndirmək" uzatmaq deməkdir)**Ekstensiv yol** pedaqoji prosesə əlavə qüvvə, vaxt və vəsait cəlb olunmasını nəzərddə tutur, yəni pedaqoji avadanlıqların, texnologiyaların, kapital qoyuluşların və s. cəlb edilməsinə əsaslanır.

   **Pedaqoji sistemin optimallaşdırılması**

   Təhsil, təlim, tərbiyə prosesinin optimallaşdırılması bütünlükdə pedaqoji sistemə aid edilən innovasiyadır.**Optimallaşdırma(** optimum - ən yaxşı) mümkün olan variantlardan **ən yaxşısını seçib götürmək** prosesidir. Pedaqoji sistem kimi mürəkkəb, dinamik, çoxplanlı sistemdə təlim, təhsil, tərbiyə prosesinin qurulmasının və təşkilinin, orada məqsədlərə nail olmağın minlərlə mümkün variantları mövcuddur.Konkret şəraitdə onlardan ancaq biri ən yaxşı ola bilər.Onu axtarıb tapmaq optimallaşdırmanın başlıca vəzifəsidir.Bu vəzifə mümkün variantları müqayisə etmək və alternativləri qiymətləndirmək yolu ilə həll edilir.Optimallaşdırma pedaqoj sistemin qarşıya qoyulmuş məqsədinə uyğun olmalıdır.Çünki həmin sistem o məqsədə nail olmaq üçün yaradılıb.Bu şəraitdə əldə edilən optimallıq digər şərait üçün yararlı olmaya da bilər, ona görə ki, optimallaşdırma anlayışı həmişə konkretdir.Optimallaşdırmanın nəzəri və praktik istiqamətləri vardır. Pedaqoji ədəbiyyatda təlim –tərbiyə prosesinin optimallaşdırılmasının əsas meyarı kimi bir-biri ilə üzvi əlaqəsi olan iki göstərici əsas götürülür:

   1. **Müəyyən şəraitdə şagirdlərin təhsil- tərbiyəsi və inkişafında maksimum mümkün olan nəticələr əldə etmək;**
   2. **Həmin yaşda olan şagirdlərin sinif və ev işinə ayrılan vaxt normalarını gözləmək.**

## DİDAKTİKA

**TƏLİM VƏ TƏHSİL HAQQINDA ELMDİR(**Tərbiyə yoxdur)

"Didaktika" termini pedaqojika elminə XVII əsrdə daxil olmuşdur.Didaktika yunan sözü olub, hərfi mənası **"Öyrədirəm" deməkdir.**Bu termin ilk dəfə alman

pedaqoqu Volfranq Ratke(1571-1635) və çex pedaqoqu Yan Amos Komenski(1592-1670) tərəfindən işlədilmişdir. Pedaqogikanın formalaşmış sahələrindən biri olan didaktika özü qollara şaxələnmişdir.Ümumi didaktika, xüsusi didaktika, məktəbəqədər təlim- tərbiyə didaktikası, məktəb didaktikası, ilk-peşə ixtisas məktəbi didaktikası orta ixtisas məktəbi didaktikası, ali məktəb didaktikası, hərbi təhsil didaktikası, yaşlıların təhsili didaktikası, xüsusi məktəb didaktikası, ixtisasartırma didaktikası, əlahiddə didaktika və s.**Ümumi didaktika** təlim prosesinin obyektiv qanunauyğunluqlarını, onları şərtləndirən amilləri üzə çıxarmağa çalışır.Söhbət bu və digər fənnin, yaxud bir qrup fənnin tədrisi qanunauyğunluqlarından deyil, bütün fənnlərin tədrisinə xas olan ümumi qanunauyğunluqlardan gedir.Ümumi didaktika müəyyən etmişdir ki, məsələn, bütün fənnlərin tədrisində təkrar olunan səciyyəvi hallar vardır; müəllim- və şagird fəaliyyətinin bir-birini şətrləndirməsi, tədris vəzifələrini şagirdlərin başa düşməsinə müəllimin rəhbərliyi; təlim zamanı formalaşan anlayışların əməli işə tətbiqi; biliyin tətbiqi zamanı bacarıq və vərdişlırin formalaşması zamanı və s.**Xüsusi didaktikaların** (Hər bir fənnin özünəməxsus xüsusiyyəti var.Bunlara çox vaxt"metodikalar" deyirlər; bəzi ədəbiyyatda "xüsusi didaktika" əvəzinə "fənn didaktikası" anlayışıda işlədilir) vəzifəsi konkret fənnlərin təlimi xüsusiyyətlərini meydana çıxarmaqdan ibarətdir.Ümumi didaktika ayrı-ayrı fənlərin tədrisi metodikasına və xüsusi didaktikaya əsaslansa da, onlara xas spesifik halları özündə ehtiva etmir.Halbuki, konkret fənni(məsələnbotanikanı, zoologiyanı, insan anatomiyası və fiziologiyasını, ümumi biologiyanı) tədris edən müəllim üçün iki cəhəti: ümumi didaktikanın müəyyənləşdirdiyi qanunauyğunluqların konkret fənnin tədrisində necə təzahür etdiyini və konkret fənnin tədrisi üçün səciyyəvi olan qanunauyğunluqları bilməsi daha vacibdir.Xüsusi didaktika, məsələn, bioloji fənnlərin tədrisi problemlərini ümumiləşmiş şəkildə əhatə edən biologiyanın tədrisi metodikası, fizikanın ayrı-ayrı sahələrinin tədrisi məsələlərini əhatə edən fizikanın tədrisi metodikası və s. aiddir. Ümumi didaktika bütün xüsusi didaktikaları ümumiləşmiş şəkildə özündə birləşdirir və onların özəyinə çevrilir, fənnlərin tədrisinə vahid mövqedən yanaşılmasına imkan verir.

## 26. TƏHSİL. TƏHSİLİN

### MƏZMUNU PLAN:

1. **Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri**
2. **Təhsil alanların və təhsil verənlərin hüquq və vəzifələri**

3. **Tədris planı və Tədris proqramı**
4. **Dərslik komplekti: metodik vəsait, dərslik və iş dəftərləri**

**Təlim və tərbiyənin nəticəsində** Təhsil meydana gəlir.**Təhsil inkişafı təmin etmək üçün lazımdır. Təhsil sistemləşdirilmiş bilik, bacarıq və vəardişlərin mənimsənil- məsi prosesi və onun nəticəsidir." Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarının inkişaf etdirilməsi və həyata hazırlanması məqsədi ilə sistemləşdirilmiş bilik, bacarıq, təcrübə və**
**vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir"**

**Humanistlik –** milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı hörmətin, tolerantlıq və dözümlülüyün, prioritet kimi qəbul olunması;

**Demokratiklik -** təhsil alanların azad düşüncə ruhunda tərbiyə edilməsi, dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

**Bərabərlik –** bütün vətəndaşların bərabər şərtlər əsasında həhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması

**Millilik və Dünyəvilik –** milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi

**Keyfiyyətlilik –** təhsilin mövcud standartlara, normalara, sosial iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu

**Səmərəlilik –** təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili.

**Fasiləsizlik , Vəhdətlik, Daimilik –** mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

**Varislik –** təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə(dövrə) ötürülməsi;

**Liberallaşma –** təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

**İnteqrasiya -** milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

**(Elmilik adlı prinsip isə yoxdur)**

**Təhsilalanların və Təhsilverənlərin hüquq və vəzifələri:**

**Təhsilalanların Hüquqları aşağıdakılardır:**

- Qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq; təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- Dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq; müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;
- Ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsiverənləri və tyutorları sərbəst seçmək;
- Dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq; və s.

**Təhsilalanların Vəzifələri aşağıdakılardır:**

- Dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;
- Dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- Təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək.

**Təhsilverənlərin hüquq və vəzifələri:**

**Təhsilverənlərin Hüquqları bunlardır:**

- Normal əmək, elmi pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
- Təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
- Şərəf və ləyaqətinə hörmətlə yanaşmasını tələb etmək;
- Ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək və s;

**Təhsilverənlərin Vəzifələri aşağıdakılardır:**

- Təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
- Təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
- Təhsilalanlarda fəal vətəndaş mövqüyi formalaşdırmaq, onları vətənpərvərlik ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
- Şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitutsiyasına və qanunlarına dövlət rəmzlərinə,

Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

- Pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
- Təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;
- Uşaq və gənclərin fiziki və psixi zorakırlığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
- Ixtisas və elmi- pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər, sinifdənkənar və məktəbdənkənar tədbirlər keçirmək;
- Qaninvericilikdə müəyyən olunmuş qaydada attestasiyadan keçmək;
- Qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Təhsilin məzmunu dedikdə, müəyyən tip tədris müəssisələrində öyrənmək üçün seçilmiş biliklər, bacarıqlar sistemi başa düşülür.**Şagirdlərin təfəkkürünü, idrakı maraqlarını formalaşdırmaq, hərtərəfli inkişafını təmin etmək və əmək fəaliyyətinə hazırlamaq ümumi təhsilin məzmununun əsasını təşkil edir.Təhsilin məzmunu öz əksini **Milli Kurikulumda, dövlət**
**təhsil standartlarında(**standartın məqsədi: təhsil səviyyəsinin aşağı düşməsinə yol verməmək, şagirdlərin bilik, bacarıq və vərdişlərinə verilən standart tələbləri müəyyənləşdirməkdir), **tədris planlarında, tədris proqramlarında, dərslik və dərs vəsaitlərində** öz əksini tapır.

**TƏDRİS PLANI (**direktor müavinində olur).Tədris prosesinin məzmunu tədris planı, fənnlər üzrə tədris proqramları ilə müəyyən olunur və dərs kitablarında, informasiyanı toplayıb saxlayan elektoron avadanlıqlarda əks olunur. Tədris sisteminin əhatə etdiyi hər tədris müəssisəsinin özünəməxsus tədris planı olur. Tədris planında cəmiyyətin qəbul etdiyi təhsil- tərbiyə idealı, müəyyənləşdirmiş məqsədlər, təhsilin məzmununun tiplərindən və formalarından asılı olaraq tədris planları nə qədər müxtəlif olsa da, onların ümumi cəhətləri də vardır: **1. Tədris ilinin, rüblərin və tətillərin müddətini;**
**2. Tədris müəssisələrində öyrənilən fənlərin tam siyahısı; 3. Təlim illəri üzrə fənlərin bölüşdürülməsini; 4. Hər fənnin bütün təlim müddətində və hər sinifdə öyrənilməsinə ayrılan saatların miqdarını; 5.Hər fənnin öyrənilməsinə verilən həftəlik saatların miqdarını; 6. Praktikumların struk- turunu, müddətini və s. müəyyən edir.** Tədris planına daxil edilən fənlər məcburi və fakultativ(seçmə) fənlərə ayrılır.Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da tədris planları, mərkəzi təhsil orqanları tərəfindən işlənib hazırlanır və təsdiq olunur.Deyiənlərdən aydın olur ki**, bu və ya digər məktəbdə öyrədilən fənləri, onların siniflər üzrə ardıcıllığını,**

**hər fənnə verilən saatların miqdarını, təhsilin müddətini, şagirdlərin fəaliyyət növlərini əks etdirən sənədə TƏDRİS PLANI deyilir.**

**TƏDRİS PROQRQMLARI** (müəllimdə olur).Tədris planı əsasında bütün fənlər üzrə tədris proqramları tərtib olunur.Tədris proqramlarında aşağıdakılar öz əksini tapır: **1. Fənnin öyrənilməsi vəzifələri haqqında izahat vərəqəsi,**

**şagirdlərin bilik və bacarıqlarına verilən tələblər, təlimin tövsiyə olunan forma və metodları; 2. Öyrənilən materialın tematik məzmunu; 3.fənnin ayrı-ayrı mövzularının öyrənilməsinə müəllimin sərf edəcəyi saatların təxmini miqdarı; 4. Fənlərarsı və kurslararası əlaqələri yaratmaq üçün göstərişlər; 5. Tədris avadanlığının və əyani vəsaitlərin siyahısı; 6.Tövsiyyə edilən ədəbiyyat.**

Təbiət və cəmiyyət hadisələrindəki qarşılıqlı əlaqəyə və elmlər arasındakı inteqrasiyaya uyğun olaraq fənlərarası və fəndaxili əlaqələr də tədris proqramında nəzərdə tutulur. Deməli,**tədris planına əsasən fənnin hissələrini və ya bölmələrini, mövzularını, mövzulara aid məsələləri göstərən, fənn üçün ayrılmış saatları mövzular arasında bölüşdürən və izahat vərəqinə malik olan sənədə TƏDRİS PROQRAMI deyilir.(**yəni, burada hər mövzuya verilən saat, saatların miqdarı göstərilir və tədris planına əsasən hazırlanır).

**DƏRSLİK KOMPLEKTİ : metodik vəsait, dərslik və iş dəftəri.**

**Dərslik** təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resuslardan biridir.Şagird şəxsiyyətinin formalaşmasında dərsliklər mühüm rol oynayır.Şagirdlərin təfəkküründü inkişaf etdirmək, əqli fəaliyyətinin əsas üsullarını formalaşdırmaq üçün dərsliklər ən etibarlı vəsait kimi dəyərləndirilir. Dərslikləri kurikulumların tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm **pedaqoji prinsiplərin** gözlənilməsi zəruri hesab edilir.Bunların sırasında aşağıdakılar vardır.(Dərslikdə **şüurluluq, ifadəlilik adlı prinsiplər yoxdur)**.**1. Düzgünlük –**dərsliyin bu prinsipə uyğun hazırlanması üçün bu tələblərin nəzərə alınması vacibdir: - təlim standartlarına uyğunluq; - faktorların dəqiqliyi; - orfoqrafiya, durğu işarələri, qrammatik qaydaların gözlənilməsi; - mübahisəli faktorların olmaması. **2.Əyanilik –**dərsliklər hazırlanarkən onların özünəməxsus cəhətləri, aid olduğu fənnin xüsusiyyətləri əsas götürülür, zəruri hesab edilən müvafiq əyani vasitələr seçilir. **3. Müasirlik –** dərsliyin ən mühüm atributlarından biri onun yeniliyi, müasirliyidir.Dövrün, zamanın tələb və ehtiyaclarını özündə əks etdirməsi, şagirdlərdə yenilik əhval-ruhiyyəsi yarada bilməsidir.Dərsliyin müasir olması üçün fakt və hadisələrin inkişafla bağlı olması, onu əks etdirməsi əsas şərtlərdən biridir.Bununla yanaşı, yeni texnologiyalara istinad olunması, onların dərsliyin məzmununa gətirilməsi də müasirliyin

əlamətlərindən sayılır. **4. Tamlıq** –tədris vasitələrindən biri kimi dərsliyin bütövlüyü, tamlığı onun məzmununda aşağıdakı müəyyən komponentlərin olmasını tələb edir. **5. Ardıcıllıq** –dərsliklərin məzmunundakı materialların sıralanmasında ardıcıllıq mühüm prinsiplərdən biri kimi gözlənilir.Bu zaman ardıcıllığın aşağıdakı parametrləri əsas götürülür: **- psixoloji baxımdan; -məzmun baxımından; - təqvim- tematik baxımdan; - məntiqi baxımdan.** Psixoloji baxımdan ardıcıllıq təlim materiallarının maraqlılıq səviyyəsinə görə düzülməsini tələb edir.Məzmun baxımından ardıcıllıq təlim
materiallarının sadədən mürəkkəbə doğru sıralanmasında özünü göstərir. Təqvim – tematik baxımdan ardıcıllıq müvafiq təlim materiallarının düzülməsində tarixi gün və hadisələrin nəzərə alınmasını, məntiqi baxımdan ardıcıllıq iə ilkin təlim materialları vasitəsilə ilə növbəti təlim materiallarının mənimsənilməsi üçün zəmin y**aradılmasını tələb edir. 6. Yaş səviyyəsinə uyğnluq.** Dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmalıdır.Bu zaman iki əsas tələb diqqət mərkəzində saxlanılmalıdır: a) dizayn; b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı.**7. Təlim vaxtına uyğunluq.** Təlim materialının miqdarı və ağırlıq çəkisi müəyyənləşdirilərkən ayrılıan vaxt nəzərə alınır.**8. Oxunaqlıq.**Təlim materialının lakonikliyi, aydın üslubda, sadə dildə olması öyrənmə fəaliyyətinin səmərəliliyini atrırır.**9. Fəal təlim üçün şəraitin yaradılması. 10. Gigiyenik tələblərə uyğunluq .**Dərsliklər həm də gigiyenik tələblərə cavab verməli, ona uyğun hazırlanmalıdır.

## 27. TƏRBİYƏ. TƏRBİYƏNİN ÜSULLARI. PLAN:

1. **Tərbiyə prosesinin səciyyəvi xüsusiyyətləri**
2. **Tərbiyənin prinsipləri və qanunauyğunluqları**
3. **Tərbiyə üsulları**
4. **Tərbiyə işinin əsasında dayanan ideyalar**

Dövlətin gücü insanın tərbiyəsindən asılıdır.İnsanlar ədəbə elmdən daha çox möhtacdır.**Tərbiyə - davranışla əlaqədar olan mənəvi keyfiyyətlərin məqsədyön- lü, planlı və mütəşəkkil şəkildə formalaşdırılması prosesidir.**Yaşlı nəslin əldə
etdiyi bilik,bacarıq və təcrübənin yetişən nəslə məqsədyönlü, planlı, mütəşəkkil şəkildə verilməsi, öyrədilməsidir.**Tərbiyə prosesinin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır :**

1. Tərbiyə prosesi məqsədyönlü prosesdir;
2. Tərbiyə prosesi çoxamilli prosesdir;

3. Tərbiyə prosesi fasiləsiz prosesdir;
4. Tərbiyə prosesi kompleks prosesdir.
5. Tərbiyə uzun sürən prosesdir
6. Tərbiyə prosesi mürəkkəb və az nəzərə çarpan prosesdir
7. Tərbiyə prosesi dəyişkən, qeyri-müəyyən prosesdir
8. Tərbiyə dialektik prosesdir
9. Tərbiyə dinamik prosesdir
10. Tərbiyə ikitərəfli prosesdir
11. Tərbiyə ziddiyyətli prosesdir
12. Tərbiyə prosesi çoxçalarlı prosesdir

**Tərbiyənin tərkib hissələri: 1. Əqli təhsil və elmi dünyagörüş. 2. Əxlaq tərbiyəsi. 3.Əmək tərbiyəsi. 4. Estetik tərbiyə. 5. Fiziki tərbiyə. 6. Hüquq tərbiyəsi. 7. İqtisadi –siyasi tərbiyə.8. Ekaloji tərbiyə. 9.Mənəvi tərbiyə.**

Təlim və tərbiyənin ortaq ortaq prinsipləri: 1. Həyatla əlaqələndirmə; 2. Fərdi xüsusiyyətlərin nəzərə alınması; 3. Yaş xüsusiyyətlərinin nəzərə alınması; 4.Şüurluluq və fəallılıq.

**Şəxsiyyətin təhsil və tərbiyəli olmasına təsir göstərən amillər.: Şəxsiyyətə xaricdən edilən təsir, özünütəhsil, özünütərbiyə.**

## TƏRBİYƏNİN PRİNSİPLƏRİ

Pedaqogikada tərbiyənin prinsipləri dedikdə tərbiyə prosesində rəhbər tutulası əsas tələblər, başlıca müddəalar başa düşülür.Tərbiyə praktikasında daha çox istinad olunan prinsiplər bunlardır :

1. **Tərbiyədə məqsədyönlülük prinsipi** qarşıda duran məqsədə qəti və fəal surətdə can atmaqda ifadə edilir.Tərbiyə prosesində məqsəd aydınlığının gözlənilməsi ictimai faydalı işləri , sinifdənkənar tədbirləri düzgün və rəngarəng təşkil etmək imkanı yaradır.
2. **Tətbiyənin həyatla, əməklə, quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi** şagirdlərin, cəmiyyətin həyatı ilə dərindən tanış olmasına və onun yenidən qurulmasında fəal iştirak etməsinə şərait yaradır.
3. **Tərbiyədə yaşauyğunluq prinsipi.**Hər yaş dövrünün başqasından fərqləndirən fiziki və psixi xüsusiyyətləri vardır: Yaş dövrlərində uşaqların inkişafı üç istiqamətdə gedir: 1)anatomik-fizioloji inkişaf; 2)psixoloji inkişaf;
   3) Intellektual – mənəvi inkişaf.
4. **Tərbiyədə uşaqların fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması prinsipi:**Ayrı- ayrı yaş dövrünün özünəməxsus xüsusiyyətləri olduğu kimi, ayrı-ayrı uşağın da yaşıdından, həmçinin oğlanı qızdan fərqləndirən

xüsusiyyətlər olur.Bu xüsusiyyətləri nəzərə almadan tərbiyədə yaxşı nəticələr qazanmaq mümkun deyil.

5. **Tərbiyədə nikbinlik prinsipi.**Ərəbcə "Nik" – yaxşı," bin" görmək deməkdir. Nikbinlik – yəni uşağa yaxşı nəzərlə baxmaq deməkdir.Yaxşı nə varsa hamısı uşaqlara verilməli, gözəl nə varsa hamısı uşaqların olmalıdır.
6. **Tərbiyədə fərdi yanaşma prinsipi** hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağı tələb edir.Şagirdlərin öz sevincləri, həyat haqqında öz təsəvvürləri vardır, buna görə də, müəllim şagirdləri tanımalı onların zəif və yaxşı cəhətlərini bilməli və işin xeyrinə istiqamətləndirməyi bacarmalıdır.
7. **Yaxşı keyfiyyətlərə istinad etməklə qusurlarını aradan qaldırılması prinsipi.** Həyatda elə uşaq yoxdur ki, o yalnız müsbət yaxud mənfi sifətlərin təcəssümündən ibarət olsun.Hər bir uşaqda hər iki sifətin az və ya çox dərəcədə nümunələrinə rast gəlmək mümkündür.Təcrübəli müəllimlər həmişə nikbin olur, heç bir çətinlik önündə ruhdan düşmür, uşaqdakı yaxşı sifətlərə istinad etməklə onların qusurlarını asanlıqla aradan qaldırırlar.
8. **Tərbiyədə uşağa hörmət və tələbkarlıq prinsipi**
9. **Tələblərdə vahidlik prinsipi**

**10.Tərbiyədə sözlə əməlin birliyi**
**prinsipi 11.Tərbiyədə aşkarlıq prinsipi**
**12.Tərbiyədə uşağa hərtərəfli təsir göstərmək prinsipi**
**13.Tərbiyədə ardıcıllıq və sistemlilik prinsipi**
**14.Kollektivdə kollektiv vasitəsilə tərbiyə prinsipi**
**15.Tərbiyədə tərbiyə edənlə, tərbiyə edilənin birgə fəaliyyəti prinsipi**

## TƏRBİYƏ PROSESİNİN QANUNAUYĞUNLUQLARI

Təlimin qanunauyğunluqları dedikdə bu anlayış sabit təkrarlanan və tərbiyə prosesində mühüm əlaqədə olan amilləri nəzərdə tutur ki, onların yerinə yetirilməsi şəxsiyyətin inkişafı və formalaşmasında səmərəli nəticəyə gətirib çıxarır.Tərbiyə prosesinin qanunauyğunluqları aşağıdakı kimi müəyyənləşdirilmiş – dir.**1. Bütün tarixi mərhələlərdə tərbiyənin xarakteri istehsalın obyektiv tələbləri və cəmiyyətin aparıcı sinfinin maraqları ilə müəyyənləşir ki, bu da onun mühüm qanunauyğunluqlarını təşkil edir. 2. Mütəşəkkil tərbiyə prosesi – ictimai həyatın obyektiv və subyektiv amilləri ilə şərtlənir. 3. Tərbiyə cəmiyyətin**
**inkişafı ilə qarşılıqlı əlaqədə, dialektik vəhdətdədir. 4. İnkişaf həm verbal proseslərlə(nitqlə,tə fəkkürlə), həm də sensor – hərəki proseslərlə bağlıdır.Verbal proseslər- şüurun, mənəviyyatın, sensor – hərəki prosesləri isə isə praktik hərəkətlərin əsasında formalaşır. 5. Tərbiyə əməli fəaliyyət və ünsiyyətlə ayrılmazdır və tərbiyənin göstəricisi əməl, fəaliyyət və davranışdır. 6. Şəxsiyyətin daxili aləminə - yəni mənəvi, intellektual, emosional və iradi**

**fəaliyyət sahələrinə tərbiyənin təsir gücü ilə əldə edilən nəticə arasında mütənasiblik vardır. Tərbiyə prosesinin qanunauyğunluqları** Tərbiyə, Təhsil, Təlimin qarşılıqlı əlaqəsini təmin edir.

## TƏRBİYƏNİN ÜSULLARI

Müasir pedaqogikada tərbiyənin aşağıdakı **üsulları** mövcuddur.

1. İnandırma üsulu düzgün tərbiyə tələblərinin nədən ibarət olmasını izah etmək və onların icrasının zəruriliyinə tərbiyə olunanları inandırmaq, bu haqda onda əqidə yaratmaq üçün istifadə olunan yol və vasitələrə deyilir. Disput inandırma üsuludur.
2. Alışdırma üsulu - əxlaqi hərəkəti dəfələrlə təkrar etdirməyə alışdırma üsulu deyilir.
3. Rəğbətləndirmə və cəzalandırma :Rəğbətləndirmə tərbiyə olunanın hərəkətlərinə müsbət, cəzalandırma isə mənfi qiymət vermək deməkdir. Azərbaycan Təhsil Nazirliyi tərəfindən bu **rəğbətləndirmə** növləri müəyyən edilmişdir: **tərifləmə, təşəkkür, mükafatlandırma, tərifnamə. Cəza tədbirləri bunlardır: danlaq, dərsdən kənar etmək, dərsdən sonra saxlamaq – icra olunmamış tapşırığı icra etmək məqsədi güdür, şagirdi pedaqoji şuraya çağırmaq, əmrlə töhmət, paralel sinifə köçürmə, başqa məktəbə köçürmə, məktəbdən xaric etmək.**
4. Müəllimin – tərbiyəçinin şəxsi nümunəsi.- nümunə əyani tərbiyə üsulu olub tərbiyə olunanlara güclü təsir vasitəsidir.Tərbiyəçi və müəllimin verdiyi tərbiyə tələbənin daşıyıcısı olması zəruri pedaqoji tələbdir.

   **Tərbiyə işinin əsasında dayanan ideyalar bunlardır:**

   1. **Tərbiyə məqsədlərində realizim(**reallıq olmalı yəni tərbiyə prosesində real toxunulacaq vəziyyət, tərbiyə edən, tərbiyə olunan olmalıdır)
   2. **Özünütərbiyəetmə (**tərbiyə verməklə təəssüf ki, iş tamamlanmır, özüntərbiyə də burda əsas rol oynayır).
   3. **Uşaqlarla böyüklərin birgə fəaliyyəti(**bunlardan əlavə, tərbiyə yalnız məktəblə məhdudlaşmamalı, valideynlərin də burda rolu böyükdür)
   4. **Könüllülük(** hər iş könüllülük mütləqdir, əgər mən bu işi görmək istəmirəmsə, heç vaxt həmin iş uğurlu olmayacaq.Yəni şagirdin könüllü olması zəruridir)

   **(Asan yadda saxlamaq yolu: Realizmlə başlayır, Könüllülüklə bitir)**

## 28. TƏLİM PROSESİ PLAN:

1. **Təlim mərhələləri**
2. **Təlim prosesinə müxtəlif yanaşmalar**
3. **Təlimin prinsipləri**

4. **Təlimin təşkili förmaları**

**Təlim –** öyrədənin rəhbərliyi ilə öyrənənlərin həyatı dərk etməsi və bu əsasda bilik, bacarıq, vərdişlərə yiyələnməsidir.**Təlim** ərəb sözüdür.” **Aləmə”** kökündən olan “təlim, öyrətmə,elmi nəzəriyyə” mənalarında işlədilir.**Təlim hər şeydən öncə, şagirdləri elmlərin əsasları ilə dərindən silahlandırmağa, əqli və praktik fəaliyyətləri üçün bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə xidmət edir. Təlim üçün xarakterik əlamət:** şagirdlərin təhsilini, tərbiyəsini, inkişafını və formalaşmasını plana uyğun surətdə təşkil və idarə etmək.

**TƏLİM**- şagirdlərin dünyagörüşünün inkişafı probleminə istiqamətlənir, onlarda “**şəxsiyyət azadlığı”** kimi çox mühüm keyfiyyətin formalaşması şəraitini yaradır. **BİLİK –**təbiət, cəmiyyət, insan təfəkkürü haqqında qaydalar, qanunlar, qanunauyğunluqlar haqqındakı faktlar, məlumatlar sistemidir.**BACARIQ –** biliklərin tətbiq edilməsidir. Bacarıqlar sistemli təlim müəssusələrində formalaşdırılır.Hər bir şagirdə öyrəndiyi elmi faktı tətbiq etmə bacarığı formalaşdırılır.**Vərdişlər –** bacarıqların dəfələrlə təkrarı nəticəsində avtomatlaşmış formasıdır.**Təlim üç**
**başlıca funksiyanı yerinə yetirir : öyrətmək, tərbiyə etmək və inkişaf etdirmək.** Təlimin **təhsilləndirici(öyrədici)** funksiyası şagirdləri proqram dairəsində bilik, bacarıq və vərdişlərlə silahlandırmaqda ifadə olunur. Təlimin **tərbiyəedici**
**funksiyası** təlim prosesində şagirdləri tərbiyə etməkdə ifadə olunur. Təlimin **inkişafetdirici** funksiyası təlim prosesində şagirdlərin ümumi inkişafında, psixi proseslərin təşəkkülündə ifadə olunur.

## TƏLİMİN MƏRHƏLƏLƏRİ

Təlimin mərhələləri və onların ardıcıllığı belədir:

1. **Yeni tədris materialının qavranılması;** Təlimin bu mərhələsində şagirdlər öyrənilən mövzu(material), qanun və ya qayda ilə ilkin tanış olurlar.
2. **Biliklərin, bacarıq və vərdişlərin formalaşması;** Təlimin bu mərhələsində uşaqlar müəllimin rəhbərliyi ilə müəyyən əqli nəticələr çıxarır, öz fikirlərinin doğruluğunu isbat etməyə meyl göstərirlər, onlarda əqidə ünsürləri yaranır, öyrəndikləri hadisələrə müəyyən mövqedən yanaşmağa başlayırlar.
3. **Biliklərin, bacarıq və vərdişlərin möhkəmləndirilməsi və tətbiqi;** Əsas şəkildə dərk edilən bilik və bacarıqlar sonra möhkəmləndirilir.
4. **Müvəffəqiyyətin hesaba alınması və qiymətləndirilməsi.**Təlim zamanı şagirdlərin mənimsəmə fəaliyyətinə nəzarət imkan verir ki, müəllim onların bilik və bacarıqlarının mövcud vəziyyətdən hali olsun, ehtiyac duyan, çətinlik çəkən şagirdlərə lazımi köməklik göstərsin, müvafiq istiqamət versin.

**Asan yadda saxlamaq yolu:** Qavrama ilə başlayır, Qiymətləndirmə ilə bitir.Ortada isə formalaşdırma və tətbiq yer alır.

**Nəzarətin müxtəlif növləri var:gündəlik nəzarət, tematik nəzarət, dövrü nəzarət, yekun nəzarət.**

## TƏLİM PROSESİNƏ MÜXTƏLİF YANAŞMALAR

Müasir dövrdə təlimə müxtəlif yanaşmalar mövcuddur:

1. **Problemli təlim –** dedikdə təlim prosesində problemli vəziyyət yaradıb şagirdlərin təfəkkürünü, düşüncə tərzini inkişaf etdirmək nəzərdə tutur.
2. **Proqramlaşdırılmış təlim –** öyrədilən materialın məzmunu hissələrə ayırır, hər hissənin icrası üzrə öyrənən (şagird və tələbə, işçi) xüsusi tapşırıq alır, yerinə yetirilən tapşırıq möhkəmlənirilir, sonra digər hissə yerinə yetirilir, səhvə yol verildikdə yeni izahat verilir və səhv edilən hissə yenidən yerinə yetirilir.
3. **Alqoritmləşdirilmiş təlim –** müasir pedaqogikada xüsusi əhəmiyyətə malikdir.Alqoritm müəyyən tipə aid idraki və əməli vəzifələrin məntiqi ardıcıllıqla yerinə yetirilməsidir.Alqoritm prosesində bir və ya silsilə məsələlərin həlli ən sadə addımlarla icra edilir və hökmən düzgün nəticəyə gətirilir.
4. **Differensial təlim –** Təhsilalanın **şəxsiyyətinə yönəlmiş** təlimdir.Differensial təlim – təlimi **fərdiləşdirməyə** imkan verir.**Şagirdin maraqları nəzərə alınır.** Təlimdə diferensiasiya bir neçə istiqamətdə aparıla bilər: 1. Təhsilalanların Qabiliyyətinə görə(ümumi qabiliyyətlər xüsusi qabiliyyətlər). 2. Təhsilalan- ların Miqdarına görə.3.Təhsilalanların İxtisasına görə.

**Təlimin mötivləri: İdrak və sosial motivlər.**

## TƏLİMİN PRİNSİPLƏRİ.

**Təlimin aşağıdakı prinsipləri vardır : (**nikbinlik, hörmət və tələbkarlıq, varislik, şagidin fəallığı prinsipi yoxdur).(testlərə ən çox bu prinsiplərlə qarışıq formada düşür).

1. **Elmilik prinsipi xüsusi bir əhəmiyyət kəsb edir.**Bu prinsip hər bir fənnin məzmununda elmin əsas, inkişaf meyillərini əks etdirən və eyni zamanda müvafiq yaşda olan uşaqların başa düşə biləcəyi aparıcı ideyaları müəyyənləşdirməyi tələb etmişdir.
2. **Təlimin həyatla, quruculuq işi ilə əlaqələndirilməsi –** Yeni təlim işi bilavasitə həyatın tələbləri ilə əlaqələndirilməli, həyatla bağlanmalıdır. Orta ümumtəhsil məktəblərində tədris edilən hər bir elmin həyati əhəmiyyəti şüurlu surətdə dərk edilməlidir.

3. **Təlimin mövcud əxlaq normalarına uyğun tərbiyələndirilməsi –** (təlim, tərbiyə + tərbiyə olmalıdır).Bu prinsip pedaqoji qanunauyğunluqlardan biridir. Belə ki, öyrənənlər təlim prosesində biliklərə yiyələnməklə yanaşı həm də tərbiyə olunurlar.Təlim materiallarının məzmunu elə qurulur, tərtib edilir ki, o, həm də mövcud əxlaq normaları baxımından tərbiyə edir.
4. **Təlimdə müvafiqlik prinsipi –**Bu prinsip təlimi öyrənənlərin inkişaf səviyyəsinə - psixoloji, fizioloji və intellektual – uyğun şəkildə qurmağı tələb edir.Məlumdur ki, təlim- tərbiyə praktikasında iki mühüm tələb
gözlənilir: 1) şagirdlərin yaş inkişafının qanunauyğunluqları nəzərə almaq, 2) təlim- tərbiyə prosesini şagirdlərin inkişaf səviyyəsinə uyğun olaraq təşkil etmək və həyata keçirmək.Təlimin müvafiqlik prinsipi bu tələblərdən formalaşmışdır.Təlimin müvafiqliyi məktəblilərin yaş xüsusiyyətləri ilə müəyyən olunur və onların fərdi xüsusiyyətlərindən asılıdır.
5. **Fərdi yanaşma –** Təlim prosesində məhz fərdi xüsusiyyətlər nəzərə alınmalı, hər kəsə bu fərdi imkanlara uyğun olaraq yanaşılmalıdır.
6. **Əməkdaşlıq prinsipi –** Təlimdə müəllim və fəaliyyəti bir-birini şərtləndirir
7. **Əyanilik -** Təhsilalanların **duyğu orqanlarını** hərəkətə gətirən təlim prinsipidir. Bu prinsip dərk etməni real əşya və ya hadisələr, faktlar üzərində qurmağa deyilir.Yəni təlim zamanı müəllim şagirdlərə yalnız danışaraq məlumat vermir, şagirdlərə əyani vəsaitlərlə, real görüntülərlə və ya mövzuya aid ekskursiyalar təşkil etməklə daha səmərəli təlim təşkil edir.
8. **Şüurluluq və fəallılıq –** Yeni materialı dəlil və sübutlarla, isbatlarla öyrənməyə fəal surətdə bilik əldə etmə, biliklərini tətbiq etməyə şüurluluq və fəallıq deyilir.
9. **Sistematiklik və ardıcıllıq –** Bu prinsip elmlərin əsaslarına yiyələnən zaman elmin sistemini mühafizə etmək, bilik bacarıq və vərdişləri aşılayarkən müəyyən ardıcıllığa riayət etmədir.
10. **Möhkəmləndirmə prinsipi –** Təlimin müvəffəqiyyətini təmin edən əsas və mühüm prinsiplərdən biri də biliklərin möhkəmləndirilməsidir.Yeni həqiqətlərin kəşfinə deyil, artıq kəşf olunmuş həqiqətlərin mənimsənilməsinə yönəldilən öyrənmənin xüsusiyyətlərini səciyyələndirir.Bu proses yalnız əvvəllər əldə edilmiş olan bilik, bacarıq və vərdişlərin kök salıb bərkiməsi əsasında təkmilləşdirilə bilər.
11. **Təlimdə yaşauyğunluq prinsipi –** Təlim zamanı yaş xüsusiyyətlərinin nəzərə alınması ən vacib prinsiplərdən biridir.Ümumiyyətlə, hər bir yaş

dövrünə uyğun şagirdlərin maraq və ehtiyacları fərqlidir.Təlimi şagirdlərin marağına uyğun təşkil etmək isə təlimin keyfiyyətini artırır.

**TƏLİMİN TƏŞKİLİ FORMALARI**

1. **Yeni materialın qavranılmasını təmin edən dərs(deklarativ bilik)**
2. **Bilik və bacarıqların formalaşmasını təmin edən dərs(induktiv – yeni dərs)**
3. **Bilik bacarıq və vərdişlərin təkmilləşdirilməsini təmin edən dərs( deduktiv – təkrar dərs)**
4. **Bilik və bacarıqların inkişaf dərəcəsinin yoxlanılması üçün dərs(KSQ, BSQ)**
5. **Kombinə edilmiş dərs(inteqrasiya)**

## 29. TƏLİMİN ÜSULLARI.

**PLAN:**

1. **Təlim metodlarının səmərəliliyi**
2. **Ənənəvi təlimdən fəal və interaktiv təlimə**
3. **Təlimin amilləri**
4. **Təlim və təhsil mühiti**

**Təlim prosesində qarşıya qoyulmuş təhsil, tərbiyə və inkişaf vəzifələrinin həllinə yönələn, təlimin qanunauyğunluqlarından irəli gələn prinsiplərlə şərtlənən, müəllim və şagirdlərin fəaliyyətinin dialektik vəhdətini təmin edən qaydalar sisteminə(təlim sisteminin komponentinə) təlim metodu deyilir.**Müəllimin şagirdləri biliklərlə silahlandırmaq, onların fəaliyyətini düzgün istiqamətləndirmək üçün sevdiyi yollar və vasitələrin məcmusudur.Təlim metodlarının səmərələləiyi təhsil – 1)tərbiyənin məqsədindən, 2) təhsilin məzmunundan, 3) şagirdlərin yaşından asılıdır.

1. **Şifahi və müsahibə metodları: izah, nəql, mühazirə, müsahibə.**
2. **Demonostrasiya və illustrasiya metodları: Demonostrasiya (**demonstration – nümayiş sözündən yaranıb) fakt və hadisələri dinamikada hərəkətdə, dəyişmə və inkişaf vəziyyətində göstərməyə deyilir.**Demonostrasiya** –bir çox mövzuların şüurlu başa düşülməsini təmin etmək məqsədilə dərsdə müxtəlif əşyaların, cihazların, alətlərin, vəsaitlərin dinamikasının açılması, diafilmlərin, kinofilmlərin, təcrübələrin göstərilməsi lazım gəlir.Demonostrasiya sadəcə nümayiş deyil, həm də canlı prosesdir.

deyilir.İllustrasiyanın müxtəlif növləri vardır.**1. Təbii şəkildə əşyanın özü; 2. Əşyanın şəkli; 3.Əşyanın modeli və ya maketi; 4. Simvolik və ya sxematik materiallar(xəritə, qlobus,cədvəl,sxem diaqram və s).**İllustrasiya demonostrasiya metoduna çox yaxın olan və bir-birini tamamlayan metod olub, əşya və hadisələrin bilavasitə özlərinin təqdim olunması ilə deyil, simvolik təsvirlərin köməyi ilə qavranılması metodudur.Əşya və hadisələr, həmçinin demonostrasiyada canlı verilən proseslər illustrasiya metoduna əsasən plakatların, fotoşəkillərin, sxemlərin,yastı modellərin, rəsmlərin köməyi ilə verilir.İbtidai siniflər üçün müxtəlif mövzularda (meyvə, tərəvəz, heyvanlar, quşlar, ağaclar və s.) şəkilli kartoçkalar, coğrafiya və tarixə dair xəritələr, albomlar və s. geniş yayılmış illustrativ materiallardır.**Asan yadda saxlamaq yolu:** Məsələn, meyvələr mövzusunda almanın özünü göstərməyimiz demonostrasiyadır, almanın şəklini göstərməyimiz illustrasi- yadır.

3. **Labarator məşğələləri, praktik məşğələlər və çalışmalar.**
4. **Kitab üzərində iş**

**Təlimin sinifdənxaric iş formaları dərnək, ev tapşırıqları, ekskursiyalar.**

**Ənənəvi təlimdən fəal və interaktiv təlimə.**

Pedaqoji tədqiqatlardan məlum olmuşdur ki, təlim prosesinə metodik yanaşmanın əsas üç növü vardır:

1. **Passiv ənənəvi təlim:** Ənənəvi təlim zamanı şagirdlərin dərketmə fəallığı passiv, reproduktiv xarakter daşıyır.Belə dərsdə yalnız informasiyaların toplanmasına və yaddaşın məşq etdirilməsinə yönəlmiş, həyatın real tələbatlarından kənar olan təhsil şəraitində müasir dövrün şəxsiyyətinin, hərtərəfli inkişaf etmiş insanın formalaşdırılması çətindir.
2. **Müasir fəal təlim:** Fəal təlim metodu elə təlim metodudur ki, dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqə, münasibət, ünsiyyət, müəllim- şagird əməkdaşlığı vardır.Şagirdlər passiv dinləyici deyillər.Onlar dərsin fəal iştirakçılarıdır, müəllimin yaxın köməkçisidir. Fəal təlimdə müəllim və şagird eyni səviyyədə, eyni dərəcədədirlər.
3. **Yeni interaktiv təlim:** İnteraktiv təlim zamanı isə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib onlara yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb araşdırmağı, nəyi harada öyrənməyi öyrətməkdən ibarətdir.İnterakiv təlim metodları özü də fəal təlim prosesinə daxil olan metodlardandır.Burada biliyin əsas qrup və çütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyəənməyə,

cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edən demokratik üsullarla aparılan təlim prosesidir.

**TƏLİMİN AMİLLƏRİ.**

Təlim prosesinin **gedişinə və nəticələrinə** çoxlu sayda müxtəlif səbəblər təsir göstərir;

1. Birinci baş amil " **tədris materialı"**dır.Bu amil olduqca özünəməxsus informasiyadır.B aşqa informasiya ilə müqayisədə o, pedaqoji cəhətdən işlənmiş informasiyadır.Tədris informasiyası iki yerə ayrılır:
   1)**koqnitiv informasiya**( bilik verən informasiya; yəni, kitabdan əldə olunan bilik- deklarativ bilik). 2) idarəedən informasiya (konqnitiv informasiyanı necə mənimsəmək haqqında siqnallar yəni prosedural bilik).Başqa informasiya ilə müqayisədə "tədis materialı" pedaqoji cəhətdən işlənmiş informasiyadır.Tədris prosesi üçün informasiyanın yararlılığı, onun gücə müvafiqliyi, təlimdə qazanılan nəticələr məhz həmin informasiyanın pedaqoji cəhətdən işlənilmə səviyyəsindən, keyfiyyətindən asılıdır.Baş amil kimi "tədris materialı"nın tərkibində iki kompleks amil bir – birindən məntiqi surətdə fərqlənir: 1) obyektiv informasiya kompleksi; 2)pedaqoji cəhətdən işlənmiş informasiya kompleksi.Birinci kompleksə tədris materialının məzmunu, kəmiyyəti, keyfiyyəti, forması, strukturu kimi ümumi amillər aiddir.İkinci kompleksə tədris materialının öyrənilmə ardıcıllığı, ona ayrılan vaxt və s. daxildir.
2. İkinci baş amil **"təşkilat – pedaqoji təsir"** amilidir.Çox sayda səmərəverən səbəbləri özündə birləşdirir.Bu səbəblər müəllimin müəllimin fəaliyyətini, tədris prosesinin təşkilinin keyfiyyət səviyyəsini, tədris və pedaqoji əməyin şəraitini xarakterizə edir.Bu amilin tərkibində iki kompleks amil vardır: 1) dərsdə təşkilati-pedaqoji təsir; (müəllimin sinifdə dərs qurmağı). 2) sinifdənxaric və məktəbdənkənar məşğələlərdə təşkilati – pedaqoji təsir.
3. Üçüncü baş amil "**şagirdlərin oxumağa qabilliyi"**dir.Bu, şagirdlərin oxumağa qabilliyi(yararlılığı) və müəyyən olunmuş müddətdə layihələşdirilmiş nəticələrə nail olmaq imkanlarıdır.Dərsdə oxumağa qabilliyi aşağıdakı səbəblər xarakterizə edir: oxuyanların ümumi hazırlıq səviyyəsi(erudisiyası); müəyyən tədris materialına yiyələnmə; bilik, bacarıq və vərdişləri mənimsəmə qabiliyyəti; diqqətin ümumi xarakteristikası(sinir sisteminin, temperamentin və yaşın xüsusiyyətləri); və s.

**4.** Dördüncü baş amil "**vaxt"**dır. Onu da iki yerə bölmək olar:1)bilavasitə dərsdə sərf olunan vaxt; 2)Müstəqil surətdə oxumağa sərf olunan vaxt.Dərsdə sərf olunan vaxta aiddir: biliklərin qavranılmasına və ilkin mənimsənilməsinə, öyrənilən biliklərin möhkəmləndirilməsinə, nəzarətin, təkrarın və möhkəmləndirmənin dövri aparılmasına, təlimi başa vurandan sonra keçən, məqsədəuyğun olaraq informasiyanın hafizədə saxlanılmasına və s. sərf olunan vaxt və s.

**TƏLİM MÜHİTİ-** məktəb şagirdlərin qruplarda düşünməsini təmin edir ki, bu da yarışmanı deyil, əməkdaşlığı təmin edir.

**TƏHSİL MÜHİTİ –** Təhsilin mühiti həyatın özü olmalıdır.Burada şagirdlər həyata hazırlanmamalı, həyatın içində öyrənməlidir. **QEYD:**

**Təlim və Tərbiyənin oxşar əlamətləri:** Prinsiplərində, təşkilində, üsullarında, praktiki üsullarında ümumilik.
**Təlim və Tərbiyənin ortaq prinsipləri:** Fəalləq, sistemlilik və ardıcıllıq, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması.
**TƏRBİYƏ** daha çox insanın əxlaqını, mənəviyyatını formalaşdırır, onun daxili aləminə təsir göstərir; **Təlim** isə daha çox insana bilik verir və dünyagörüşünü formaılaşdırır.
**TƏRBİYƏ** prosesinin səciyyəvi cəhətlərindən biri tərbiyə işinin nəticəsinin gec görünməsi və ya heç bəlli olmamasıdır
**TƏRBİYƏ** uşağın məktəbə daxil olmasından çox əvvəl ailədən, hətta ana bətnindən başlayır və bütün həyatı boyu davam edir.**Təlim** prosesi isə insanın müəyyən yaş dövrünü , həyatın müəyyən bir hissəsini əhatə edir.

## 30. TƏLİM TEXNOLOGİYALARI

**PLAN:**

1. **Pedaqoji texnologiya**
2. **Müəllim fəaliyyətinin funksional komponentləri**
3. **Pedaqoji texnologiyaların təsnifi**

Təlim texnologiyaları təlimdə müəyyən məqsədə nail olmaq üçün müəllim və şagirdlərin nizama salınması qaydasıdır.Təlimdə tətbiq edilən texnologiyalar inkişafa nə qədər çox şərait yaradarsa, təlimin səmərəsi də bir o qədər yüksək olar. Texnologiyanın köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır.Texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənməl və təlim prosesini layihələşdirməkdir.Hazırda müasir pedaqoji praktikada geniş tətbiq olunan şəxsiyyətyönümlü inkişafetdirici pedaqoji

texnologiyalar aşağıdakılardır:1. əməkdaşlıqla təlim texnologiyası; 2. Layihələr metodu ilə təlim texnologiyası; 3. Modulla təlim texnologiyası.

Təlim txnologiyası təhsilin müvafiq mərhələsinə, məzmununa, formasına və təlimin (dərs) tipinə görə müxtəlif ola bilər.Bununla belə, ümumi qaydada təlim texnologiyasının strukturuna öyrədən-öyrənən fəalığının təkili, öyrənmə nəticə, korreksiya aparılması, öyrənmənin daha fəal və müstəqil qurulması, nəticələrin əldə edilməsi və qiymətləndirmə daxildir.

Praktik mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar, tapşırıqlar kompleksi başa düşülür. Təlimin texnologiyalarının prinsipləri –

1. **Tərbiyəedici təlim prinsipi**
2. **Inkişafetdirici təlim prinsipi**
3. **Bütün şagirdlərlə əks əlaqə prinsipi**
   **Pedaqoji texnologiya pedaqoji prosesə texnoloji proses kimi yanaşılması, son nəticəyə nail olmaq əməliyyatlar ardıcıllığı deməkdir.**
   Pedaqoji texnologiyada müəllimin fəaliyyətini aşağıdakı **funksional komponentlərə ayırmaq olar:**
   1. **Qnostik** (idraki) komponent: Təlim, təhsil-tərbiyənin məqsədləri, tədris etdiyi fənnin məzmunu barədə biliklər, şagirdləri öyrənmək, təlim prinsiplərini və texnologiyalarını öyrənmək, öyrədici və tərbiyəedici məşğələlər keçirmək və s.( **Bilmə mərhələsi)**
   2. **Layihələşdirici komponent:** Uzaq məqsədləri, əməliyyatları, vasitələri özündə birləşdirir; layihələşdirmə cinsi fərqlər( iki anlayışı, bir neçə mövzunu bir-birinə qatmaq olmaz)nəzərə almaqla həyata keçirilir.(PROSEDURAL BİLİK, PRAKTİKA)
   3. **Konstruktiv (**qurucu) komponent: Qarşıdakı məşğələni hazırlamaq üçün əməliyyatlar komplektini nəzərdə tutur.(Şagird məşğələnin üzərinə əlavələr edir və hazırlayır)
   4. **Təşkilatçılıq komponenti:** Məşğələləri hazırlamaq üçün əməliyyatlar komplektini nəzərdə tutur.(Məşğələni qarşılıqlı şəkildə müəllim-şagird münasibətləri çərçivəsində hansı əməliyyatlardan keçməli olduğunu qeyd edir)(Uşaqlarla birgə fəaliyyət)
   5. **Kommunikativ (ünsiyyət) komponenti:** Şagirdlərlə qarşılıqlı ünsiyyət prosesi zamanı fəaliyyət üçün əməliyyatlar komplektini özündə birləşdirir.
      Beləliklə müəllimin təlim texnologiyalarını aşağıdakı əməliyyatlar təşkil edir:

1. Bilikləri toplamaq üçün (əldə etmək) əməliyyatlar;
2. Təlimin və təhsil-tərbiyənin məqsədlərini layihələşdirmək üçün əməliyyatlar;
3. Təlim və təhsil-tərbiyə prosesini təşkil etmək üçün əməliyyatlar;
4. Bilikləri şagirdlərə öyrətmək üçün əməliyyatlar;

**Pedaqoji texnologiyalar aşağıdakı kimi təsnif oluna bilər ( TTİD)**

1. **Təlim texnologiyası** dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür.
2. **Tərbiyə texnologiyası** dedikdə, nisbi, sabit və müntəızəm olaraq ümumiləşən münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür.
3. **Inkişaf texnologiyası** təlim və təhsil-tərbiyə texnologiyası ilə əlaqədardır.Psixi inkişaf dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların(çıxarılması) çoxalması nəzərdə tutulur.Fiziki inkişaf zamanı fiziki bacarıqlar nəticə kimi özünü göstərir.
4. **Diaqnostika texnologiyası** pedaqoqların və ya psixoloqların uşağın məktəbə hazırlığını diaqnostlaşdırmasıdır.